RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 281 (9448) 23 DEKABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Hər kəndi bir tarixdir Qarabağın



## Prezident İlham Əliyev Şuşa və Xocalı rayonlarına səfər edib

Prezident İlham Əliyev Şuşa və Xocalıya səfəri zamanı Şuşanın "Saxsı" və "Turşsu" bulaqlarında olub, Turşsu qəsəbəsini gəzib, Xocalının Naxçıvanlı, Pircamal, Xanabad və Pirlər kəndləri ilə tanış olub.

2-3

## "Sizinlə birgə səylərimi davam etdirməyə hazıram"

**Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə**



Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Çin və Azərbaycan ənənəvi dost tərəfdaşlardır. Hazırda Çin-Azərbaycan münasibətləri çox yaxşı və sabit inkişaf edir, siyasi qarşılıqlı etimad daim möhkəmlənir, müxtəlif sahələrdə əməkdaşlıq müvəffəqiyyətlə irəliləyir. Sizin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi üzrə səylərinizi yüksək qiymətləndirirəm. Ötən ilin sentyabrında biz Səmərqənd şəhərində yeni dövrdə ikitərəfli münasibətlərin inkişafına dair mühüm razılaşmaların əldə olunduğu uğurlu görüş keçirdik.

Mən Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm, ölkələrimizin və xalqlarımızın rifahı naminə ikitərəfli dostluq və əməkdaşlıq münasibətlərini yeni səviyyəyə yüksəltmək üçün Sizinlə birgə səylərimi davam etdirməyə hazıram.

Sizə möhkəm cansağlığı və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

## İlham Əliyev adını Azərbaycan tarixinə qızıl hərflərlə yazıb

2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi və bu il sentyabrın 20-də antiterror tədbirləri nəticəsində əzəli tarixi torpaqlarımız olan Qarabağın və Şərqi Zəngəzurun işğalına son qoyulub, dövlətimizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib.

Bütün bu uğurların təməlində Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasını layiqincə davam etdirən dövlət başçısı möhtərəm cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasət xətti dayanır. Məhz onun fenomenal liderlik məharəti, idarəçilik bacarığı, əzmi və cəsarəti sayəsində Azərbaycan dünyanın sayılıb-seçilən dövlətləri sırasına çıxıb.

Milli Məclisin Sədri vurğulayıb ki, cənab İlham Əliyev xalq və Vətən yolunda müstəsna xidmətləri ilə öz adını Azərbaycan tarixinə qızıl hərflərlə yazıb. Ölkəmizin sürətli və dinamik iqtisadi inkişafı xalqımızın və dövlətimizin xoşbəxt gələcəyini təmin edən möhtəşəm layihələri reallaşdırmağa imkan verir. Məhz bunun nəticəsidir ki, Azərbaycan bu gün Qarabağda öz miqyasına görə heyrət doğuran bərpa-quruculuq işlərini əzmlə həyata keçirir.

7

## Çin Qafqazda Azərbaycanı seçir

### Rəsmi Pekin İlham Əliyevin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi istiqamətində səylərini yüksək qiymətləndirir

Bu gün Çin kimi böyük dövlətlə tərəfdaşlıq həm siyasi, həm də iqtisadi baxımdan hər bir ölkə üçün uğur vəd edir. Bu ölkənin rəhbərinin Azərbaycan Prezidenti ilə birgə səyləri davam etdirmək istəməsi həm ölkəmizə, həm də İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasətə verilən yüksək dəyərin əyani təzahürüdür.

Azərbaycan "Orta dəhliz", "Bir kəmər, bir yol" layihələri çərçivəsində də Çinlə uğurlu əməkdaşlıq edir. Azərbaycan Çin ilə Avropa arasında nəqliyyat prosesində mühüm rol oynayır və ölkəmizin nəqliyyat-logistika imkanları beynəlxalq yükdaşımalarında böyük əhəmiyyətə malikdir. Azərbaycan Çindən Avropaya və əks-istiqamətdə qatarlarla və digər yükdaşımaların artırılmasını tam şəkildə dəstəkləyir.

Azərbaycanla Çinin arasında nəqliyyat və logistika sahəsində əməkdaşlıq iqtisadi əlaqələrin inkişafına təkan verib. Ticarət dövriyyəsi artmaqdadır.

5

# On milyon ürəyə sığmayan sevinc

Xankəndi stadionunda baş tutan ilk futbol oyununa görə ən çox sevinən, şübhəsiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev oldu.

* İlham Əliyev qalib sərkərdə kimi sevinirdi!

* İlham Əliyev dövlətini separatçı zir-zibilindən təmizləmiş Prezident kimi sevinirdi!

* İlham Əliyev Qarabağa Azərbaycan idmanını yenidən qaytaran Milli Olimpiya Komitəsinin Prezidenti kimi sevinirdi!

* İlham Əliyev xalqına belə fərəh və qüruru yaşatdığı üçün sevinirdi!

* İlham Əliyev bir vaxtlar separatçıların öz sərsəm xülyalarını səsləndirdikləri Xankəndi stadionuna Azərbaycan xalqının və dövlətinin qələbəsini gətirdiyi üçün sevinirdi!

10



## Top da bizdədir, Topxana da...

2020-ci ilin sentyabrında düşmənin torpaqlarımıza növbəti təcavüzü qəzəblə qarşılandı. Yumruqlar düyünləndi. Xalq qəzəb, nifrət püskürdü. Ordumuz Zəfər yürüşünə çıxdı. Cəmi 44 gündə İlham Əliyevin qurduğu, yaratdığı Müzəffər Azərbaycan Ordusu döyüş tapşırığını ləyaqətlə yerinə yetirib, xalqımıza Zəfər qazandırdı.

Rəşadətli ordu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağı düşmən işğalından xilas etdi.

Hakimiyyətə gəldiyi ilk gündən regionda sülhün, sabitliyin bərpası, davamlılığı üçün çalışan İlham Əliyev Qarabağa, Qarabağın tacı Şuşaya ilk səfəri zamanı özü ilə "güllələnmiş heykəlləri" bərpa etdirərək apardı. Qarabağı dünyaya tanıdan sənətkarların ölməz ruhları Prezidentə "yoldaşlıq" etdilər.

Bir fərqə baxın. Ermənilər Qarabağı 30 ildə sökdülər, dağıtdılar. Səngərlər qazdılar, istehkamlar tikdilər. Qarabağa top, silah mərmisi daşıdılar. Bunkerlər düzəldib içində tanklarını gizlətdilər...

10

## "Siz haqlı olaraq həmvətənləriniz arasında və ölkə hüdudları xaricində böyük hörmətə maliksiniz"

**Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə**



Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz haqlı olaraq həmvətənləriniz arasında və ölkə hüdudları xaricində böyük hörmətə maliksiniz. Sizin rəhbərliyinizlə dost Azərbaycan iqtisadi və sosial sahələrdə əhəmiyyətli uğurlara nail olur, regional və beynəlxalq məsələlərdə mühüm rol oynayır. Sizin ölkələrimiz arasında müttəfiqlik münasibətlərinin möhkəmlənməsinə töhfəniz misilsizdir.

Konstruktiv dialoqun və sıx birgə əməkdaşlığın davam etdirilməsinə şad olardım.

Sizə möhkəm cansağlığı, səadət və rifah arzulayıram. Fürsətdən istifadə edərək ailənizə səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

## Azərbaycan Fransanı tam təcrid edir

### Bakı dünya miqyasında ifşa etdiyi Parisin Qafqazdakı casus şəbəkəsini də çökdürdü

25 illik vasitəçiliyi dövründə keçmiş Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir iş görməyən, Azərbaycanın torpaqlarının əbədi işğalda qalmasına səy göstərən "sülh göyərçini" Fransa 44 günlük Vətən müharibəsinin bölgədə yaratdığı yeni reallıqları qəbul etmək istəmir, illərdir yalan vədlərlə erməni lobbisindən qopardığı pulların əlindən çıxmasına, işğal altında olan Azərbaycan torpaqlarında qanunsuz olaraq sərvətlərimizi talamasına son verilməsinə dözə bilmir.

Gah Aİ missiyası çərçivəsində öz təqaüdçülərini sərhədimizə yığaraq Azərbaycana tərəf binokldan kəm gözlərlə baxır, gah ölkəmizə qarşı yalan və böhtanlardan ibarət informasiya kampaniyası başladır, gah təcavüzkar Ermənistanı silahlandırır, gah da Avropa Parlamenti kimi riyakar Qərb təşkilatlarından ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə edir, onlara qərəzli qətnamələr qəbul etdirir... Lakin bütün bu fitnə-fəsadlarla qoca qitənin məkrli ölkəsi heç nəyə nail ola bilmir...

13

## COP29 ölkəmizin və xalqımızın növbəti uğuru olacaq

Cari il dekabrın ikinci ongünlüyündə COP28-in Dubayda baş tutan sessiyasında COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyev Bakıdakı çıxışına bu sözlərlə yekun vurmuşdur: "Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

Görünən odur ki, Ulu Öndər Heydər Əliyevin uğurlu siyasəti Prezident İlham Əliyev tərəfindən layiqli formada davam etdirilir, qətiyyətlə Azərbaycan modelini dünyada gündəmə gətirir. Uğurlu siyasət ölkəmizin beynəlxalq arenada nüfuzunun gündən-günə artmasına səbəb olur.

12

# Hər kəndi bir tarixdir Qarabağın

## Prezident İlham Əliyev Şuşa və Xocalı rayonlarına səfər edib

### Şuşa rayonundakı "Saxsı" bulağına baxış

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Şuşa rayonundakı "Saxsı" bulağında olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdi.

Bildirildi ki, bulaq Şuşa şəhərinin şimal-qərb hissəsində, təxminən 5 kilometr məsafədə, Şuşa-Laçın yolunun üzərində yerləşir. Bulağın suyu tərkibinə görə çox keyfiyyətli olduğu üçün daim şuşalıların və şəhərin qonaqlarının diqqət mərkəzində olub. İnsanlar bu əraziyə istirahət etmək üçün üz tutublar. Əvvəllər qayadan süzülən su sonradan metal boruya salınıb və daim axır. Bulaq hazırda mövcuddur. Şuşa şəhəri işğal olunanadək bulağın üstündə restoran inşa edilib. Bəzi məlumatlara görə, bulaq metal boruya salınmamışdan əvvəl qayadan çıxan su qədim saxsı borudan süzülüb gəldiyi üçün bulağa insanlar arasında "Saxsı" bulaq adı verilib və bu ad günümüzə qədər gəlib çatıb. Şuşa şəhəri işğal ediləndən sonra ərazi uzun illər baxımsız qalıb, restoranın binası yarıuçuq vəziyyətə salınıb.





### Şuşa rayonunun Turşsu qəsəbəsi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Şuşa rayonunun Turşsu qəsəbəsində olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı qəsəbənin ərazisinə baxış keçirdi.

Qeyd edək ki, qəsəbə Şuşa şəhərindən təxminən 17 kilometr məsafədə, Şuşa-Laçın yolunun kənarında yerləşir. Turşsu qəsəbəsi işğaldan əvvəl Şuşa rayonunda Şuşa şəhərindən sonra azərbaycanlıların ən sıx yaşadığı ikinci yaşayış məntəqəsi olub. Qəsəbə 1992-ci il mayın 15-də işğal edilib. 1989-cu ildə aparılan siyahıyaalmaya əsasən, qəsəbədə 755 nəfər yaşayıb. Burada fərdi evlər, tibb məntəqəsi, xəstəxana, mədəniyyət evi, kitabxana, məktəb, televiziyaötürücü qurğu, elektrik yarımstansiyası, uşaq bağçası, musiqi məktəbi, klub və digər binalar mövcud olub. Əhalinin məşğulluğu əsasən kənd təsərrüfatı sahəsində təmin edilib. Sadalanan infrastruktur işğal dövründə tam dağıdılıb.

Qəsəbə 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib. Hazırda Turşsu qəsəbəsində 353 ailə - 1403 nəfər qeydiyyatdadır.





### Prezident İlham Əliyev Şuşa rayonundakı "Turşsu" bulağında olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Şuşa rayonundakı "Turşsu" bulağında olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı bulaq ərazisinə baxış keçirdi.

Məlumat verildi ki, meşənin daxilində mineral su mənbəyi olan "Turşsu" bulağı Şuşa şəhərindən 17 kilometr cənub-qərbdə, Şuşa-Laçın yolundan bir qədər aralı, Zarıslı çayının sahilində 1700 metr hündürlükdə çıxır. Bu ərazi uzun illər şuşalıların və şəhərin qonaqlarının istirahət etdikləri sevimli məkanlardan biri olub. Yay aylarında ətraf rayonlardan buraya insanlar gələr, yaxınlıqdakı yamaclarda çadırlar qurar, dincələr, bulağın suyundan istifadə etməklə sağlamlıqlarını möhkəmləndirərdilər.

Qeyd olundu ki, Şuşa rayonunun ərazisində bir neçə belə su mənbəyi var. Turşsu qəsəbəsinin yaxınlığındakı bu bulağın suyu fasilələrlə - təxminən bir saatdan da artıq müddətdən bir axır. Bulağın suyu faydalı mikroelementlərlə, əsasən karbon, hidrogen-karbonad, maqnezium, natrium, kalsiumla zəngindir. Minerallaşma dərəcəsi 2,4 qr/l, temperaturu 5-10 dərəcə C-dir. Bu su ürək-damar, qan azlığı, qaraciyər, öd yolları, öd kisəsi, mədə-bağırsaq və böyrək xəstəliklərindən əziyyət çəkənlər üçün müalicəvi xüsusiyyətlərə malikdir. Bu su həmçinin orqanizmdə maddələr mübadiləsi pozulmalarını nizama salır, daxili orqan xəstəliklərinə qarşı profilaktik təsir göstərir. Rayon ərazisində suyu minerallarla zəngin olan digər bulaqlar da var. Bu bulaqlardan karbon turşulu-hidrokarbonatlı-natriumlu "narzan" tipli mineral sular axır. Bu müalicəvi sulardan Şuşanın sanatoriyalarında həm süfrə suyu kimi, həm də vanna qəbulunda istifadə olunub.





### Prezident İlham Əliyev Xocalı rayonunun Naxçıvanlı kəndində olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Xocalı rayonunun Naxçıvanlı kəndində olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı kəndin ərazisinə baxış keçirdi.

Dağətəyi ərazidə yerləşən bu yaşayış məntəqəsini vaxtilə Naxçıvandan köçüb gəlmiş ailələr salıblar. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində Naxçıvanlı kəndi separatçılardan təmizlənib.



### Xocalı rayonunun Pircamal kəndi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Xocalı rayonunun Pircamal kəndində olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı kəndin ərazisinə baxış keçirib.

Pircamal kəndi dağətəyi ərazidə yerləşir. Kəndin adı keçmişdə burada mövcud olmuş Pircamal piri ilə bağlıdır. Tarixi mənbələrə görə, bu yaşayış məntəqəsini qədim Beyləqandan köçüb gəlmiş ailələr salıblar.

Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində Pircamal kəndi separatçılardan təmizlənib.





# Hər kəndi bir tarixdir Qarabağın

## Prezident İlham Əliyev Şuşa və Xocalı rayonlarına səfər edib

### Prezident İlham Əliyev Xocalı rayonunun Xanabad kəndinə baxış keçirib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Xocalı rayonunun Xanabad kəndində olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı kəndin ərazisinə baxış keçirib.

Dağətəyi ərazidə yerləşən Xanabad kəndi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində kənd separatçılardan təmizlənib.

Xanabad kəndi qədim yaşayış məskənlərindən biri kimi tanınır. 1990-cı ildə kənddə kooperativ zavodun tikintisi zamanı inşaatçılar tərəfindən qədim qəbir aşkar edilib. Həmin qəbirə baxış keçirilərkən insan cəsədindən əlavə, qədim döyüş və məişət əşyaları aşkarlanıb. Müvafiq təhlillərdən sonra bu əşyaların eramızdan əvvəl XII-XI əsrlərə aid olduğu müəyyən edilib.



### Prezident İlham Əliyev Xocalı rayonunun Pirlər kəndində olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Xocalı rayonunun Pirlər kəndində olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı kəndin ərazisinə baxış keçirib.

Dağətəyi ərazidə yerləşən Pirlər kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Pirlər kəndi Azərbaycan Ordusunun cari il sentyabrın 19-20-də Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib.

Bu yaşayış məntəqəsi kənd təsərrüfatı və turizm sahələrində böyük potensiala malikdir.



# Azərbaycanın 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumuna evsahibliyi etməsi ilə bağlı imzalanma mərasimi keçirilib

**Azərbaycan hökuməti və Birləşmiş Millətlər Təşkilatı arasında Bakı şəhərinin 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasına (WUF13) evsahibliyi etməsinə dair saziş imzalanıb.**

AZƏRTAC xəbər verir ki, sazişi Azərbaycan hökuməti adından Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və BMT-nin Məskunlaşma Proqramının ("UN-Habitat") icraçı direktoru xanım Maimunah Mohd Şərif imzalayıblar.

İmzalanma mərasimində çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev mühüm və qlobal xarakterli tədbir olan Ümumdünya Şəhərsalma Forumunun 2026-cı ildə məhz Bakıda keçirilməsinin Azərbaycan hökumətinin şəhərsalma sahəsində apardığı dərin islahatlar və genişmiqyaslı layihələr, habelə ölkəmizin bu sahədə qlobal gündəliyə verdiyi töhfələr sayəsində beynəlxalq nüfuzunun ən yüksək səviyyədə olmasının bariz nümunəsi olduğunu bildirib. Azərbaycanın postmünaqişə dövründə mühüm quruculuq işləri gördüyünü qeyd edən Prezidentin köməkçisi bunun dünyada çox nadir təcrübələrdən biri olduğunu vurğulayıb. Həmçinin Azərbaycanın bu təcrübəni bütün dünya ilə paylaşacağını da sözlərinə əlavə edib. Hikmət Hacıyev onu da bildirib ki, COP-un və Ümumdünya Şəhərsalma Forumunun tədbirlərinin Azərbaycanda keçirilməsi iqlim dəyişikliyi ilə mübarizədə, şəhər quruculuğunda sülhə və əməkdaşlığa xidmət edəcək: "Prezident İlham Əliyevin də dediyi kimi, Azərbaycan sülh və tərəfdaşlığa sadiqdir. Azərbaycan Ümumdünya Şəhərsalma Forumunun yüksək səviyyədə keçirilməsi üçün tərəfdaşlarla çox sıx şəkildə işləyəcək".

















Daha sonra komitə sədri Anar Quliyev son illər ərzində paytaxtımızda və Azərbaycanın digər bölgələrində şəhərsalma istiqamətində ən qabaqcıl müasir standartların tətbiq edilməsi ilə davamlı inkişafın təmin edildiyini, bu sahədə irimiqyaslı layihələr və Ümumdünya Şəhərsalma Forumunun həyata keçirilməsinin ölkəmizin beynəlxalq səviyyədə aparıcı mövqelərdə qərarlaşmasının daha bir göstəricisi olduğunu qeyd edib. Komitə sədri eyni zamanda foruma evsahibliyi etmək imkanının Azərbaycanın öz nailiyyətlərini və davamlı şəhər inkişafının təşviqi və həyata keçirilməsində rolunu bir daha nümayiş etdirmək, həmçinin bilik və təcrübə mübadiləsi üçün əhəmiyyətli bir fürsət olacağını vurğulayıb. Eyni zamanda komitənin BMT-nin Məskunlaşma Proqramı ilə birlikdə keçirilən birgə layihələri, azərbaycanlı mütəxəssislərin "UN-Habitat" tərəfindən yaradılan Ekspertlər Qrupunda ilk dəfə təmsil edilmələri və bunun əhəmiyyəti, bununla qurumlar arasında münasibətlərin daha da genişləndirilməsi məsələsinə toxunulub.

Daha sonra çıxış edən xanım Şərif isə ilk olaraq Azərbaycan Prezidenti İlham Əliyevə şəhərsalma sahəsinin inkişafına verdiyi töhfələrə və Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirdiyinə görə öz dərin təşəkkürlərini bildirib, iki böyük tədbirə Azərbaycanın evsahibliyi etməsi ilə bağlı təbriklərini çatdırıb. Eyni zamanda BMT-nin Məskunlaşma Proqramının ölkəmiz ilə səmərəli əməkdaşlıq etdiyini, bu çərçivədə şəhərsalma məsələləri üzrə birgə layihələrin uğurla həyata keçirildiyini qeyd edib, böyük məmnuniyyətlə artıq iki dəfə "UN-Habitat" dəstəyi ilə keçirilən Milli Şəhərsalma Forumunun, habelə bu il Bakıda baş tutan Dünya Məskunlaşma Gününün böyük bir regional səviyyəli fikir və təcrübə mübadiləsi platformasına çevrildiyini qeyd edib.

Mərasimdə həmçinin BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi Vladanka Andreyeva, Azərbaycanın Keniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri, BMT-nin Nayrobi şəhərindəki bölməsində Daimi Nümayəndəsi Sultan Hacıyev çıxış ediblər.

BMT-nin 2001-ci ildə qəbul edilmiş müvafiq qərarına əsasən, şəhərsalma sahəsində ən mötəbər və genişmiqyaslı iştirakçılığa malik, iki ildən bir dünya şəhərlərindən birində keçirilən forum urbanizasiyanın bütün aspektləri ilə məşğul olan minlərlə iştirakçıya şəhərlərin necə qurulduğu, planlaşdırıldığı və idarə edildiyi barədə təcrübə və biliklərini bölüşmək imkanı verir.

Regionumuzda ən irimiqyaslı tədbirlərdən biri olacaq WUF13 çoxşaxəli müxtəlif istiqamətlərdə bir çox alt tədbirlərdən ibarət olmaqla, şəhər ərazilərinin çağırışlarına cavab vermək üçün yeni tərəfdaşlıqlara və yeni fəaliyyətlərə səbəb olacaqdır. Tədbir çərçivəsində həm Azərbaycan, həm də xarici ölkələrdən maraqlı tərəflər - dövlət rəsmiləri, QHT-lər, bu sahədə fəaliyyət göstərən mütəxəssislər, ekspertlər, özəl sektor nümayəndələri bir araya gələcək, geniş fikir mübadiləsi apararaq yeni bilik və təcrübə ilə paylaşmaq imkanını əldə edəcəklər.

Qeyd olunub ki, Ümumdünya Şəhərsalma Forumu 2022-ci ildə "Daha yaxşı gələcək üçün şəhərlərimizi dəyişdirək" mövzusu altında Polşanın Katovitse şəhərində (WUF11) baş tutub. Daha öncə müxtəlif illərdə forum Barselona, Rio-de-Janeyro, Vankuver, Əbu-Dabi, Kuala-Lumpur və bir sıra digər şəhərlərdə təşkil edilərək, bir tədbirə 23 min nəfərə qədər iştirakçı cəlb edilib. Növbəti forum ("WUF12") 2024-cü il noyabrın 4-dən 8-dək Misirin paytaxtı Qahirə şəhərində keçiriləcək.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Qardaş Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsi və ölkənin dayanıqlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən irimiqyaslı sosial-iqtisadi və ictimai-siyasi dəyişikliklərin böyük uğurları Sizin adınızla sıx bağlıdır.

Əlamətdar haldır ki, Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyinin qeyd edildiyi ildə Siz respublikanın ərazi bütövlüyünü tam bərpa etməklə ümummilli Zəfərə nail oldunuz.

Əminəm ki, Azərbaycan xalqı Sizin strateji kursunuzu rəhbər tutaraq inamla irəliləməkdə davam edəcək, güclü və çiçəklənən dövlət quruculuğunda yeni-yeni zirvələr fəth edəcəkdir.

Etimada əsaslanan səmimi münasibətlərimizin, Qazaxıstan-Azərbaycan dostluq əlaqələrinin, strateji tərəfdaşlığın və müttəfiqliyin möhkəmləndirilməsinə Sizin şəxsi böyük töhfənizi yüksək qiymətləndirirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə qardaş Azərbaycanın rifahı və tərəqqisi naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu, əziz qardaşım.

Sizi mübarək doğum gününüz münasibətilə ürəkdən təbrik edir, ən xoş və səmimi arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Biz Sizi Azərbaycan xalqının vətənpərvər və fədakar övladı, bizə qardaş xalqın müdrik rəhbəri, zəmanəmizin görkəmli dövlət və siyasi xadimi kimi tanıyır və bunu xüsusi olaraq etiraf edirik.

Sizin adınız Azərbaycanda sosial-iqtisadi inkişafın təmin edilməsi, müstəqil dövlətçiliyin əsaslarının hərtərəfli möhkəmləndirilməsi istiqamətində aparılan sistemli islahatlar və genişmiqyaslı dəyişikliklər, ölkənizin sürətli inkişafına yönəlmiş böyük quruculuq işləri ilə sıx bağlıdır.

Xüsusən də Sizin güclü iradəniz sayəsində ölkənizin ərazi bütövlüyünün tam bərpası və tarixi ədalətin bərqərar olunması, sözün əsl mənasında, reallığa çevrildi.

Heç şübhəsiz ki, cari ilin avqust ayında bənzərsiz Azərbaycana dövlət səfərim əsnasında Sizinlə qarşılıqlı etimad və səmimilik ruhunda apardığımız danışıqlar, əldə etdiyimiz mühüm razılaşmalar, Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəbin açılış mərasimində birgə iştirakımız genişmiqyaslı ikitərəfli münasibətlərimizdə parlaq iz buraxmışdır.

Fürsətdən istifadə edərək bu yaxınlarda gözəl Bakıda Sizin təşəbbüsünüzlə Birləşmiş Millətlər Təşkilatının Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının birinci Zirvə görüşünün yüksək səviyyədə keçirilməsi münasibətilə Zati-alinizi bir daha təbrik edərək xüsusi vurğulamaq istərdim ki, həmin beynəlxalq tədbir regionumuzun ümumi inkişafının təmin olunmasına xidmət edəcəkdir.

Əminəm ki, birgə səylərimizlə çoxşaxəli və uzunmüddətli strateji tərəfdaşlığımız qardaş xalqlarımızın ümumi mənafeyi naminə gələcəkdə də səmərəli şəkildə inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizi - əziz qardaşımı həyatınızın bu sevincli günü münasibətilə bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, tükənməz enerji, ailə səadəti, son dərəcə şərəfli və məsuliyyətli fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq, davamlı tərəqqi və firavanlıq arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

İcazə verin, doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırım. Sizə möhkəm cansağlığı, firavanlıq, həmçinin şəxsi və peşəkar fəaliyyətinizdə uğurlar arzulayıram. Ölkələrimiz və xalqlarımız arasında qurduğumuz əlaqələr və əməkdaşlığımızla, o cümlədən gündən-günə inkişaf edən şəxsi münasibətlərimizlə fəxr edirəm.

Serbiya Respublikası Azərbaycan Respublikasının beynəlxalq hüququn və BMT-nin Nizamnaməsinin prinsiplərinə əməl etməsi ilə bağlı mövqeyini yüksək qiymətləndirir və bunu həm də ölkənizin bizim ölkəmizin suverenliyi və ərazi bütövlüyünə hörmətinin göstəricisi kimi dəyərləndirir. Əmin ola bilərsiniz ki, bu mövqe qarşılıqlıdır və Serbiya daim Azərbaycanın sadiq və etibarlı tərəfdaşı və dostu olacaqdır.

Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi ilə bağlı Sizin son səfəriniz zamanı Niş şəhərində görüşümüzdən məmnun qaldım. Bizim enerji resurslarımızın şaxələndirilməsinə təkan verəcək bu görüş ikitərəfli əməkdaşlığımızın daha da səmərəli olmasına, inkişaf etməsinə doğru atılmış bir addımdır. Serbiya tərəfi azərbaycanlı dostları ilə əl-ələ verərək Sizinlə müzakirə etdiyimiz və vətəndaşlarımızın mənafeyi naminə olan yeni ideyaların və layihələrin reallaşdırılması istiqamətində birgə işləməyə hazırdır.

Sizinlə tezliklə görüşməyimə ümidvaram. Fürsətdən istifadə edərək Zati-alinizə bir daha səmimi təbriklərimi çatdırır, ən dərin ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Aleksandar VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Bu fürsətdən istifadə edərək ölkələrimiz arasında strateji əməkdaşlığın və çox gözəl münasibətlərin gələcəkdə daha fəal şəkildə inkişaf edərək dərinləşəcəyinə inamımı bildirirəm.

Mən bu yaxınlarda Bolqarıstan və Serbiya arasında qaz interkonnektorunun açılışı mərasimindəki görüşümüzü xoş xatirələrlə yada salıram. Bu görüş ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda səmərəli təması və fəal siyasi dialoqu daha da genişləndirməyə sadiqliyimizi bir daha təsdiq etdi.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayır, ən yüksək ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Şəksiz rəhbər istedadınız sayəsində milli lider kimi Siz Azərbaycanın səmərəli iqtisadi inkişaf modelini həyata keçirmiş, dövlətin beynəlxalq arenada nüfuzunu möhkəmləndirmisiniz.

Fürsətdən istifadə edərək Sizi Qoşulmama Hərəkatında uğurlu sədrliyiniz münasibətilə təbrik edirəm.

Məmnuniyyətlə qeyd edirəm ki, Minsk ilə Bakının hörmətə və qarşılıqlı anlaşmaya əsaslanan strateji tərəfdaşlığı həm iqtisadi-ticari sahədə, həm də əməkdaşlığın digər istiqamətləri üzrə mühüm nəticələr əldə etməyə imkan verir.

Dostluğumuzu, ölkələrimiz arasında yaranmış münasibətlərin etimada əsaslanan xarakterini yüksək qiymətləndirir, yeni görüşləri və müxtəlif sahələrdə maraqlı birgə layihələri nikbinliklə gözləyirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə Azərbaycan Respublikasının rifahı naminə gələcək fəaliyyətinizdə yeni uğurlar, möhkəm cansağlığı, sülh, doğmalarınıza və yaxınlarınıza xoşbəxtlik diləyirəm.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Qardaş Azərbaycan Sizin rəhbərliyinizlə sosial-iqtisadi inkişaf yolunda irəliyə doğru inamla addımlamaqda davam edir, regional və beynəlxalq məsələlərdə getdikcə artan rol oynayır.

İnanıram ki, Sizin siyasi kursunuzla irəliləyən Azərbaycan Respublikası qüdrətli və inkişaf edən dövlət quruculuğunda yeni zirvələr fəth edəcək.

Fürsətdən istifadə edərək, həmçinin Sizi və Sizin simanızda ölkənizin bütün sakinlərini Yeni 2024-cü il münasibətilə təbrik edirəm.

Qarşıdan gələn ilin əvvəli Azərbaycan cəmiyyəti üçün xüsusi əhəmiyyətli hadisə - prezident seçkiləri ilə əlamətdar olacaq. Bu çox mühüm siyasi tədbirin uğurla keçirilməsi ilə bağlı səmimi arzularımı çatdırıram.

Tarixə qovuşan 2023-cü ildə möhkəm dostluq ənənələrinə, qarşılıqlı hörmətə və dəstəyə əsaslanan Tacikistan-Azərbaycan münasibətləri bir sıra mühüm hadisələrlə əlamətdar olub. Onların arasında Sizin Tacikistana dövlət səfərinizi qeyd etmək istərdim. Sizin ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətlərinin ardıcıl möhkəmləndirilməsinə daimi xüsusi diqqətinizi yüksək qiymətləndirirəm.

Xalqlarımızın köklü maraqları məcrasında iki ölkənin etimada əsaslanan dövlətlərarası dialoqunun davam etdirilməsinə şad olacağam.

Əziz İlham Heydər oğlu, Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik və yeni böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və dayanıqlı tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***



❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Qeyd etmək istərdim ki, Sizin strateji baxışlarınız və rəhbərliyiniz ilə həyata keçirilən səmərəli siyasi və iqtisadi islahatlar Azərbaycanın beynəlxalq nüfuzunu və sabitliyini möhkəmləndirib, xalqın rifahını əhəmiyyətli dərəcədə yüksəldib.

Əminəm ki, Cənubi Qafqazda yeni geosiyasi reallıq, həmçinin nəqliyyat-logistika imkanlarının genişlənməsi gələcəkdə də Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə şərait yaradacaqdır. Bu münasibətlər bizim ötən ilin aprel və oktyabr aylarındakı ikitərəfli səfərlərimizin yekunları nəticəsində misli görünməmiş səviyyəyə yüksəlib.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, qardaş Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə hərtərəfli inkişaf yolunda inamla irəliləyir və beynəlxalq məsələlərdə öz nüfuzunu möhkəmləndirir.

Əminəm ki, Türkmənistan ilə Azərbaycan Respublikası arasında möhkəm və qədim əlaqələr daim inkişaf edəcək, xalqlarımıza və ölkələrimizə fayda gətirəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ailə səadəti, qardaş Azərbaycan xalqına bundan sonra da sülh, tərəqqi və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

İcazə verin, Sizə cansağlığı və xoşbəxtlik diləyi ilə ən xoş arzularımı çatdırım.

*Hörmətlə,*

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm.

Cənab Prezident, Sizə ən xoş diləklərimi yetirir və ölkənizin rifahının daha da yaxşılaşdırılması istiqamətindəki fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

Əminəm ki, Xorvatiya və Azərbaycan bundan sonra da ikitərəfli əməkdaşlığı dostluq ruhunda möhkəmləndirəcək və dərinləşdirəcəkdir. Bunun üçün iqtisadi əlaqələrin inkişaf etdirilməsi istiqamətində birgə fəaliyyətimiz xüsusi əhəmiyyət kəsb edir.

Cənab Prezident, Sizə olan ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

2023-cü il - Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ili Azərbaycan və şəxsən Sizin üçün əlamətdar il oldu. Məhz bu il Azərbaycan Respublikasının suverenliyi tam bərpa edildi.

Ukraynanı azadlıq, müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizədə dəstəklədiyinizə, Rusiya ilə müharibənin humanitar nəticələrinin aradan qaldırılmasında yardıma görə Azərbaycana və şəxsən Sizə minnətdaram.

Mən dövlətlərimiz arasında mövcud dostluq münasibətlərini, şəxsi konstruktiv və səmimi dialoqumuzu yüksək qiymətləndirirəm. Əminəm ki, hörmət və etimada əsaslanan Ukrayna-Azərbaycan strateji əməkdaşlığı bundan sonra da hər iki ölkənin xalqlarının mənafeyi naminə fəal inkişaf edəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, bol enerji və məsuliyyətli dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Volodimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Rusiya Federasiyasının hökuməti adından və şəxsən öz adımdan Sizi səmimi-qəlbdən təbrik edirəm.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dostluq, tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin möhkəmlənməsinə Sizin daimi diqqətinizi xüsusi qeyd etmək istərdim. Yüksək səviyyədə qəbul edilmiş qərarların icrası nəticəsində iqtisadi-ticari və investisiya sahələrində əməkdaşlıq getdikcə inkişaf edir, energetika, sənaye, gəmiqayırma və logistika sahələri üzrə perspektivli birgə layihələr həyata keçirilir. Regionlararası əlaqələr və işgüzar münasibətlər genişlənir.

Əminəm ki, əməkdaşlığın daha da dərinləşməsi, müxtəlif sahələrdə yeni qarşılıqlı faydalı təşəbbüslərin irəli sürülməsi Rusiya Federasiyasının və Azərbaycan Respublikasının maraqlarına tam şəkildə cavab verir.

Sizinlə Moskvada və Bakıda görüşlərimizi böyük məmnunluqla xatırlayıram. Açıq ünsiyyətimizi davam etdirməkdən şad olacağam.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Mixail MİŞUSTİN,***
***Rusiya Federasiyası hökumətinin sədri***

❖ ❖ ❖

Zati-aliləri.

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim. Sizə ən xoş arzularımı çatdırır, xoşbəxtlik diləyir, ölkənizin və dost Azərbaycan xalqının rifahı, əmin-amanlığı və sabitliyi naminə fəaliyyətinizdə və səylərinizdə uğurlar arzulayıram.

Gürcüstan ilə Azərbaycan Respublikası arasında əlaqələrin daha da inkişaf etdirilməsində Sizin şəxsi səyləriniz və iştirakınız çox yüksək qiymətləndirilir.

Bu fürsətdən istifadə edərək bir daha vurğulamaq istəyirəm ki, Gürcüstan ilə Azərbaycan arasındakı strateji tərəfdaşlıq xalqlarımızın maraqları naminə bir çox ikitərəfli və çoxtərəfli təşəbbüslərlə zənginləşərək daha da möhkəmlənəcəkdir.

Zati-aliləri, icazə verin, bir daha Sizə olan ən dərin ehtiramımı bildirim və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayım.

*Dərin hörmətlə,*

***İrakli QARİBAŞVİLİ,***
***Gürcüstanın Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) ailəsi adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi çatdırıram. Sizin üçün bu əlamətdar gündə Zati-alinizə və doğmalarınıza möhkəm cansağlığı, səadət diləyirəm.

Mən həmçinin möhtəşəm liderliyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Azərbaycan Sizin rəhbərliyinizlə bir çox sahələrdə mühüm nailiyyətlər əldə edib. Regionda sülhün, sabitliyin və inkişafın təşviq edilməsinə Sizin sadiqliyiniz təqdirəlayiqdir.

Eyni zamanda mən ICESCO və Azərbaycan arasında inkişaf edən əməkdaşlığı da vurğulamaq istərdim. Bu əməkdaşlıq mədəniyyət sahəsində mübadilənin aparılmasına, təhsil sahəsində inkişafa və elm sahəsində əməkdaşlığa təkan verilməsində mühüm rol oynayıb. Bu əməkdaşlıq qarşılıqlı anlaşma, tolerantlıq, eləcə də sülh, sabitlik və davamlı inkişafın təşviqi prinsiplərinə birgə sadiqliyimizi nümayiş etdirir.

Biz əminik ki, mövcud əməkdaşlıq Sizin rəhbərliyinizlə daha da inkişaf edəcək, Azərbaycan xalqına və bütün islam dünyasına müsbət nəticələr gətirəcək. Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilib. Bununla əlaqədar qeyd etmək istəyirəm ki, bu təşəbbüsün Sizin himayəniz altında reallaşması ICESCO üçün bir şərəf olacaqdır. Bundan başqa, Sizin xeyir-duanızla islam dünyasının qovşağına çevrilməyi qarşısına məqsəd qoyan ICESCO-nun Bakıda tezliklə regional ofisinin rəsmi açılışı olacaqdır.

Cənab Prezident, COP29-a evsahibliyi edəcəyinizlə əlaqədar bildirmək istəyirik ki, biz ölkənizin rəhbərliyinin dünyada iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərin formalaşdırılmasında çox mühüm rol oynayacağına inanırıq. ICESCO-nun iştirakı Azərbaycan ilə bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinə təkan verəcək.

Həmçinin məmnuniyyət hissi ilə bildirmək istəyirəm ki, hazırda ICESCO mədəni, tarixi və dini irsin vəziyyəti ilə bağlı qiymətləndirmə və hesabatın hazırlanması, bunun üzv dövlətlərə və digər müvafiq maraqlı tərəflərə təqdim edilməsi məqsədilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə ikinci beynəlxalq texniki missiyasının təşkil olunması üzərində çalışır.

Zati-aliləri, bir daha doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirik. Qarşıdan gələn ildə Sizə və Azərbaycan xalqına firavanlıq, sülh və inkişaf arzulayırıq.

*Dərin hörmətlə,*

***Salim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun Baş direktoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ölkənizin rifahı naminə fəaliyyətinizdə uğurlar diləyir, xalqınızın isə Sizin rəhbərliyinizlə gələcəkdə də xoşməramlı məqsədlərə nail olmasını arzu edirəm.

Əminəm ki, aramızdakı qarşılıqlı hörmət bundan sonra da davam edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə ailə səadəti, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Azərbaycan xalqına isə firavanlıq və rifah arzulayıram.

*Səmimiyyətlə,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz dəqiq məqsədlərə çatmaq və ölkənizə sədaqət nümayiş etdirməklə peşəkar fəaliyyətinizdə çox uğurlara nail olmusunuz. Sizin uzaqgörən dövlət xadimi və müdrik lider keyfiyyətləriniz sayəsində Azərbaycan Respublikası böyük inkişaf və tərəqqi əldə edib, beynəlxalq arenada ölkənizin nüfuzu durmadan yüksəlir.

Şanxay Əməkdaşlıq Təşkilatının fəaliyyətinə Sizin daimi diqqətinizə görə minnətdarlığımı bildirirəm. Azərbaycan Respublikası dialoq üzrə tərəfdaş kimi təşkilatımız çərçivəsində qarşılıqlı fəaliyyəti genişləndirməyə səy göstərir. Əminəm ki, Sizin dəstəyinizlə biz qarşılıqlı faydalı əməkdaşlıq üçün daha çox səy göstərəcəyik.

Sizə və ailənizə səmimi-qəlbdən xoşbəxtlik və cansağlığı arzulayıram. Fürsətdən istifadə edərək Sizi qarşıdan gələn Yeni il münasibətilə də təbrik edir, ali dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Can MİN,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Vətənə sevgi, ən yüksək peşəkarlıq, zəhmətsevərlik, siyasi uzaqgörənlik, qərarların qəbul edilməsində qətiyyət Sizə qarşıya qoyulmuş məqsədlərə nail olunmasına, Azərbaycan Respublikasının hərtərəfli inkişafına yönəlmiş layihələrin həyata keçirilməsinə imkan verir.

Özünün zəngin mədəni irsini qoruyub saxlayan ölkə Sizin rəhbərliyinizlə böyük uğurlar, iqtisadiyyatın möhkəmləndirilməsi və insanların rifah halının yüksəldilməsi, beynəlxalq arenada nüfuzunun artırılması yolu ilə irəliləyir.

Sizi öz Vətəninin maraqlarını ardıcıl surətdə müdafiə edən müdrik siyasi xadim kimi qiymətləndirirəm. Qarşılıqlı maraq doğuran bir çox mühüm məsələləri müzakirə etdiyimiz və onların həlli üzrə ortaq yanaşmalar tapdığımız görüşlərimizi böyük səmimiyyətlə xatırlayıram.

Federasiya Şurasında Rusiya ilə Azərbaycan arasında yaranmış müttəfiqlik münasibətlərini yüksək qiymətləndirirlər. Dövlətlərarası qarşılıqlı fəaliyyətin mühüm tərkib hissələrindən biri olan Rusiya-Azərbaycan parlamentlərarası əlaqələrinin inkişafına Sizin şəxsi töhfənizi qeyd etmək istəyirəm. Gələcəkdə də Sizin müasir dövrün çağırışlarına cavabların axtarılmasında səylərin gücləndirilməsi üzrə qanunvericilərin birgə fəaliyyətinə dəstəyinizə güvənirik.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və firavanlıq, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Bir daha ən yüksək ehtiramımı qəbul edin.

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisi***
***Federasiya Şurasının sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Türkmənistan ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsinə və inkişafına verdiyiniz böyük töhfəyə, göstərdiyiniz xüsusi diqqətə görə Sizə təşəkkürümü bildirirəm.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və bütün işlərinizdə uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***türkmən xalqının Milli Lideri,***
***Türkmənistan Xalq Məsləhətinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Həyatda baş verən hadisələr hər bir insanın taleyini müəyyən edir - böyük şair Rəsul Həmzətovun bu sözləri Sizin şəxsi taleyinizi, Vətənə xidmət üçün seçdiyiniz həyat yolunuzu tam şəkildə təsdiqləyir. Siz 20 ildən artıq müddətdə Azərbaycan Respublikasına rəhbərlik etməklə, atanız - görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin kursunu layiqincə davam etdirərək xalqınızın əsl liderinə çevrilmisiniz.

Bu illər ərzində müdrik və uzaqgörən siyasətiniz nəticəsində Azərbaycan ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində böyük uğurlara imza atıb, beynəlxalq arenada qlobal gündəlikdəki məsələlərin həllində öz mövqelərini qətiyyətlə möhkəmləndirib.

Dağıstan çoxəsrlik mehriban qonşuluq və dostluq ənənələrini yüksək dəyərləndirir. Biz ürəkdən inanırıq ki, ümumi səylərimiz Dağıstan və Azərbaycan xalqları arasında dialoqun, qarşılıqlı etimadın bundan sonra da möhkəmlənməsinə şərait yaradacaqdır.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji, firavanlıq diləyir, Yeni ildə ən xoş arzularımı çatdırıram.

Dərin hörmətlə,

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyasının Dağıstan***
***Respublikasının rəhbəri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Sizin Azərbaycanın Prezidenti vəzifəsində çoxillik səmərəli fəaliyyətiniz doğma ölkənizə sevginizin, onun təhlükəsizliyinin və hərtərəfli inkişafının, xalqın əmin-amanlığının təmin edilməsi səylərinizin parlaq təzahürüdür.

Bu gün də çox mürəkkəb qlobal çağırışlar şəraitində Sizin zəhmətinizin nəticələri, zəngin təcrübəniz və nüfuzunuz yeni genişmiqyaslı dövləti vəzifələrin həllinin, Azərbaycan Respublikasının vətəndaşları üçün zamanın tələb etdiyi faydalı konseptual layihələrin reallaşmasının bünövrəsidir.

Bu xoş fürsətdən istifadə edərək Tatarıstan və Azərbaycan arasında qarşılıqlı anlaşmanın və əməkdaşlığın səviyyəsindən böyük məmnunluq ifadə edir, həmçinin respublikamıza göstərdiyiniz diqqətli münasibətə görə Sizə təşəkkürümü bildirirəm. Ümidvaram ki, Tatarıstan-Azərbaycan qarşılıqlı fəaliyyəti gələcəkdə də fəal və məzmunlu olacaq, Rusiya və Azərbaycan xalqlarının strateji maraqlarına tam şəkildə cavab verəcək.

*Dərin hörmətlə,*

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi, "Rusiya-İslam dünyası" Strateji Baxış Qrupunun sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və Sizə olan ən yüksək ehtiramımı qəbul edin.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, tərəqqi və nəzərdə tutduğunuz planların həyata keçməsində uğurlar diləyirəm.

İqtisadi cəhətdən firavanlaşan dövlətin inkişafı və Azərbaycan xalqının rifahının yüksəldilməsi istiqamətində fəaliyyətiniz Sizə təkcə doğma ölkənizdə deyil, həm də onun hüdudlarından kənarda böyük hörmət qazandırıb.

Azərbaycan Respublikası qarşılıqlı fəaliyyətin bütün istiqamətləri üzrə, o cümlədən regionlararası səviyyədə həmişə Rusiya Federasiyasının strateji tərəfdaşı olub və bu, indi də davam edir. Azərbaycan Respublikası ilə Həştərxan vilayəti arasında yaranmış dostluq əlaqələrini yüksək qiymətləndirirəm və regionumuzla çoxplanlı qarşılıqlı faydalı münasibətlərin möhkəmləndirilməsinə dəstəyinizə görə Sizə səmimi-qəlbdən minnətdaram.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

❖ ❖ ❖

Zati-aliləri.

Türk Dövlətləri Təşkilatının Katibliyi adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Türk Dövlətləri Təşkilatının qurucu dövlətlərindən olan Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə siyasi və sosial-iqtisadi inkişaf yolunda böyük uğurlar qazanmaqda və beynəlxalq arenada öz nüfuzunu durmadan möhkəmləndirməkdədir.

Bu yaxınlarda Astana şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının 10-cu Zirvə görüşü zamanı Sizinlə görüşümü böyük məmnuniyyətlə xatırlayıram. Türk dövlətlərinin birliyinə verdiyiniz əvəzsiz töhfə türk dünyasına olan rəğbətinizin göstəricisidir. Fürsətdən istifadə edərək Türk Dövlətləri Təşkilatına göstərdiyiniz hərtərəfli dəstəyə və təşəbbüslərinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə bütün təşəbbüslərinizdə və səylərinizdə yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycanda, Qafqaz regionunda və bütün dünyada Sizin adınız öz ölkəsini inkişaf və tərəqqi yolu ilə qətiyyətlə irəli aparan prinsipial, güclü və iradəli lider anlayışı ilə assosiasiya olunur.

Qarşınızda duran məsul məsələlərin həlli Sizin Azərbaycan xalqının rifahının yüksəldilməsi, mədəni və mənəvi baxımdan zənginləşməsi işinə həsr etdiyiniz fiziki və mənəvi gücün ən yüksək səviyyədə səfərbər olunmasını tələb edir.

Qəti əminəm ki, Sizin yüksək işgüzarlığınız və çox böyük intellektual potensialınız bundan sonra da Azərbaycan və onun xalqı naminə çoxşaxəli fəaliyyətinizdə uğurlar qazanmağa imkan verəcəkdir.

Fürsətdən istifadə edərək Müstəqil Dövlətlər Birliyi məkanında qarşılıqlı tərəfdaşlıq fəaliyyətinin genişləndirilməsi məsələlərində ardıcıl və konstruktiv mövqeyinizə, MDB İcraiyyə Komitəsinin təşəbbüslərinə daimi dəstəyinizə görə Sizə səmimi minnətdarlığımı bildirirəm.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq və çoxşaxəli dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

***Sergey LEBEDEV,***
***Müstəqil Dövlətlər Birliyinin Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz atanızın layiqli varisi olaraq 20 ildən artıqdır ki, Azərbaycan Respublikasının Prezidenti vəzifəsində yüksək məsuliyyətlə çalışırsınız. Siz təcrübəli dövlət lideri, doğma ölkəsini hərarətlə sevən bir insan kimi onun sosial-iqtisadi inkişafına, cəmiyyətdə millətlərarası dialoqun və vətəndaş həmrəyliyinin dəstəklənməsinə böyük töhfə verirsiniz.

Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının ehtiyaclarına qayğıkeş münasibətə və konstruktiv qarşılıqlı fəaliyyətə görə Sizə minnətdaram. Ümidvaram ki, bu fəaliyyət gələcəkdə də insanların həyatında daimi əxlaqi dəyərlərin, xeyirxahlıq ideallarının və şəfqətin təsdiqlənməsinə kömək edəcəkdir.

Sizə möhkəm cansağlığı, daim ruh yüksəkliyi, sülh və Azərbaycan xalqının maraqları naminə gələcək fəaliyyətinizdə Uca Yaradanın köməyini arzulayıram.

*Dərin hörmətlə,*

***KİRİLL,***
***Moskvanın və Bütün Rusiyanın Patriarxı***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

İcazə verin, doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim və ilk növbədə Sizə möhkəm cansağlığı arzulayım. Həmçinin Sizə uzun ömür, əmin-amanlıq, rifah, ailənizə xoşbəxtlik diləyirəm.

Zati-aliləri, Siz nümunəvi həyat yolunuz, müdrik fəaliyyətinizlə sübut etdiniz ki, biz dünyaya xeyirxah işlər görmək üçün gəlmişik. Siz mənim üçün əziz və unudulmaz insanlar olan, ruhları qarşısında baş əydiyim valideynləriniz Heydər Əliyev və Zərifə Əliyevanın işlərini davam etdirərək bu missiyanı şərəflə yerinə yetirir, bəşəriyyət naminə qurub-yaratmağa davam edirsiniz. Onlar dünyaya Sizi - zəmanəmizin müdrik siyasi və dövlət xadimini, bizim təhsil müəssisəmizə ikinci həyat verən Azərbaycan xalqının böyük oğlunu bəxş ediblər. Sizin diqqət və qayğınız sayəsində əsaslı təmir olunmuş gözəl liseyimizdə bu gün 2300 şagird təhsil alır.

Zati-aliləri, qoy Uca Yaradan həmişə Sizi və doğmalarınızı, daha qüdrətli və gözəl ölkəyə çevrilən Azərbaycanı qorusun! Elə bir gün olmur ki, mən Sizi, xeyirxahlığınızı, daimi köməyinizi xatırlamayım. Uşaqlarımız üçün sığınacaqlarda lazımi şərait yaradılması ilə bağlı mənim xahişimin vacibliyini anlayışla qarşıladığınıza görə qarşınızda baş əyir, Sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

Möhtərəm İlham Heydər oğlu, icazə verin, həmçinin Sizə bildirim ki, - bunu bilmək Sizin üçün də xoş olacaq, - bizim 3A sinfinin şagirdləri Azərbaycan dilini öyrənməyə başlayıblar və bunu 12-ci sinfə qədər davam etdirəcəklər. Sizə söz verirəm ki, hər il Azərbaycan dilini öyrənənlərin sayı daha çox olacaq.

Azərbaycan, Bakı, Naxçıvan daim mənim qəlbimdədir. Sizə qarşıdan gələn prezident seçkilərində səmimi-qəlbdən qələbə arzulayıram. Qəti əminəm ki, hələ uzun illər ölkənizə məhz Siz rəhbərlik edəcəksiniz, inşallah.

*Dərin hörmətlə,*

***Valentina ANTONENKO,***
***Ukraynanın İrpen şəhərindəki Zərifə Əliyeva adına humanitar "Linqvist" liseyinin direktoru, Ukraynanın Əməkdar müəllimi, Azərbaycanın "Dostluq" ordeni laureatı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin müdrikliyiniz, qətiyyətiniz, xarakterinizin möhkəmliyi əsl xalq liderinin parlaq xüsusiyyətləridir. Sizin ədalət və Vətənə fədakar xidmət ideallarınız respublika vətəndaşlarını yeni nailiyyətlərə ruhlandırır.

Hörmətli İlham Heydər oğlu, Sizin səmərəli rəhbərliyiniz sayəsində ölkə durmadan inkişaf edir, iri investisiya və infrastruktur layihələri reallaşdırılır, Azərbaycan əhalisinin həyat keyfiyyəti yüksəlir, dövlətin beynəlxalq arenada rolu güclənir.

Sizə möhkəm cansağlığı, tükənməz enerji və uzun ömür arzulayıram. Azərbaycanın rifahı və tərəqqisi üçün yorulmaz fəaliyyətiniz həmvətənləriniz tərəfindən həmişə layiqincə dəyərləndirilir və dəyərləndiriləcək.

*Hörmətlə,*

***Mixail QUTSERİYEV,***
***Rusiyanın "SAFMAR Qrupu" Səhmdar Cəmiyyətinin prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi doğum gününüz münasibətilə təbrik edir və ən xoş arzularımı çatdırıram. Sizə ailəniz və yaxınlarınızla birlikdə uzun ömür, cansağlığı və xoşbəxtlik diləyirəm. Azərbaycanı nüfuzlu, inkişaf edən, müasir və gözəl ölkəyə çevirən ali dövləti fəaliyyətinizdə Sizə uğurlar arzulayıram. Bakıya hər səfərimdə bu şəhərdə baş verən inkişafa heyran oluram.

Bu xoş fürsətdən istifadə edərək Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirəm.

Qarşılıqlı etimad əsasında uğurlu əməkdaşlıqla nəticələnən xarici səfərləriniz zamanı ölkənizin əsl dostu kimi Sizinlə və nümayəndə heyətinizlə işləməkdən həmişə məmnunluq duyuram və Sizinlə gələcəkdə də işbirliyinə ümidvaram.

Zati-aliləri, icazə verin, Sizə ən yüksək ehtiramımı və səmimi hörmətimi bir daha bildirim.

*Ən xoş arzularla,*

***Konrad SZORQ,***
***Almaniyadan "S.A.T. Security and Transport" şirkətinin icraçı direktoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz mübarək. Bu münasibətlə səmimi təbriklərimi qəbul edin. Sizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

"Komsomolskaya pravda" ilə səmimi dostluğa və məhsuldar əməkdaşlığa görə təşəkkürümü bildirirəm.

*Dərin hörmətlə,*

***Olesya NOSOVA,***
***Rusiyanın "Komsomolskaya pravda" media qrupununbaş redaktoru və baş direktoru***



# Çin Qafqazda Azərbaycanı seçir

## Rəsmi Pekin İlham Əliyevin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi istiqamətində səylərini yüksək qiymətləndirir

"Çin və Azərbaycan ənənəvi dost tərəfdaşlardır. Hazırda Çin-Azərbaycan münasibətləri çox yaxşı və sabit inkişaf edir, siyasi qarşılıqlı etimad daim möhkəmlənir, müxtəlif sahələrdə əməkdaşlıq müvəffəqiyyətlə irəliləyir. Sizin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi üzrə səylərinizi yüksək qiymətləndirirəm. Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm, ölkələrimizin və xalqlarımızın rifahı naminə ikitərəfli dostluq və əməkdaşlıq münasibətlərini yeni səviyyəyə yüksəltmək üçün Sizinlə birgə səylərimi davam etdirməyə hazıram".

Bu fikirlər Çin Xalq Respublikasının sədri Si Cinpinin Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda yer alır. Məktubdakı səmimi fikirlərdən göründüyü kimi dünyanın siyasi və iqtisadi mərkəzindən biri, superdövlət adlandırdığımız Çin, Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verir.

Bu əlaqələrin inkişafında dost ölkənin də maraqlı olduğunu vurğulayan cənab Si Cinpin məhz İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasəti yüksək qiymətləndirir.

Ümumiyyətlə, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmaq prinsiplərini rəhbər tutan Azərbaycan Çin ilə də bütün istiqamətlərdə sıx əlaqələrə malikdir. Bu gün Azərbaycan və Çin arasında möhkəm təmələ söykənən tərəfdaşlıq münasibətləri, qarşılıqlı hörmətə, beynəlxalq hüquq və prinsiplərə əsaslanan diplomatik əlaqələr mövcuddur. Bir çox sahələrdə xalqlarımız ən yüksək səviyyədə təmaslar qura bilib.

İki ölkə arasında əməkdaşlığın böyük tarixi var. Qədim İpək yolunun Çindən başlayaraq Hindistan, Tacikistan, Özbəkistan, İran və Azərbaycana, buradan isə Avropaya qədər uzanması Azərbaycan və Çin arasında əlaqələri bir çox istiqamətdə inkişaf etdirib. Ölkələrimizin münasibətlərini əks etdirən ən yeni tarixə qısa nəzər salsaq görərik ki, 1992-ci ilin avqustunda ÇXR-in Azərbaycanda səfirliyi açılıb, 1993-cü il dekabr ayının 1-də isə ilk səfir təyin edilib. 1993-cü il sentyabrın 3-də ölkəmizin Çin Xalq Respublikasında səfirliyinin açılması haqqında qərar qəbul edilib.

Bu il iyunun 20-də İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibəsində iki ölkə arasındakı münasibətləri dəyərləndirərkən vurğulayıb ki, ikitərəfli əlaqələrdə əldə etdilən nailiyyətlər çox uzun yolun başlanğıcıdır. Bu, strateji əməkdaşlıq yolunun başlanğıcıdır. Çünki bu gün regionun siyasi, habelə nəqliyyat marşrutları xəritəsinə nəzər saldıqda görürük ki, ölkələrimiz bir-biri ilə nə dərəcədə eyni mövqedən çıxış edir: "Biz qarşılıqlı ticarətin həcminin artmasını görürük və böyük potensial xüsusilə göz qabağındadır. Biz ölkələrimizi gələcəkdə daha da birləşdirəcək meydana gələn yeni nəqliyyat marşrutlarını görürük. Bunun özü də regional təhlükəsizliyə və sabitliyə böyük töhfə olacaqdır. Çünki ölkələr qarşılıqlı faydalı əməkdaşlıq formatı çərçivəsində birləşirsə, bu, regionun sabitliyini, proqnozlaşdırılmasını, firavanlığını və inkişafını gücləndirir".

Son zamanlar münasibətlərin daha da intensivləşdiyini deyən İlham Əliyev vurğulayıb ki, cənab Si Cinpinlə keçirilən görüşləri istiqamətlərin təyin edilməsində və inkişaf üçün aydın hədəflərin müəyyən olunmasında vacib rol oynayır. Eyni zamanda daha aşağı səviyyədə, dövlət rəsmiləri və deputatlar səviyyəsində, cəmiyyətin müxtəlif nümayəndələri və partiyalarımız arasında olan təmaslar da xüsusi əməkdaşlıq formatını yaradır: "Bu səbəbdən, uzun bir yolun başlanğıcında olduğumuzu deyəndə, buraya məhz bu məsələlər daxildir. İkitərəfli əlaqələrin gələcəyinə gəldikdə isə bizim Azərbaycan və Çin arasında yekdil siyasətimiz var. Bir daha təsdiq edirəm ki, münasibətlər əladır və bundan da yaxşı səviyyəyə qalxacaqdır".

Əlbəttə ki, bu gün Çin kimi böyük dövlətlə tərəfdaşlıq həm siyasi, həm də iqtisadi baxımdan hər bir ölkə üçün uğur vəd edir. Bu ölkənin rəhbərinin Azərbaycan Prezidenti ilə birgə səyləri davam etdirmək istəməsi həm ölkəmizə, həm də İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasətə verilən yüksək dəyərin əyani təzahürüdür.

Bu gün Azərbaycan "Orta dəhliz", "Bir kəmər, bir yol" layihələri çərçivəsində də Çinlə uğurlu əməkdaşlıq edir. Azərbaycan Çin ilə Avropa arasında nəqliyyat prosesində mühüm rol oynayır və ölkəmizin nəqliyyat-logistika imkanları beynəlxalq yükdaşımalarında böyük əhəmiyyətə malikdir. Azərbaycan Çindən Avropaya və əks-istiqamətdə qatarlarla və digər yükdaşımaların artırılmasını tam şəkildə dəstəkləyir.

Azərbaycanla Çinin arasında nəqliyyat və logistika sahəsində əməkdaşlıq iqtisadi əlaqələrin inkişafına təkan verib. Ticarət dövriyyəsi artmaqdadır. Nəqliyyat-logistika seqmenti hətta pandemiya dövründə də praktik olaraq zəifləməyib. Ötən il Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsinin həcmi 2021-ci illə müqayisədə (1,78 milyard dollar) 20,7 faiz artaraq 2,15 milyard dollara çatıb. Çin hazırda Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Azərbaycanda Çin kapitallı 275 şirkət qeydiyyatdan keçib. Çinlilər Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən infrastruktur layihələrinə maraq göstəriblər. "Huawei" şirkəti artıq bir sıra layihələrdə iştirak edir.

Çində 5 "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Pekin, Sian, Çindao, Canciaciye, Çendu şəhərlərində açılan ticarət evlərindən başqa, Azərbaycanın Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 "Şərab evi" də açılıb. Ticarət evləri "Made in Azerbaijan" brendi ilə istehsal olunan ixracyönümlü və rəqabətqabiliyyətli məhsulların Çin bazarında daha çox tanıdılmasına, eləcə də Azərbaycan məhsullarının ixracının təşviqinə və genişləndirilməsinə çox böyük təsir göstərir.

Ümumiyyətlə, Çin böyük imkanlara və nüfuza malik dünya dövləti, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Çin Bakı ilə münasibətlərini yüksək qiymətləndirir.

Azərbaycan Prezidenti ilə Çin sədrinin şəxsi dostluq münasibətləri isə bu əlaqələrin inkişafında mühüm rol oynayr. Beynəlxalq layihələrdə tərəfdaşlıq həm də Azərbaycanın tranzit imkanlarının daha da genişləndirilməsinə müsbət töhfələr verir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Ceyhun Bayramovla Sergey Lavrov cari regional vəziyyəti müzakirə ediblər





**Dekabrın 22-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, telefon danışığı zamanı nazirlər Azərbaycanla Rusiya arasında ikitərəfli əməkdaşlıq gündəliyində duran məsələləri, eləcə də cari regional vəziyyəti müzakirə ediblər.

## Azərbaycan-Rusiya XİN-ləri arasında növbəti məsləhətləşmələr aparılıb

**Bakıda Azərbaycan və Rusiya xarici işlər nazirlikləri arasında regional və Avropa təhlükəsizliyi mövzusunda məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, məsləhətləşmələr Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov və Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko arasında aparılıb.

Tərəflər regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıb, hər iki ölkənin birgə iştirak etdiyi regional əməkdaşlıq formatları çərçivəsində əməkdaşlıq məsələlərini, habelə Avropa regional təşkilatlarının gündəliyində duran qarşılıqlı maraq kəsb edən mövzuları müzakirə ediblər.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 460 QƏRAR Bakı şəhəri, 20 dekabr 2023-cü il

## "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 14 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddələr 71, 74; 2003, № 6, maddə 342; 2016, № 1, maddə 170; 2018, № 7 (II kitab), maddə 1652, № 9, maddə 1938; 2019, № 3, maddə 565, № 5, maddə 972; 2020, № 4, maddə 484, № 10, maddə 1277) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında nəqliyyat vasitələri, kənd təsərrüfatı texnikası və onlar üçün ehtiyat hissələrinin komisyon satışı Qaydaları"nın 1.1-ci bəndinə "aqreqat nişan nömrələri olan" sözlərindən sonra ", habelə utilizasiya edilmiş nəqliyyat vasitəsindən əldə edilmiş yararlı olan" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 4 sentyabr tarixli 158 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 684; 2005, № 12, maddə 1244; 2008, № 2, maddələr 116, 132, № 5, maddə 432, № 9, maddə 853; 2010, № 4, maddə 359; 2018, № 10, maddə 2164; 2021, № 10, maddə 1193) ilə təsdiq edilmiş "Şəhərsalma sənədlərinin tərkibi, tərtibatı, razılaşdırılması, dövlət ekspertizası aparılması və təsdiq olunması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.6-cı bəndin doqquzuncu abzasında, 5.6-cı bəndin onuncu abzasında və 6.12-ci bəndin yeddinci abzasında "məişət, bərk və istehsalat tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin;

2.2. 5.3-cü bəndin onuncu abzasında "sənaye və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin;

2.3. 6.6-cı bəndin dördüncü abzasında "məişətin bərk və istehsalat tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

3. "Təhlükəli tullantıların pasportlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 mart tarixli 41 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 3, maddə 173; 2007, № 10, maddə 1027) aşağıdakı dəyişikliklər edilsin:

3.1. preambulada "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Təhlükəli tullantıların pasportlaşdırılması Qaydası"nın 1.1-ci bəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 avqust tarixli 117 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 661; 2020, № 5, maddə 644) ilə təsdiq edilmiş "Azərbaycanda təhlükəli tullantıların idarə olunmasının Dövlət Strategiyası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1.3-cü yarımbəndin birinci abzasında "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

4.2. 2.3.1-ci yarımbəndin dördüncü abzasında "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

5. "Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 aprel tarixli 74 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 388; 2007, № 10, maddə 1027; 2008, № 2, maddə 132; 2012, № 9, maddə 920; 2018, № 4, maddə 794; 2020, № 5, maddələr 644, 656; 2022, № 11, maddə 1350) aşağıdakı dəyişikliklər edilsin:

5.1. preambulada "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

5.2. həmin Qərarla təsdiq edilmiş "Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları"nın 1.1-ci bəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 13 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 43) ilə təsdiq edilmiş "İstehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılması Qaydası"nın 1.2-ci bəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli 228 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1205; 2018, № 4, maddə 810) ilə təsdiq edilmiş "Təhlükəli tullantıların saxlanılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.1-ci, 3.1-ci bəndlərdə və 2.5-ci, 2.7-ci bəndlərin birinci cümlələrində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

7.2. 1.2-ci bəndə "struktur bölmələrində" sözlərindən sonra ", nəqliyyat vasitələrinin utilizasiya fəaliyyətini həyata keçirən şəxslərə məxsus sahələrdə" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 iyun tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1362) ilə təsdiq edilmiş "Tütün məmulatları tullantılarının utilizasiyası Qaydası"nın 3.2-ci bəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1181, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; 2022, № 1, maddələr 53, 70, № 4, maddələr 377, 388, 398, 415, № 5, maddə 577, № 7, maddə 811, № 8, maddə 1026, № 9, maddələr 1085, 1101, № 10, maddə 1210, № 12, maddə 1552; 2023, № 2, maddə 320, № 4, maddə 588, № 5, maddə 737, № 7, maddələr 1066, 1072, № 8 (II kitab), maddələr 1248, 1269; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 16 oktyabr tarixli 368 nömrəli və 3 noyabr tarixli 398 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"na 1.4.2.3.2.8-ci yarımmaddədən sonra aşağıdakı məzmunda 1.4.2.3.2.9-cu yarımmaddə əlavə edilsin:

"1.4.2.3.2.9. "Nəqliyyat vasitələrinin utilizasiyası Fondu"nun daxilolmaları".

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 878) ilə təsdiq edilmiş "Uyğunluq nişanının forması, uyğunluq nişanından istifadə və verilməsi Qaydaları"nın 2.12-ci bəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

11. Bu Qərarın 9-cu hissəsi 2024-cü il fevralın 1-dən, 1-ci hissəsi və 7.2-ci bəndi 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 461 QƏRAR Bakı şəhəri, 20 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 25 avqust tarixli 386 nömrəli, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 25 avqust tarixli 388 nömrəli, "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli, "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2001-ci il 20 iyul tarixli 544 nömrəli, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 22 avqust tarixli 2312 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384, № 9, maddə 868, № 12, maddə 1228; 2006, № 10, maddə 902; 2008, № 9, maddə 853, № 12, maddə 1104; 2010, № 6, maddə 548, № 7, maddə 705; 2011, № 5, maddə 445, № 12, maddə 1248; 2012, № 4, maddə 391, № 5, maddə 491, № 11, maddə 1200; 2014, № 5, maddə 548, № 6, maddə 748, № 9, maddələr 1121, 1122; 2015, № 2, maddə 212; 2016, № 9, maddə 1581; 2017, № 6, maddə 1230, № 10, maddə 1879; 2018, № 7 (II kitab), maddə 1663; 2019, № 4, maddə 764, № 6, maddə 1161, № 12, maddə 2078; 2022, № 2, maddələr 169, 188, № 5, maddə 565) ilə təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nın 1.3.3-cü yarımbəndində "İdarəsi" sözü "Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 462 QƏRAR Bakı şəhəri, 20 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nda, 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nda və "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" 2015-ci il 13 mart tarixli 63 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 25 avqust tarixli 386 nömrəli, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 25 avqust tarixli 388 nömrəli, "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli, "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2001-ci il 20 iyul tarixli 544 nömrəli, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 22 avqust tarixli 2312 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 150, № 4, maddələr 282, 293, № 8, maddələr 674, 675, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 2, maddələr 146, 161, № 11, maddə 1040; 2011, № 1, maddə 54, № 5, maddə 447, № 9, maddə 855; 2012, № 5, maddə 475, № 8, maddə 817, № 10, maddə 1028, № 11, maddə 1204, № 12, maddələr 1363, 1388; 2013, № 1, maddə 73, № 8, maddələr 1015, 1038, № 10, maddə 1219; 2014, № 1, maddə 69, № 3, maddə 312, № 6, maddə 736, № 7, maddə 918, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 612, № 6, maddə 799, № 11, maddə 1413; 2016, № 2 (II kitab), maddə 381, № 4, maddələr 781, 831, № 5, maddə 955, № 7, maddə 1342, № 8, maddələr 1439, 1450, № 9, maddələr 1583, 1585, 1588, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 283, 295, 310, № 5, maddə 972, № 8, maddə 1610, № 10, maddə 1920; 2018, № 2, maddə 335, № 3, maddələr 577, 626, № 7 (II kitab), maddə 1654, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 159, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 7, maddə 1005, № 10, maddə 1311, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 280, № 8, maddə 965, № 11, maddə 1280; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 6, maddə 686, № 7, maddə 810, № 8, maddələr 974, 1024, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583, № 7, maddə 1075; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 356 nömrəli və 6 oktyabr tarixli 359 nömrəli qərarları) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 23-cü hissəsinin ikinci abzasında "İdarəsi" sözü "Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115; 2009, № 2, maddə 153, № 4, maddə 282, № 7, maddələr 605, 610, № 8, maddələr 674, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 1, maddə 60, № 2, maddələr 146, 161, № 10, maddələr 906, 912, № 11, maddə 1040; 2011, № 1, maddə 66, № 5, maddə 446, № 9, maddələr 856, 862; 2012, № 5, maddə 479, № 8, maddə 818, № 10, maddə 1027, № 11, maddə 1205; 2013, № 1, maddə 74, № 8, maddələr 1014, 1037; 2014, № 1, maddə 69, № 3, maddə 313, № 6, maddə 736, № 7, maddə 919, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 611, № 6, maddə 800, № 11, maddə 1414; 2016, № 1, maddə 171, № 2 (II kitab), maddə 382, № 3, maddə 608, № 4, maddələr 782, 831, № 5, maddə 955, № 7, maddə 1343, № 8, maddələr 1440, 1450, № 9, maddələr 1584, 1585, 1587, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 282, 296, 311, № 5, maddə 972, № 8, maddə 1611, № 10, maddələr 1921, 1922, № 11, maddə 2186; 2018, № 2, maddə 336, № 3, maddələr 578, 625, 631, № 7 (II kitab), maddə 1655, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 160, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068, 2106; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 10, maddə 1306, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 695, № 11, maddə 1280, № 12, maddə 1508; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 5, maddə 577, № 6, maddə 686, № 7, maddə 811, № 8, maddə 1023, № 9, maddə 1083, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583, № 7, maddə 1075, № 8 (II kitab), maddələr 1244, 1277; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 oktyabr tarixli 359 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nın "Naxçıvan Muxtar Respublikası üzrə:" hissəsində "Dini Qurumlarla İş üzrə İdarənin" sözləri "Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 mart tarixli 63 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 330; 2017, № 3, maddə 476; 2021, № 3, maddə 284) 1-ci hissəsinin "Kollegiyanın üzvləri:" bölməsində "İdarəsinin rəisi" sözləri "Dövlət Agentliyinin direktoru" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 463 QƏRAR Bakı şəhəri, 20 dekabr 2023-cü il

## "Xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 22 sentyabr tarixli 276 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 937-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 22 sentyabr tarixli 276 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 1075) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissəsində "ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin" sözləri "ehtiyatların" sözü ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması Qaydası"nın adında və 1.1-ci bəndində "ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin" sözləri "ehtiyatların" sözü ilə, 2-ci hissəsinin adında, 1.3-cü, 2.1-ci, 2.2-ci, 2.4-cü bəndlərində, 2.1.1-ci, 2.1.3-cü, 2.2.1-ci və 2.2.2-ci yarımbəndlərində və 2.2.3-cü yarımbəndinin birinci cümləsində ismin müvafiq hallarında "ehtiyat fondlarına aid edilən məbləğlər" sözləri ismin müvafiq hallarında "ehtiyatlar" sözü ilə, 2.3-cü bəndində "ehtiyat fonduna aid edilən məbləğlərdən" sözləri "ehtiyatlardan" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 464 QƏRAR Bakı şəhəri, 21 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 989-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli və "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 28 dekabr tarixli 345 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2310 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 391; 2005, № 4, maddə 377, № 6, maddə 548; 2007, № 2, maddələr 197, 201; 2008, № 2, maddə 105, № 9, maddə 862; 2009, № 11, maddə 936; 2012, № 1, maddə 44; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955, № 9, maddə 1596; 2017, № 6, maddə 1237, № 10, maddə 1934, № 11, maddələr 2153, 2159; 2018, № 4, maddə 782, № 10, maddə 2181, № 12 (II kitab), maddə 2750; 2019, № 3, maddə 539, № 6, maddə 1143, № 7, maddə 1337, № 12, maddə 2079; 2020, № 4, maddə 492; 2023, № 2, maddə 293, № 7, maddə 1081; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 oktyabr tarixli 361 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın 4.2-ci bəndində "bir ay" sözləri "5 (beş) iş günü" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Milli Məclisin iclasında

# İlham Əliyev adını Azərbaycan tarixinə qızıl hərflərlə yazıb

Dekabrın 22-də Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri bildirib ki, dekabrın 24-də Prezident İlham Əliyevin doğum günüdür.



Spiker diqqətə çatdırıb ki, qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan öz tarixinin ən şanlı dövrlərindən birini yaşayır: "Biz siyasi, iqtisadi və hərbi qüdrəti ilə geniş bir bölgədə söz sahibi olan dövlətimizlə qürur duyuruq".

Sədr qeyd edib ki, son 30 ildə ölkəmizin inkişafı yolunda ən böyük maneə olan bir problem artıq keçmişdə qalıb. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi və bu il sentyabrın 20-də antiterror tədbirləri nəticəsində əzəli tarixi torpaqlarımız olan Qarabağın və Şərqi Zəngəzurun işğalına son qoyulub, dövlətimizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib.

Bütün bu uğurların təməlində Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasını layiqincə davam etdirən dövlət başçısı möhtərəm cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasət xətti dayanır. Məhz onun fenomenal liderlik məharəti, idarəçilik bacarığı, əzmi və cəsarəti sayəsində Azərbaycan dünyanın sayılıb-seçilən dövlətləri sırasına çıxıb.

Milli Məclisin Sədri vurğulayıb ki, cənab İlham Əliyev xalq və Vətən yolunda müstəsna xidmətləri ilə öz adını Azərbaycan tarixinə qızıl hərflərlə yazıb. Ölkəmizin sürətli və dinamik iqtisadi inkişafı xalqımızın və dövlətimizin xoşbəxt gələcəyini təmin edən möhtəşəm layihələri reallaşdırmağa imkan verir. Məhz bunun nəticəsidir ki, Azərbaycan bu gün Qarabağda öz miqyasına görə heyrət doğuran bərpa-quruculuq işlərini əzmlə həyata keçirir. Ali Baş Komandanın rəhbərliyi ilə xalqımız döyüş meydanlarında göstərdiyi hünərləri bu gün tikinti meydançalarında da nümayiş etdirir. Məcburi köçkün soydaşlarımız 30 il həsrətində olduqları ata-baba yurdlarına dönürlər.

Prezidentin təşəbbüsü və iştirakı ilə Xankəndi şəhərində baş tutan tədbirlər Azərbaycanın öz torpaqlarının əsl sahibi olduğunu, "Qarabağ Azərbaycandır!" həqiqətini bir daha bütün dünyaya çatdırdı.

Milli Məclisin Sədri təklif edib ki, doğum günü münasibətilə cənab Prezidentə Milli Məclis adından təbrik məktubu ünvanlansın. Spikerin təklifi alqışlarla qarşılanıb.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr keçirilib. Komitə sədrləri Zahid Oruc, Fazil Mustafa, Siyavuş Novruzov, deputatlardan Naqif Həmzəyev, Razi Nurullayev, Fəzail Ağamalı, Etibar Əliyev, Qüdrət Həsənquliyev, Elşən Musayev, Aydın Hüseynov çıxış ediblər.

Deputatlar ölkəmizin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, mədəni, sosial sahələrdə böyük nailiyyətlər əldə etdiyini, Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində xalqımızın sarsılmaz inamını və dəstəyini qazandığını vurğulayıblar. Postmünaqişə dövründə dövlətimizin qarşısında duran vəzifələrin uğurla həyata keçirildiyini, Azərbaycanın qalib dövlət olmaqla yanaşı, Cənubi Qafqaz regionunun lider dövlətinə çevrildiyini bildiriblər. Çıxışlarda Azərbaycana qarşı bəzi qüvvələrin məkrli plan və niyyətlərinə baxmayaraq, ölkə Prezidentinin səyləri və qətiyyəti sayəsində bu gün sülh müqaviləsinin bağlanması üçün heç bir maneənin olmadığı bildirilib. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın gələcəkdə də yeni-yeni nailiyyətlər əldə edəcəyinə inam ifadə olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəlikdə 27 məsələnin olduğunu söyləyib. O, birinci məsələnin "Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi olduğunu deyib. Spiker qeyd edib ki, beynəlxalq sənədlə bağlı olduğuna görə, qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək.

Məsələni təqdim edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, "Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş" 2023-cü il noyabrın 20-də Bakı şəhərində imzalanıb. Saziş iki ölkə arasında hava əlaqəsinin yaradılması və həyata keçirilməsi məqsədi daşıyır. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov komitənin layihəyə müsbət rəy verdiyini söyləyib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova növbəti 17 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu deyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O, məsələ ilə bağlı plenar iclasda ikinci oxunuş zamanı aparılan müzakirələrdə bəzi təkliflərin verildiyini, bu təkliflərin aidiyyəti dövlət qurumu ilə birlikdə araşdırıldığını və təklif irəli sürən deputatlara bu barədə arayışın təqdim edildiyini söyləyib. 15 fəsil, 68 maddədən ibarət qanun layihəsi Azərbaycan Respublikasının hava məkanından istifadəni və aviasiya sahəsində fəaliyyəti tənzimləyir, aviasiyada təhlükəsizliyin, o cümlədən dövlətin müdafiəsinin, əhalinin və iqtisadiyyatın hava daşımaları və aviasiya işləri ilə əlaqədar ehtiyaclarının təmin edilməsi üçün həyata keçirilən tədbirlərin hüquqi və təşkilati əsaslarını müəyyən edir. Sənəddə aviasiya sahəsində dövlətin əsas məqsəd və vəzifələri müəyyən edilib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Layihə mühasibat uçotunu məcburi qaydada elektron formada aparacaq mühasibat uçotu subyektlərinin dairəsinin müəyyən edilməsi məqsədilə hazırlanıb. Dəyişiklik Vergi Məcəlləsində təsbit olunan elektron auditin aparılmasına dəstək verəcək, həmçinin layihədə qeyd olunan vergi ödəyiciləri tərəfindən müvafiq məlumatların aidiyyəti üzrə təqdim edilməsi sahəsində operativliyi artıracaqdır.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) nəzərə çatdırıb. O, layihənin birinci və ikinci oxunuşlarda deputatlar tərəfindən dəstəkləndiyini, əlavə heç bir təklifin olmadığını deyib və səsə qoyulmasını xahiş edib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev komitənin sənəd barədə müsbət rəy verdiyini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, birinci və ikinci oxunuşlarda layihənin yekdilliklə dəstəkləndiyini bildirib və olduğu kimi səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Deputat məsələyə dair heç bir əlavə təklifin olmadığını deyib və səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, birinci və ikinci oxunuşlar zamanı sənədin ətraflı müzakirə olunduğunu, deputatlar tərəfindən dəstəkləndiyini, layihənin mətnində heç bir dəyişikliyin olmadığını deyib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova komitənin məsələ ilə bağlı rəyini söylədikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti iki məsələsi ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. O qeyd edib ki, bu, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihələridir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "İşsizlikdən sığorta haqqında" qanunda dəyişikliklə bağlı məlumat verib. Bildirilib ki, layihə ilə bağlı heç bir əlavə təklif daxil olmayıb, sənədin mətnində dəyişiklik edilməyib. Layihədə işsizlikdən sığorta ödənişi almaq hüququ olan şəxslərin dairəsinin genişləndirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov isə İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini təqdim edib. O, layihəyə hər hansı təklifin olmadığını deyib və səsə qoyulmasını xahiş edib. Sənəddə sığortaedən tərəfindən işçilərin işsizlikdən sığorta etdirilməməsi və işçinin peşəsi, ixtisası və əməkhaqqı barədə sığortaçıya rəsmi məlumat verilməməsinə görə inzibati xətalar haqqında işlərə müəyyən edilən qaydalar çərçivəsində baxılması təklif olunur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 7 məsələsi Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, məzmun və mahiyyət baxımından bir-birinə yaxındır. Sonra müvafiq komitələr tərəfindən bu qanun layihələri təqdim olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrini təqdim edib. O, sənədlərin ticarət gəmiçiliyində və dəniz limanlarında iqtisadi və hüquqi münasibətləri tənzimləmək və dövlət rüsumunu müəyyən etmək məqsədilə hazırlandığını söyləyib.

Parlamentin Sədri Sahibə Qafarova gündəliyin digər 3 məsələsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxıldığını bildirib.

Komitənin üzvü Kamal Cəfərov bu 3 məsələni - Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihələrini diqqətə çatdırıb. O, layihələrlə bağlı hər hansı təklifin olmadığını deyib və sənədlərin səsə qoyulmasını xahiş edib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, layihənin birinci və ikinci oxunuşlar zamanı deputatlar tərəfindən yekdilliklə dəstəkləndiyini deyib və səsə qoyulmasını xahiş edib.

Gündəliyin bu 7 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Millət vəkili birinci və ikinci oxunuşlarda məsələ ilə bağlı heç bir əlavə təklifin daxil olmadığını deyib və onun səsə qoyulmasını xahiş edib. Qanun layihəsi maliyyə hesabatları və mühasibat uçotu sənədləri təqdim edilərkən dövlət və ya kommersiya sirri hesab edilən məlumatların qorunmasının tənzimlənməsi məqsədilə hazırlanıb.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin növbəti məsələsinin "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə, "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) olduğunu bildirib. O, layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxıldığını deyib.

Məsələ barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev komitənin müsbət rəyini diqqətə çatdırdıqdan sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri bildirib ki, gündəliyin növbəti məsələsi "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır və müvafiq konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Əliabbas Salahzadə məsələ barədə məlumat verərək bildirib ki, hazırda qüvvədə olan "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 30 may 2023-cü il tarixli Qanunda müvafiq icazə olmadan tikilmiş və ya tikilməkdə olan tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulmasının qadağan edilməsi məsələsi ehtiva olunur. Layihədə bu qadağanın yeni qəbul edilmiş və 2024-cü il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulan "Elektroenergetika haqqında" 2023-cü il 11 aprel tarixli Qanuna da əlavə edilməsi təklif olunur.

Müzakirələr zamanı Əliabbas Salahzadə deputat Vüqar Bayramovun qaldırdığı məsələyə aydınlıq gətirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova növbəti məsələnin Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi olduğunu deyib. O, qanunvericiliyin tələbinə əsasən bu qanun layihəsinin də bir oxunuşda qəbul ediləcəyini söyləyib.

Birinci vitse-spiker, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli həmin sənəd barədə məlumat verərək bildirib ki, layihədə Şəhərsalma və Tikinti Məcəlləsinin 16.2-ci maddəsində "təşkili və fəaliyyəti qaydası, eləcə də sistemə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və işlənilməsi qaydaları" sözlərinin "əsasnaməsi" sözü ilə əvəz edilməsi təklif olunur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin son 7 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib. Spiker növbəti iki məsələnin - Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında və "Mediasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin ölkə Prezidentinin bir məktubu ilə daxil olduğunu və mahiyyətcə bir-birinə bağlı olduğunu deyib. O, hər iki layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxıldığını söyləyib.

Bu qanun layihələri barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verib. O, Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinin "Arbitraj haqqında" qanun layihəsi ilə bağlı olduğunu, mahiyyətcə uyğunlaşdırma xarakteri daşıdığını və birinci oxunuşda sənədlə bağlı hər hansı bir sual yaranmadığını diqqətə çatdırıb. Nizami Səfərov "Mediasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin də "Arbitraj haqqında" qanun layihəsinə əsasən, yeni təsisatın yaranması ilə bağlı olduğunu bildirib. O, birinci oxunuşda müzakirələrdə qaldırılan məsələlərə aydınlıq gətirildiyini diqqətə çatdırıb.

Milli Məclisin komitə sədri Siyavuş Novruzovun səsləndirdiyi sualları deputat Nizami Səfərov cavablandırandan sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Gündəliyin 23-cü məsələsi olan "Prokurorluq haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə məlumat verib. O, layihə ilə bağlı komitəyə hər hansı bir təklifin daxil olmadığını bildirib və sənədin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəliyin 24-cü məsələsi olan "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, ölkə Prezidenti tərəfindən təqdim olunmuş sənəddə həmin qanunun 2.2-ci maddəsində nəzərdə tutulmuş müddətin uzadılması təklif olunur.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti məsələsi olan "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Milli Məclisin Sədri layihə ilə bağlı məlumat vermək üçün komitə sədri Tahir Mirkişiliyə söz verib.

Komitə sədri Tahir Mirkişili nəzərə çatdırıb ki, layihədə "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə mülki iş üzrə ilk dəfə məhkəməyə müraciət edən fiziki şəxslər müəyyən edilmiş dövlət rüsumunun 10 faizini ödəməkdən azad olunurlar.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Sahibə Qafarova gündəliyin 26-cı məsələsi olan Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət Nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat vermək üçün sözü Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərova təqdim edib.

Deputat Kamal Cəfərov məsələyə dair deputatların təklifləri ilə bağlı aparılan iş haqqında məlumat verib. O, hazırda layihədə hər hansı bir dəyişiklik olmadığı üçün sənədin səsə qoyulmasını xahiş edib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və İnsan hüquqları komitəsinin üzvü Bəhruz Məhərrəmov komitələrinin layihə ilə bağlı rəylərini diqqətə çatdırıblar. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə əlaqədar Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verib. Komitə sədri qanun layihəsi haqqında əvvəlki oxunuşda ətraflı məlumat verildiyini bildirib. O, dəyişikliyin Hərbi xidmətkeçmə haqqında Əsasnamənin hüquqi əsaslarını daha da möhkəmləndirməsi baxımından vacibliyini vurğulayıb və həmkarlarını sənədi dəstəkləməyə çağırıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin plenar iclasının gündəliyində olan məsələlərin müzakirəsi başa çatıb.

Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 21-də parlamentdə tibbi tullantıların idarə olunması ilə bağlı çox vacib bir dinləmənin keçirildiyini bildirib və Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanovdan dinləmə haqqında məlumat verməyi xahiş edib.

Əhliman Əmiraslanov bildirib ki, Səhiyyə komitəsinin "Tibbi tullantıların idarə olunması: mövcud vəziyyət, problemlər və onların həlli yolları" mövzusunda keçirdiyi ictimai dinləmədə Milli Məclisin deputatları, Milli Məclis Aparatının əməkdaşları, Azərbaycan tibb elminin və səhiyyə sahəsinin tanınmış mütəxəssisləri, əlaqədar dövlət strukturlarının, aparıcı tibb müəssisələrinin rəhbər şəxsləri və müvafiq sahənin digər nümayəndələri iştirak ediblər. Komitə sədri dinləmənin keçirilməsi üçün göstərilən dəstəyə və yaradılan şəraitə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Əhliman Əmiraslanov dinləməyə hazırlıq ərəfəsində Səhiyyə komitəsində deputat Soltan Məmmədovun başçılığı ilə təşəbbüs qrupunun yaradıldığını diqqətə çatdırıb. Bununla əlaqədar qrup bu sahədə müvafiq araşdırmalar, monitorinqlər və mütəxəssislərlə fikir mübadiləsi aparıb. Keçirilən dinləmədə bildirilib ki, Azərbaycanda tibbi tullantıların idarə olunması ilə bağlı son vaxtlar bir çox işlər görülüb. Dinləmədə məlum olub ki, bu sahədə normativ sənədlərin təkmilləşdirilməsinə, yeni yanaşmaların tətbiqinə ehtiyac var. Komitə sədri diqqətə çatdırıb ki, tədbirdə parlament üzvləri tibbi tullantıların idarə edilməsi sahəsinin təkmilləşdirilməsinə qanunvericilik baxımından dəstək göstərməyə hazır olduqlarını bildiriblər.

İclasa yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, parlamentin növbəti plenar iclası dekabrın 26-da keçiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



## Heydər Əliyev İli 2023

# "Heydər Əliyev ideyalarının təntənəsi: şanlı Zəfərdən yeni zirvələrə"

**Dekabrın 22-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev ideyalarının təntənəsi: şanlı Zəfərdən yeni zirvələrə" mövzusunda tədbir keçirilib.**

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş 2023-cü il Azərbaycan xalqının və dövlətinin tarixinə müstəsna əhəmiyyət daşıyan bir dövr kimi həkk olunmuşdur: "Ulu Öndərin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə mühüm nailiyyətlər qazanılmış, Azərbaycanın iqtisadi və siyasi imkanları genişlənmiş, qlobal arenada mövqeyi daha da möhkəmlənmişdir. 2020-ci ildə əldə edilmiş möhtəşəm Qələbə ilə qaytardığımız bütün torpaqlarımızda suverenliyimiz də tam bərpa olunmuş, Azərbaycan bayrağı digər ərazilərdə olduğu kimi Xankəndidə də ucaldılmışdır. Beləliklə, Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə möhtəşəm uğurlar qazanaraq dövlətimizin və xalqımızın qarşısında duran ən ümdə vəzifəni də yerinə yetirmiş - ölkəmizin ərazi bütövlüyü və suverenliyi təmin edilmişdir".

Onun sözlərinə görə, Heydər Əliyev yolunun Müzəffər davamçısı kimi Prezident İlham Əliyevin sosial-iqtisadi tərəqqiyə, ölkəmizin hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin güclənməsinə, mili həmrəyliyin möhkəmlənməsinə yönəldilmiş uzaqgörən siyasəti Azərbaycanın haqq işinin Zəfərlə yekunlaşmasında - tarixi ədalətin bərpasında həlledici rol oynamışdır: "Artıq Ümummilli Lider Heydər Əliyevin ideyalarının təntənəsinin təzahürü olan müasir, qalib və qüdrətli Azərbaycan şanlı Zəfərdən yeni zirvələrə doğru inamla irəliləməkdədir. Bu gün gözəl əhvali-ruhiyyədə biz Azərbaycanın gələcək inkişafı, Azərbaycan xalqının rifahı naminə növbəti qələbələrin astanasındayıq. Ulu Öndərin dahiyanə söylədiyi bir fikir var: "Vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq". Bu gün də məhz Ümummilli Lider Heydər Əliyevin yaratdığı güclü təməllər üzərində cənab Prezident müasir, müstəqil, suveren, bütöv Azərbaycanı, yeni Azərbaycanı qurmuşdur. Artıq Azərbaycan dünyada inkişaf diyarı, multikultural dəyərlərin və tolerantlıq mühitinin hökm sürdüyü sabitlik adası, beynəlxalq dialoq və əməkdaşlıq məkanı, qalib və qüdrətli dövlət kimi tanınır".

Tahir Budaqov vurğulayıb ki, çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayan Azərbaycanın bütün uğurları və möhtəşəm qələbələri bilavasitə Heydər Əliyevin zəngin dövlətçilik irsi ilə bağlıdır: "Ona görə də "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim xalqıma, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub" deyən Ümummilli Lider haqlı olaraq Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin qurucusu adlandırılır, onun siyasi irsi və ideyaları milli-mənəvi sərvətimiz kimi olduqca yüksək dəyərləndirilir".








YAP Sədrinin müavini bildirib ki, "Heydər Əliyev İli" çərçivəsində istər Azərbaycanda, istərsə də respublikamızın hüdudlarından kənarda keçirilən çoxsaylı tədbirlər də Ümummilli Liderin zəngin dövlətçilik irsinin, əbədişayar ideyalarının öyrənilməsi və təşviqi baxımından mühüm əhəmiyyət daşımaqla yanaşı, regionun lider dövlətinə çevrilmiş və Zəfər zirvəsinə yüksəlmiş Azərbaycanın inkişaf yolunun tədqiqi kontekstində böyük önəm kəsb edir: "Ulu Öndərin siyasi mirası olan, onun ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyası tərəfindən də "Heydər Əliyev İli" çərçivəsində çoxsaylı elmi-praktik konfranslar, aksiyalar, görüşlər, müsabiqələr və digər bir sıra tədbirlər keçirilmişdir. Xalqımızın qəlbində əbədiyaşarlıq qazanmış Ulu Öndərin vaxtilə müdrikcəsinə ifadə etdiyi "Nə qədər ki Azərbaycan var, mən də varam" kəlamı bütün tədbirlərimizin devizi olmuşdur".

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, bu gün Azərbaycanın gücünü müəyyən edən əsas strateji amil Prezident İlham Əliyevin tarixi ənənələri, milli dəyərləri, əxlaqi-mənəvi normaları daim üstün tutan, eyni zamanda mütərəqqi çağdaş reallıqlara hər zaman açıq olan Ümummilli Lider, dahi şəxsiyyət Heydər Əliyevin zəngin irsindən bəhrələnərək onun siyasətini keyfiyyətcə yeni müstəvidə uğurla davam etdirməsidir: "Tarix təsdiqləyir ki, Azərbaycanda Heydər Əliyev siyasətinə, Heydər Əliyev yoluna alternativ yoxdur. Bu yol yalnız müstəqillik illərimizin deyil, hələ Sovetlər dönəmində, 1969-cu ildən başlayaraq qət edilən şərəfli yoldur. Şübhə yoxdur ki, "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən və vədini yerinə yetirərək xalqın inam və etimadını doğruldan, Vətənə, xalqa və dövlətə sədaqət andını, ata vəsiyyətini şərəflə yerinə yetirən, sözü imzası qədər dəyərli olan qətiyyətli Lider - Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev Azərbaycanı daha parlaq gələcəyə aparacaq, xalqımızın rifahının daha da yüksəldilməsinə yönəlmiş siyasəti ilə Azərbaycana hələ böyük uğurlar, yeni zəfərlər, zirvələr bəxş edəcəkdir. Bundan sonra da qazanılacaq bütün nailiyyət və qələbələr Heydər Əliyev siyasətinin dönməzliyinin, əbədiliyinin təsdiqi, cənab İlham Əliyevin Zəfər yürüşünün davamı, partiyamızın gücünün növbəti ifadəsi olacaqdır".

"Fürsətdən istifadə edərək tədbirin təşkilində göstərdiyi sponsorluq dəstəyinə görə XXI əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzinin Müşahidə şurasının sədri cənab Fərhad Qaraşova təşəkkürümü bildirir, hər birinizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı və Prezident, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi altında doğma Azərbaycanımızın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram", - deyə Tahir Budaqov vurğulayıb.

Çıxış edən Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib ki, "Heydər Əliyev İli" çərçivəsində müxtəlif sahələrdə, fərqli mövzularda tədbirlər keçirilir: "Azərbaycanda müasir bazar prinsiplərinə uyğun iqtisadiyyatın və sahibkarlığın inkişafı məhz Ümummilli Liderin adı ilə bağlıdır. Ümummilli Lider biznes nümayəndələri ilə daim sıx təmasda olur, onların qayğıları ilə müntəzəm maraqlanır, tövsiyə və məsləhətlərini verirdi. Təsadüfi deyil ki, 25 aprel - Sahibkarlar Günü Ulu Öndərin yerli sahibkarlarla 2002-ci ildə keçirdiyi tarixi görüşün əsasında təsis edilib".

Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda iqtisadiyyatın və sahibkarlığın inkişafı istiqamətində gördüyü genişhəcmli işləri tam şəkildə təsəvvür etmək üçün onun ali idarəetmə sahəsində təqribən 30 illik bir təqvim dövrünü əhatə edən fəaliyyətinə nəzər salmaq lazımdır. 1969-cu ildə Heydər Əliyev respublika rəhbərliyinə gəldikdən sonra Azərbaycanın həyatında dönüş başladı. Görülən tədbirlər nəticəsində ötən əsrin 70-ci illərinin sonunda Azərbaycan sosial-iqtisadi inkişaf göstəricilərinə görə SSRİ-nin ən qabaqcıl respublikalarının sırasına daxil oldu.

Orxan Məmmədov qeyd edib ki, SSRİ-nin süqutu nəticəsində ötən əsrin 90-cı illərinin əvvəlində postsovet məkanında başlamış transformasiya prosesləri Azərbaycanda daha gərgin məcrada davam edirdi: "Sadəcə, bir neçə rəqəm ilə ölkə iqtisadiyyatının ozamankı durumunu izah etmək olar. Belə ki, bu dövrdə sənayedə illik geriləmə 20-24 faizə, kənd təsərrüfatında 15-20 faizə, kapital qoyuluşlarında isə 40 faizə çatmışdı. İnflyasiya min faizlərlə ölçülürdü, manatın məzənnəsi 100 dəfədən çox azalmışdı. Məhz belə bir dövrdə Ulu Öndər Heydər Əliyevin xalqın iradəsi ilə hakimiyyətə qayıdışı Azərbaycan xalqının XX əsrdə ikinci dəfə əldə etdiyi tarixi imkandan faydalanaraq müstəqil dövlətçilik arzusunu əbədi reallaşdırmasını təmin etdi. 1993-2003-cü illər ərzində Heydər Əliyevin dövlətçilik doktrinası əsasında quruculuq strategiyası uğurla həyata keçirildi və hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında keyfiyyətcə yeni səviyyədə davam etdirilməkdədir. Bu məqsədlə müxtəlif strateji proqramlar icra olunur, sahibkarlar üçün geniş fiskal stimullar tətbiq edilir, real sektora investisiyalar təşviq edilir, bizneslərin inkişafı üçün çoxsaylı dəstək mexanizmləri və yeni təşkilati-hüquqi modellər hazırlanır. Son 20 ildə Azərbaycanda milli iqtisadiyyatın real həcmi 4 dəfə, ixrac isə 15 dəfədən çox artıb. İqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz bəndi yüksək olub və Azərbaycan yuxarı orta gəlirli ölkəyə çevrilib. Ölkənin strateji valyuta ehtiyatları 47 dəfədən çox artaraq 66 milyard ABŞ dollarını keçib. Özəl sektorun ÜDM-də payı 83 faizi keçib, məşğulluqda isə 78 faizə yaxınlaşıb. Ötən 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyarda yaxını qeyri-neft sektoruna yönəlib".

KOBİA-nın İdarə Heyətinin sədri diqqətə çatdırıb ki, ölkəmizdə özəl sektorun dəstəklənməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir: "Prezident İlham Əliyevin sahibkarlığın inkişafına göstərdiyi diqqətin nümunəsi olaraq Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb. KOBİA-nın fəaliyyəti məhz sahibkarlıq sahəsində müasir dövrün çağırışlarına uyğun yeni təşkilati modellərin yaradılmasına və sahibkarlığın təşviqinə yönəldilib. Nəzərə alsaq ki, ölkəmizdə fəaliyyət göstərən biznes subyektlərinin 99,6 faizini KOB subyektləri təşkil edir, o zaman qeyd edə bilərik ki, ölkənin dayanıqlı inkişafı kiçik və orta biznesin inkişaf səviyyəsi ilə sıx bağlıdır. KOB subyektlərinin yeni bölgüsü meyarlarının tətbiq edildiyi, eləcə də KOBİA-nın fəaliyyətə başladığı 2018-ci ildən ötən 5 il ərzində KOB subyektlərinin sayı 54 faizdən çox artaraq 378 minə yaxınlaşıb. Bu dövr ərzində KOB-ların qeyri-neft ÜDM-də payı 23,5 faizdən 27,2 faizə, onlar tərəfindən yaradılmış əlavə dəyərin həcmi isə təqribən 2 dəfəyədək artaraq 9,8 milyard manatdan 17,2 milyard manata çatıb".

Onun sözlərinə görə, Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən Qələbə, Qarabağ bölgəsinin işğaldan azad edilməsi və konstitusiya quruluşunun ölkəmizin bütün ərazisində bərpa edilməsi də bizneslərin inkişafı üçün əlavə mənbələr açmış oldu. KOBİA mandatı çərçivəsində və dövlətin siyasətinə uyğun olaraq bizneslərin Qarabağa qayıtması məqsədilə zəruri işlər həyata keçirir və qarşıdakı illərdə də prioritet istiqamətlərdən biri kimi bu sahədə fəaliyyəti davam etdirəcək.

Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru Dilarə Seyidzadə Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlər göstərdiyini deyib: "Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun Heydər Əliyev kimi dahi Lideri olub. Biz müstəqil ölkənin vətəndaşı olaraq çox çətin yollardan keçmişik. Bu müstəqilliyin qorunması və möhkəmlənməsi Ümummilli Liderin xidmətləri sayəsində mümkün olub. Heydər Əliyev ölkəmizin müstəqilliyini qorumaqla yanaşı, inkişafı naminə çox mühüm işlər görüb. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı həm yaradan, həm möhkəmləndirən, dünyada tanıdan, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi. O, özündə bütün keyfiyyətləri birləşdirmişdi. Heydər Əliyev hələ 1969-cu ildə ilk dəfə Azərbaycanda siyasi hakimiyyətə gəlişi zamanı ölkəmizin müstəqilliyini öncədən görürdü və onun siyasəti məhz bu istiqamətə yönəlmişdi. Ölkəmizin iqtisadi qüdrətinin artırılmasını, hərbi hazırlığa böyük önəm verilməsini, bu məqsədlə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasını və yerli hərbi kadrların yetişdirilməsi məsələsinə ayrılan diqqəti xüsusi qeyd etmək lazımdır. Ulu Öndərin bütün addımları Azərbaycanın gələcək müstəqilliyinə hesablanmışdı".

Dilarə Seyidzadə qeyd edib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev çətin anlarda xalqına dayaq oldu. O, bütün ömrünü Azərbaycana, Azərbaycan xalqına həsr edib. Bütün bunlar gənc nəsil üçün həm dövlətçilik ənənələrini dərk etmək, həm də üzərlərinə düşən məsuliyyəti anlamaq baxımından bir nümunədir. Ulu Öndərin torpaq, Vətən sevgisi böyük idi. "Mən "Dəmir yumruq" əməliyyatı ilə torpaqlarımızın işğaldan azad olunmasını xüsusi vurğulamaq istəyirəm. O yumruqda xalqımızın birliyini görürəm. Bu, milli birlikdir, Heydər Əliyevin arzusunun reallıqda təsdiqidir. 44 gündə Azərbaycan bütün dünyaya göstərdi ki, qalib ölkədir. Bu, Heydər Əliyev siyasətinin bəhrəsidir. O, xalqını, dövlətini elə böyük məhəbbətlə sevirdi ki, Azərbaycana İlham Əliyev kimi dövlətini, xalqını sevən Lideri bəxş etdi. Cənab İlham Əliyevin həyata keçirdiyi siyasətə hansı töhfəni verə bilərik, bu barədə hər kəs düşünməlidir. Onda Azərbaycanın gələcəyi hər zaman parlaq, firavan olacaq. Heydər Əliyev bildirirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunması, daimi, əbədi olması bundan da çətindir. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinin miqyasına diqqət yetirin. Hər birimiz bu işə dəstək olmalıyıq. Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir. Azərbaycan bütün sahələrdə inkişaf edir. Ərazi bütövlüyümüzün təmin olunması, işğala son qoyularaq azad edilmiş torpaqlarımızın cənnətə çevrilməsi üçün görülən işlər Heydər Əliyev siyasətinin təntənəsidir",- deyə YAP Veteranlar Şurasının üzvü vurğulayıb.

"Azərbaycan Bayrağı" ordenli şəhid Nurlan Mustafayevin anası Rəhilə Ramazanova bildirib ki, Heydər Əliyev Azərbaycanın xilaskarı, memarı və qurucusudur: "Heydər Əliyev dünənimizdə, bu günümüzdə, sabahımızdadır. Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində misilsiz rolu olan, xalqımızın milli qürur mənbəyinə çevrilən bir liderdir. Heydər Əliyev ideyaları əbədiyyətə qədər Azarbaycana yol göstərəcək. Bu gün Azərbaycan Ulu Öndərin böyük uzaqgörənliklə istiqamətləndirdiyi və mayak kimi işıqlandırdığı yolla gələcəyə inamlı addımlarla irəliləyir. Bu gün Azərbaycanın daxili və xarici siyasəti Heydər Əliyevin müdrik ideyaları əsasında, Heydər Əliyev dəst-xətti ilə yürüdülür. Heydər Əliyevin zaman baxımından reallaşdıra bilmədiyi bircə arzusu qalmışdı. O, Azərbaycanı bütöv, Qarabağı azad görmək istəyirdi. Ulu Öndər bu arzusunun reallaşmasını da daim arxalandığı xalqının dəstəyi ilə özü qədər inandığı İlham Əliyevə vəsiyyət etdi. Bu böyük məsələnin çözümü də böyük müdriklik, böyük uzaqgörənlik, böyük əzm və qətiyyət tələb edirdi. Nəyi, nə vaxt və necə edəcəyini yaxşı bilən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin sentyabrında bir çağırışı ilə bütün xalqı və ordunu ayağa qaldırdı. Rəhbər-xalq-ordu birliyi cəmi 44 gün ərzində böyük Zəfərə imza atdı, 30 ilə yaxın işğalda qalan torpaqlarımızı düşməndən azad etdi. Bu Zəfərlə yalnız 30 ilin deyil, əsrlərin qisası alındı. Bu Zəfərlə Azərbaycan bir dövlət, bir millət kimi özünü bütün dünyaya tanıtdı, gücünü, qüvvətini təsdiqlədi".

"Uzun illərdir ki, Heydər Əliyevin qurub-yaratdığı Yeni Azərbaycan Partiyasının fəallarındanam. Mən eyni zamanda Vətən müharibəsinin qəhrəman şəhidlərindən biri, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı Nurlan Mustafayevin anasıyam. Mən daim Vətənimi, bayrağımı, xalqımı sevdim və övladlarımı da bu ruhda böyütdüm. Nurlan üçün Vətən Ana demək idi, torpaq toxunulmazlıq demək idi. Bu amalla da Vətənə 11 il qüsursuz xidmətindən sonra Vətən müharibəsi başlanan gündən torpaqlarımızın azadlığı uğrunda döyüşlərə atıldı. Son nəfəsinədək qəhrəmancasına vuruşdu və Hadrut uğrunda gedən döyüşlər zamanı şəhadətə yüksəldi. Vətənim üçün Nurlan kimi bir qəhrəman yetişdirdiyimə görə fəxr duyuram. Fəxr duyuram ki, Azərbaycanın Zəfər tarixinə adını yazdırmış, yalnız mənim deyil, bütün Azərbaycanın adını hörmət və qürurla andığı bir igidin anasıyam", - deyə Rəhilə Ramazanova qeyd edib.

Çıxış edən Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Mirzəyev bildirib ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi oldu: "Ulu Öndərin orduda vahid komandanlığın təmin edilməsi sahəsində gördüyü məqsədyönlü tədbirlər nəticəsində nizami ordu formalaşdırıldı. Mərkəzləşmiş maddi-texniki təminat işində uğurlu addımlar atıldı, müxtəlif qoşun növlərinin formalaşması başa çatdırıldı, orduya çağırış işi təkmilləşdirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi".

Onun sözlərinə görə, müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır: "Qarşısına qoyulan hər bir tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarında olan Azərbaycan Ordusu bu gün müasir standartlara cavab verən səviyyədə formalaşıb. Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da güclənir, döyüş qabiliyyətini artırır. Bu gün Azərbaycan əsgəri dövlətin qayğısını hər zaman üzərində hiss edərək, xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır".

Anar Mirzəyev deyib ki, Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün döyüş əməliyyatlarını yüksək səviyyədə həyata keçirməklə şanlı Zəfər qazandı və tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi: "Arzularımız 44 günlük Vətən müharibəsində çin oldu və biz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən, ölkəmizin milli gücünün artırılmasına hesablanan ardıcıl siyasət nəticəsində böyük Qələbənin sevincini yaşadıq. Qəhrəman döyüşçülərimiz 30 il ərzində "biz döyüşməyə hazırıq, lazım gəlsə, ölümə də gedərik" ifadəsinin yalnız söz xatirinə deyilmiş olmadığını sübüt etdi. Çünki onlar öz əzəli və əbədi torpaqlarımız uğrunda döyüşürdü. Onların döyüş əzmi bütün dünyaya səs saldı. "Dəmir yumruq" əməliyyatı bir daha göstərdi ki, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Ulu Öndərin 100 illiyinə həsr olunmuş "Diplomatiya Həftəsi" başa çatıb







Dekabrın 18-22-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə yeni qrup "Diplomatiya Könüllüləri" üçün Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş "Diplomatiya Həftəsi" təşkil olunub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, dekabrın 18-də diplomatiya həftəsi iştirakçıları Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edərək Ulu Öndər Heydər Əliyevin, habelə ərazi bütövlüyümüz uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirələrini dərin hörmət və minnətdarlıqla yad ediblər.

Sonra xarici işlər naziri Ceyhun Bayramovun və ADA Universitetinin rektoru Hafiz Paşayevin iştirakı ilə layihənin açılış mərasimi keçirilib.

Layihənin Ulu Öndərin həyatı, daxili siyasəti və parlamentarizmin inkişafında xidmətlərinə həsr olunmuş ilk günü çərçivəsində iştirakçılar Azərbaycan Respublikası Prezidentinin Katibliyinin sabiq rəisi Dilarə Seyidzadə, Milli Məclisdə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov ilə görüşüb, Heydər Əliyev Fondu tərəfindən ərsəyə gətirilmiş, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "İz" sənədli filmini izləyib, habelə Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

"Diplomatiya Həftəsi"nin Ümummilli Liderin xarici siyasəti, habelə ordu quruculuğu fəaliyyətinə həsr olunmuş ikinci günü ərzində iştirakçıların Azərbaycan Respublikasının sabiq Baş naziri və xarici işlər naziri Həsən Həsənov, xarici işlər nazirinin müavini Fariz Rzayev, nazirliyin Mətbuat xidməti idarəsinin rəisi, mətbuat katibi Ayxan Hacızadə ilə görüşləri, habelə Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Hərbi Qənimətlər Parkına səfərləri təşkil olunub.

Ulu Öndər Heydər Əliyevin iqtisadi inkişaf və milli neft strategiyası barədə diplomatiya könüllülərinin məlumatlılığının artırılması məqsədilə iştirakçıların bp şirkətinin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov və Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) Media, ictimaiyyətlə əlaqələr və kommunikasiya Departamentinin rəis müavini Emin Axundzadə ilə görüşləri, SOCAR-ın inzibati binası və Heydər Əliyev adına Neft Emalı Zavoduna səfərləri həyata keçirilib.

Layihənin Ümummilli Liderin təhlükəsizlik orqanlarında fəaliyyəti, Yeni Azərbaycan Partiyasının yaradılmasında rolu, gənclər siyasəti, milli mətbuat və mədəniyyətin inkişafında xidmətlərinə həsr olunmuş dördüncü günü çərçivəsində gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Azərbaycan Dövlət Televiziyasının sədri Rövşən Məmmədov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin İdarə Heyətinin sədri Vüqar Əliyev, Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının rəisi polkovnik Elşad Nəsirov, DTX-nin "Alyans" Veteranlar Birliyinin sədr müavini polkovnik Əli Orucov, Yeni Azərbaycan Partiyasının nümayəndələri, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin Strateji inkişaf və layihələrin idarə edilməsi şöbəsinin müdir müavini Yaşar Hüseynli ilə görüşlər keçirilib, Azərbaycan Dövlət Televiziyası və Azərbaycan Dövlət İnformasiya Agentliyinə səfərlər təşkil olunub.

Layihənin 5-ci günü təşkil olunan bağlanış mərasimində xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, nazirliyin Mətbuat xidməti idarəsinin rəisi, mətbuat katibi Ayxan Hacızadə və Kadrlar idarəsinin rəisi Raman Məmmədov çıxış ediblər. Bağlanış mərasimində yeni qəbul olunmuş "Diplomatiya Könüllüləri"nə fəaliyyətlərində uğurlar arzulanıb, layihə iştirakçılarının çıxışları dinlənilib.

Tədbirin sonunda layihə iştirakçılarına sertifikatlar təqdim olunub.

# Müasir İncəsənət Muzeyində yeni fərdi sərgi: "Nağıl kimi"







Dekabrın 22-də Müasir İncəsənət Muzeyində tanınmış heykəltaraş Rahib Qarayevin "Nağıl kimi" adlı fərdi sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Xalq rəssamı, "Heydər Əliyev" ordeni laureatı, akademik Ömər Eldarov rəssam üçün hər bir sərginin premyera və bayram olduğunu vurğulayıb. Tədbirin ictimaiyyət arasında çox böyük rezonans doğuracağını bildirən akademik deyib: "Müəllif üçün bu sərgi tarixi hadisədir. Sərgidə çox maraqlı əsərlər yer alır. Bu, mədəni həyatda, təsviri incəsənətimizdə bir hadisə olaraq qalacaq".

Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı Natiq Əliyev fərdi sərgi açmağın çox məsuliyyətli və böyük zəhmət tələb edən iş olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, heykəltaraş müxtəlif rəngləri özündə birləşdirən möhtəşəm bir palitra yaradıb.

Xalq rəssamı Fuad Salayev qeyd edib ki, rəssam əsərlərində gizli dünyasını və düşüncələrini əks etdirir. Burada sərgilənən əsərlərin bir qismində bürünc və digər materiallar dekorativ effekt yaradaraq gözəl formada nümayiş etdirilib.

Sonda sərgi ilə tanışlıq olub.

Azərbaycan Rəssamlar İttifaqının üzvü və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının müəllimi olan heykəltaraş Rahib Qarayevin 2012-ci ildən işlədiyi "Leonardo Da Vinci" adlı bakalavr diplom işi hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Muzey Sərgi kompleksində nümayiş olunur. Həmçinin rəssamın 2014-cü ildə işlədiyi "Bəhruzbəy Kəngərli" adlı magistr diplom işi Naxçıvan şəhərindəki "Rəssamlar" parkında ucaldılıb. Heykəlin bir nümunəsi "Bəhruz Kəngərli" ev-muzeyinə hədiyyə edilib.

Sərgidə "Şəhər mövzulu", "Təbii daşlarla sintez olunmuş", "Heyvanlar aləmi" və "Müxtəlif" mövzuları üzrə altmış kompozisiya tamaşaçılara təqdim olunub.

# Bakıda beynəlxalq konfrans: "Dekolonizasiya dialoqları: nəticələr, çətinliklər və nailiyyətlər"





Dekabrın 22-də Bakıda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi (QHPŞ), Bakı Təşəbbüs Qrupu (BTQ) və Qoşulmama Hərəkatının Gənclər Təşkilatının (QHGT) birgə təşkilatçılığı ilə "Dekolonizasiya dialoqları: nəticələr, çətinliklər və nailiyyətlər" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin təmsilçiləri, parlamentarilər, vətəndaş cəmiyyəti mənsubları, gənclər təşkilatları və akademik dairələrdən olan 100-dən çox nümayəndə iştirak edib.

Tədbirin açılış mərasimində QHPŞ-nin Azərbaycan sədrliyi adından Milli Məclisin Aparat rəhbərinin müavini Rüstəm Mahmudov, BTQ-nin icraçı direktoru Abbas Abbasov və QHGT-nin Baş katibi Leyla Həsənova çıxış ediblər.

Natiqlər dekolonizasiya prosesinin gedişatı, neokolonializm tendensiyalarının vüsət alması və onunla mübarizə, müstəmləkə irsinin aradan qaldırılması, Qoşulmama Hərəkatının bu proseslərdə müsbət rolu və kollektiv səylərin əhəmiyyətini vurğulayıblar.

Daha sonra konfrans panel müzakirələri formatında davam edib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Esmira Cəfərovanın moderatorluğu ilə keçirilmiş "Müstəmləkəçilik mirası və müasir kontekstdə dekolonizasiya siyasəti" adlanan ilk paneldə Milli Məclisin deputatı Tural Gəncəliyev, Meksikanın ölkəmizdəki keçmiş səfiri Xuan Rodriqo Labardini, Yeni Kaledoniyanın Rəssamlar Assosiasiyasının prezidenti Aleks Loi Ui Toura və Fransız Qvianasının Dekolonizasiya və Sosial Qurtuluş Hərəkatının üzvü Bris Noel Epailli panelist qismində çıxış ediblər.

QHGT-nin heyət üzvü Teresa Ornelasın moderatorluğu ilə keçirilmiş "Nəsillərarası davamlılığın yetişdirilməsi: dekolonizasiya və postmüstəmləkə cəmiyyətlərinin formalaşdırılmasında gənclərin rolu" mövzusundakı ikinci panel müzakirələrdə Cibuti Respublikasının Milli Assambleyasının üzvü və Cibuti-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri İlaya İsmayıl Ceuedi, Yeni Kaledoniyanın Populyar Nəşrlər Assosiasiyasının prezidenti Brenda Hantip Uanabe, Fransız Qvianasının Dekolonizasiya və Sosial Qurtuluş Hərəkatının üzvü Edel Tadal və Konqo Respublikasından İqneys Urçil Loko Uako Mouamboua iştirak ediblər.

İştirakçılar tərəfindən bir sıra xalqların onilliklər boyunca apardığı mübarizəyə baxmayaraq, onlara qarşı hələ də ədalətsizliyin davam etməsi və müstəmləkəçilik irsinin mənfi təsirləri ətrafında müzakirələr aparılıb.

Tədbirdə müstəmləkəçilik tarixinə nəzər salınıb və XXI əsrdə neokolonializm tendensiyalarının baş qaldırması ilə bağlı təəssüf ifadə edilib.

Kolonializm tarixinin ən yaddaqalan siması olaraq Fransanın hələ də 13 dənizaşırı ərazidə müstəmləkəçilik siyasətini davam etdirməsi, beynəlxalq təşkilatların çağırışlarına məhəl qoymaması və ikili standartlar nümayiş etdirərək beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozması pislənilib.

Konfrans iştirakçıları Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində ötən dövr ərzində bu mövzuya xüsusi diqqət ayırmasını təqdir edib.

Tədbirdə həmçinin müstəmləkəçilik tarixi olmuş, hazırda ondan əziyyət çəkən ölkə və xalqların mübarizəsini və üzləşdiyi çətinlikləri işıqlandıran, habelə bu xüsusda xarici mütəxəssislərin müsahibələrini əks etdirən qısa videoçarx nümayiş etdirilib.

# "Hadrut, sən azadsan!" sənədli filminin təqdimatı olub










Nizami Kino Mərkəzində "Hadrut, sən azadsan!" sənədli filminin təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, filmin təqdimat mərasimində Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, Müdafiə Nazirliyinin kollektivi, mədəniyyət və incəsənət xadimləri və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.

Təqdimat mərasimində çıxış edən Bakı Media Mərkəzinin direktoru Orman Əliyev bu cür filmlərin ərsəyə gəlməsinin torpaqların qaytarılmasından sonra mümkün olduğunu vurğulayıb, şanlı Qələbənin Azərbaycan əsgəri başda olmaqla Prezident, Ali Baş Komandan İlham Əliyevin sayəsində qazanıldığını diqqətə çatdırıb.

"Bakı Media Mərkəzinin 10 yaşı tamam olur. Bu illər ərzində biz bir çox filmlər ərsəyə gətirmişik. Bundan öncə hazırladığımız "Şuşa, sən azadsan!" filminə yalnız Bakı Media Mərkəzinin sosial şəbəkə səhifələrində 900 mindən çox baxış olub. Biz bundan sonra da əlimizdən gələni edəcəyik ki, bu mövzuda bir çox filmlərə imza ataq", - deyə Orman Əliyev əlavə edib.

Ekran əsəri Mədəniyyət Nazirliyi yanında Azərbaycan Respublikası Kino Agentliyinin sifarişi ilə Bakı Media Mərkəzi və "Azərbaycanfilm" kinostudiyası tərəfindən istehsal edilib. Filmin baş prodüseri Arzu Əliyeva, prodüserləri Orman Əliyev və Nazim Hüseynov, ssenari müəllifi Rasim İsmayılov, quruluşçu rejissoru Cavidan Şərifov, quruluşçu operatorları Ziya Babayev və Əli Əliyevdir.

Filmdə 2020-ci ilin 44 günlük Vətən müharibəsinin parlaq səhifələrindən olan Xocavənd rayonunun Hadrut qəsəbəsinin düşmən işğalından azad olunması (9 oktyabr) əməliyyatından bəhs edilir. Burada "Dəmir yumruq" əməliyyatının əsas həlqəsi sayılan qəsəbənin azad olunması planının unikal formada təşkil edilməsi və uğurla həyata keçirilməsi öz əksini tapıb.

Filmdə əməliyyata qərar verilməsindən, əməliyyatın sona çatmasına qədər proseslər bütün detallarına qədər real olaraq canlandırılıb. Çəkilişlər əməliyyatın keçirildiyi məkanlarda aparılıb və məhz həmin döyüşlərdə birbaşa iştirak etmiş döyüşçülər filmdə yer alıb. Film boyu real döyüş kadrları ilə bərabər, bütün qoşun növlərinin, əsasən də xüsusi təyinatlıların aparıcı rol oynadığı hərbi proseslərdə təkrarolunmaz hərbi fəndlər, döyüş səhnələri imitasiya olunaraq lentə alınıb.





# On milyon ürəyə sığmayan sevinc

*İnsan sevinəndə ürəyi açılır, gözləri gülür.*

*Sevinc gözlə gördüyündən, ürəklə duyduğundan, qulaqla eşitdiyindən yaranır.*

*Sevinc ürəyə sığmayanda ətrafa yayılır, göylərə yüksəlir, birə-min artır!*

Otuz il ürəkdən gülməyən, yurd arzusu dərdə və qubara çevrilən Azərbaycan xalqı nəhayət ki, sevinc, şadlıq bolluğuna yetişdi.

**Bu sevinci, bu fərəhi, bu qüruru bizə yaşadan Müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir!**

* Əvvəlcə 44 günlük Vətən müharibəsində düşmən tapdağı altında qalan torpaqlarımızı işğaldan azad etdi!

* Sonra düşmənin "şah damar"ı sayılan Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qoyduraraq ərazi bütövlüyümüzü bərpa etdi!

* Ardınca 23 saatlıq lokal xarakterli antiterror tədbirləri keçirərək Azərbaycanın dövlət suverenliyini və konstitusiya əsaslarını təmin etdi!

* Ən nəhayət, Xankəndidəki separatçı yuvasını darmadağın edərək Qarabağın hər bir şəhərində dövlət bayrağını ucaltdı!

Bu gün murdar ləpirlərdən təmizlənmiş Qarabağ və Şərqi Zəngəzurda görünməmiş sürətlə bərpa və quruculuq işləri apararaq yüzlərlə ailəni doğma yurd-yuvasına qaytarır, ən müqəddəs istəyinə qovuşdurur.

**Prezident İlham Əliyevin Yeni il qabağı Azərbaycan xalqına yeni hədiyyəsi də ürəklərdə sonsuz sevinc və fərəh doğurdu!**

**Xankəndi stadionunda uzun sürən işğaldan və ayrılıqdan sonra Azərbaycanın futbol komandaları ilk görüşlərini keçirdilər!**

*Çox qısa müddətdə təmir edilərək yenidən qurulan, Azərbaycana layiq görkəm alan Xankəndi stadionu heç zaman belə sevinc selinə qərq olmamışdı!*

*Ürəklərə sığmayan sevinc üzlərə çıxır, oradan axıb stadiona dolur, daşaraq bütün Qarabağa axır, Azərbaycana sığmayaraq, dünya azərbaycanlılarına qədər gedib çatırdı!*

Görünən odur ki, biz sevinməyi də, sevindirməyi də bacarırıq!

❖ ❖ ❖

**Xankəndi stadionunda baş tutan ilk futbol oyununa görə ən çox sevinən, şübhəsiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev oldu.**

* İlham Əliyev qalib sərkərdə kimi sevinirdi!

* İlham Əliyev dövləti separatçı zir-zibilindən təmizləmiş Prezident kimi sevinirdi!

* İlham Əliyev Qarabağa Azərbaycan idmanını yenidən qaytaran Milli Olimpiya Komitəsinin Prezidenti kimi sevinirdi!

* İlham Əliyev xalqına belə fərəh və qüruru yaşatdığı üçün sevinirdi!

* İlham Əliyev bir vaxtlar separatçıların öz sərsəm xülyalarını səsləndirdikləri Xankəndi stadionuna Azərbaycan xalqının və dövlətinin qələbəsini gətirdiyi üçün sevinirdi!

❖ ❖ ❖

Daha bir tarix yaşadıq:

**Dünən "dəmir yumruğ"u ilə düşmənin başına sarsıdıcı zərbə endirən İlham Əliyev bu gün Xankəndi stadionunda futbol topuna ayağı ilə ilk zərbə vurdu!**

* Bu, Azərbaycan xalqının qələbəsinin daha bir formada nümayişi idi!

* Bu, xalqımızın hərbdən sülhə dönüşünün nümayişi idi!

* Bu, mina sahələrinin tezliklə təmizlənərək idman stadionlarına çevriləcəyinə bir işarə idi!

* Bu, Qarabağa dinc quruculuğa qayıdan Azərbaycan xalqının mahiyyət və mənəviyyatının daha bir göstəricisi idi!

❖ ❖ ❖

Bəli, biz çox dözdük, səbir etdik...

Düşmən qanmadı, ağıllanmadı.

Sonra Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə möhtəşəm ordumuzla birlikdə geriyə döndük.

Dünənədək lovğalanan, özünü "məğlubedilməz millət" adlandıran ermənilər qarşımızdan tülkü kimi qaçdılar, qorxaq və fərari millət olduqlarını göstərdilər.

*İndi isə idmanımızla geri qayıdırıq...*

*"Ağıllı" şəhər və kəndlərə, yaşayış məntəqələrinə əbədi yaşamaq üçün qayıdırıq!*

*Sabah Ağdamdakı İmarət stadionunu da yenidən tikib quracağıq.*

**Azərbaycan bayrağı dalğalanan hər bir şəhərdə və kənddə idman qurğuları, idman meydançaları tikərək gənclərimizin və yeniyetmələrimizin ixtiyarına verəcəyik.**

* Biz döyüşməyi də bacarırıq!

* Biz dünya erməniliyi simasında ən güclü düşməni məğlub etməyi də bacarırıq!

* Biz tikib-qurmağı, xarabalıqları cənnətməkan yaşayış məntəqələrinə çevirməyi də bacarırıq!

* Biz ən yüksəksəviyyəli idman yarışlarında qalib gələrək bayrağımızı ucaldıb himnimizi səsləndirməyi də bacarırıq!

**Biz müzəffər xalqıq!**

**Biz müzəffər dövlətik!**

**Bizə bu xoşbəxt və səadət dolu günləri isə Müzəffər Ali Baş Komandanımız İlham Əliyev bəxş edir!**

Hələ Qarabağda, Şərqi Zəngəzurda bizi xeyli xoşbəxt günlər, səadət müjdəli qələbələr gözləyir!

**Qoy dünya bu uğurlarımızı görsün!**

**Sevinən sevinsin, sevinməyən isə partlasın!**

**Bəxtiyar SADIQOV**

# Top da bizdədir, Topxana da...

**Ermənilər Qarabağda fitnə-fəsada Topxanada başlamışdılar. Məqsədləri heç də kol-kosu, qollu-budaqlı, kökü torpağın dərinliklərinə işləmiş, elə o torpaqların tarixi qədər yaşı olan ağacları kəsmək deyildi...**

Namərdlər, Azərbaycan xalqının səbrini, vətənə, torpağa olan münasibətini "test" edirdilər...

O zaman Azərbaycan xalqı bu imtahandan üzüağ çıxsa da, Azərbaycana rəhbərlik edənlər "sinifdə qaldılar". Adları tarixin yaddaşına, "fərasətsiz", " üzüqara", "bambılı" kimi yazıldı...

Topxanada ağaclarımızı kəsənlər, dünyanın seyrçi münasibətini görüb, əslində, elə dünyaya ağalıq etmək iddiasında olanların tapşırığı ilə Azərbaycanın qolunu, budağını kəsməyə başladılar. O vaxt da xalq elə bugünkü xalq idi... Vətənsevər, qeyrətli, torpağı uğrunda canını fəda etməyə, namusu uğrunda ölməyə hazır olan xalq... Amma rəhbəri yox idi. Liderlik eşqinə düşənlər də qətiyyətsiz, səriştəsiz, bacarıqsız idi...

Xalqa rəhbərlik edənlər xalqın əlindən ov tüfəngini də alıb onu əliyalın qoymuşdu... Millətin sayseçmə oğulları, sözün əsl mənasında, sinələrini vətənə sipər etmişdilər... 20 mindən çox vətənsevərimiz, igidimiz şəhidlik şərbətini içsə də, torpaqlarımızın nə az, nə çox - 25 faizi işğal olundu, bir milyona yaxın insanımız yurd-yuvasından didərgin düşdü, torpağımız yağmalanaraq viran edildi...

Dünya isə baxdı, susdu... Əslində, heç susmadı da... Ermənilərlə əlbir, dilbir olanlar, onların xeyrinə "vasitəçi"lik edib, işğal olunmuş torpaqlardan gözümüzü yığmağı, əlimizi çəkməyi istədilər və bunun üçün çalışırdılar.

Torpağımız əldən getdiyi kimi, dövlətimiz də, müstəqilliyimiz də, varlığımız da əldən gedirdi.

Vətən təhlükədə idi. Qardaş qardaşa silah tuşlamışdı... Bölünüb, parçalanırdıq...

O zaman idarəetmənin memarı, xalqın böyük oğlu Heydər Əliyev hakimiyyətə gəldi, xalqı parçalanmaqdan, dövləti məhv olmaqdan xilas edib işğalı durdurdu... Ömrünü xalqına, vətəninə həsr edən dahi şəxsiyyət "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək", - dedi. Xalqa yolun doğrusunu göstərib getdi...

20 il əvvəl hakimiyyətə gələn İlham Əliyev Ulu Öndər Heydər Əliyevin tamamlamadığı bütün işləri uğurla başa çatdırdı!

Heydər Əliyevin başlatdığı dövlət quruculuğunu uğurla və ləyaqətlə davam etdirdi.

Güclü iqtisadiyyat, güclü dövlət modeli yaratdı.

Ordu quruculuğuna xüsusi diqqət yetirdi. Xalqın rifahının yaxşılaşdırılması üçün təxirəsalınmaz tədbirlər gördü. Aparılan praqmatik siyasət nəticəsində müstəqilliyini yenicə əldə edən Azərbaycan qısa bir zamanda dünyada söz və nüfuz sahibinə çevrildi.

Hakimiyyətə gəldiyi ilk gündən "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin", - deyən Prezident İlham Əliyev xalqın güzəranının durmadan



yaxşılaşdırılması üçün islahatlar həyata keçirdi. Vətəndaşlar dövlətin iqtisadi gücünü yaxşılaşan sosial həyatında hiss etdi...

Görülən işlər, aparılan hüquqi islahatlar ölkədə yeni siyasi mədəniyyətin yaranmasına, fikir plüralizminin yaranmasına səbəb oldu. Siyasi demoqogiyanı tədricən siyasi mədəniyyət əvəzlədi. "Küçə demokratiyası", "siyası boşboğazlıq", "çayxana dedi-qoduları"nı, parlament müzakirələri, siyasi diskussiyalar əvəzlədi...

Hakimiyyətə gəldiyi gündən "Azərbaycan bir qarış da olsun torpağını heç kimə güzəştə gedən deyil. Torpaqlarımız sülh yolu ilə azad olmasa, hərb yolu ilə azad olacaq", - deyən cənab İlham Əliyev torpaqların sülh yolu ilə, qansız-qadasız geri qaytarılması üçün bütün imkanlardan istifadə etdi. Amma Azərbaycanın xoş məramını anlamayan düşmən və havadarları daha da azğınlaşdılar...

2020-ci ilin sentyabrında düşmənin torpaqlarımıza növbəti təcavüzü qəzəblə qarşılandı. Yumruqlar düyünləndi. Xalq qəzb, nifrət püskürdü. Ordumuz Zəfər yürüşünə çıxdı. Cəmi 44 gündə İlham Əliyevin qurduğu, yaratdığı Müzəffər Azərbaycan Ordusu döyüş tapşırığını ləyaqətlə yerinə yetirib, xalqımıza Zəfər qazandırdı.

Rəşadətli ordu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağı düşmən işğalından xilas etdi.

Hakimiyyətə gəldiyi ilk gündən regionda sülhün, sabitliyin bərpası, davamlılığı üçün çalışan İlham Əliyev Qarabağa, Qarabağın tacı Şuşaya ilk səfəri zamanı özü ilə "güllələnmiş heykəlləri" bərpa etdirərək apardı. Qarabağı dünyaya tanıdan sənətkarların ölməz ruhları Prezdentə "yoldaşlıq" etdilər.

Bir fərqə baxın. Ermənilər Qarabağı 30 ildə sökdülər, dağıtdılar. Səngərlər qazdılar, istehkamlar tikdilər. Qarabağa top, silah mərmisi daşıdılar. Bunkerlər düzəldib içində tanklarını gizlətdilər...

Azərbaycan isə yol çəkdi, işıq çəkdi... Yüksəkmərtəbəli binalar tikmək üçün Qarabağın hər yerindən görünən kranlar qurdu... Aparılan quruculuq işlərini bütün dünya gördü...

30 illik Ermənistanın işğal dövründə Qarabağdan yalnız güllə səsi, top səsi eşidildi. Azərbaycan Şuşaya Beynəlxalq "Xarıbülbül" Festivalı, "Vaqif poeziya günləri" ilə getdi. Şuşada dünyanın iqtisadi inkişafına töhfə verəcək iqtisadi forumlar keçirildi...

Ermənilərin separatizm yuvası etdikləri, böyük silah anbarına çevirdikləri Xankəndidə Azərbaycanın ilk işi idman meydançasını yenidən bərpa etmək oldu.

Dekabrın 21-də bütün dünyanın nəzərləri Xankəndiyə yönəldi. Tarixi bir gün idi. "Qarabağ" komandası ilə MOİK futbol oynayırdı. Bununla da dünya ictimayyəti Azərbaycanın istəyinin mahiyyətini gördü. Azərbaycanın bir sülh ölkəsi olduğunu dərk etdi.

Prezident İlham Əliyev yalnız Qarabağı xilas etmədi. Dünyanın uzunmüddətli münaqişə ocaqlarından birini söndürməyi, regiona sülh gətirməyi bacardı. Dünyaya qəti olaraq mesaj verdi ki, bundan sonra Qarabağda top səsi eşidilməyəcək. Qarabağda idman matçları keçiriləcək. İlham Əliyev Xankəndidə futbol matçlarını başlatmaqla siyasi oyunlarını davam etdirmək istəyənlərə "oyun bitdi", - dedi.

44 günlük Vətən müharibəsində qələbədən sonra Azərbaycanda sabitliyi pozmaq istəyən dövlətlərin yerli qulbeçələri, xaricdən yal alıb yallanan bəzi ünsürlər sosial şəbəkələrdə qazanılan böyük qələbəmizi "kiçiltmək" məqsədilə Xankəndinin, Xocalının, Xocavəndin işğaldan azad olunmadığına ehyam vurub, bu şəhərlərin kimdə olduğunu soruşurdular. Guya bunları vətən, torpaq düşündürür?

Bu gün iftixarla, qürurla deyirik ki, Qarabağ Azərbaycandır! İndi top da bizdədir, Topxana da! Bir zamanlar Xankəndinin mərkəzində "Miatsum" qışqıranlar, düşmənçilik toxumu səpənlər, indi Bakıda kameralarında oturub Xankəndidə "Qarabağ Azərbaycandır!" deyənlərə tamaşa edirlər. Bunu xalqa dediyini edən, etdiyini isə heç vaxt "bunu mən etmişəm" deməyən, Xankəndiyə futbol matçına baxmağa şəhid övaldları ilə gedən cənab İlham Əliyev bəxş edib.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Siyasi partiyaların və siyasi partiyalar bloklarının seçkilərdə iştirakının əsasları

**Seçki təcrübəsi göstərir ki, siyasi partiyaların seçkilərdə iştirak fəallığı, onların ictimai-siyasi proseslərə təsir imkanları ildən-ilə artmaqdadır. Bu, bir sıra amillərlə yanaşı, ilk növbədə siyasi partiyaların inkişafı, ictimai-siyasi proseslərə yaxından cəlb olunması üçün ölkədə onlara yaradılmış əlverişli mühitlə bağlıdır. Eyni zamanda mövcud qanunvericilik seçkilər zamanı siyasi partiyaların öz məqsəd və məramına uyğun olaraq bloklarda birləşmək, vahid platforma ilə çıxış etmək, namizədlər irəli sürmək imkanlarını da tanıyır.**



Seçki prosesinin iştirakçılarından biri kimi siyasi partiyalar blokunun yaradılma qaydası, fəaliyyət prinsipləri və digər mühüm məqamlar Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəqiq və aydın şəkildə öz əksini tapıb. Qanunvericilikdə belə müəyyən olunub ki, siyasi partiyaların blokunu azı iki siyasi partiya yarada bilər və siyasi partiya blokun tərkibinə daxildirsə, seçkilərin keçirildiyi dövrdə müstəqil partiya kimi çıxış edə və ya digər bloka daxil ola bilməz. Siyasi partiyaların blokuna daxil olmaq barədə qərar isə bloka daxil olan hər bir siyasi partiyanın nizamnaməsinə uyğun qəbul edilməlidir. Yalnız yuxarıda qeyd edilən müvafiq qərar qəbul edildikdən sonra siyasi partiyaların səlahiyyətli nümayəndələri blokun yaradılması barədə birgə qərar imzalayırlar.

Siyasi partiyalar blokunun qeydə alınması üçünsə blokun səlahiyyətli nümayəndəsi Mərkəzi Seçki Komissiyasına (MSK) bir sıra sənədlər təqdim etməlidir. Bunlar bloka daxil olan siyasi partiyaların nizamnamələrinin notariat qaydasında təsdiq edilmiş surətləri, siyasi partiyaların bloka daxil olmaq haqqında qərarları, blokun yaradılması haqqında siyasi partiyaların səlahiyyətli nümayəndələri tərəfindən imzalanmış və həmin partiyaların möhürləri ilə təsdiqlənmiş birgə qərardır. Sözügedən sənədlər düzgün rəsmiləşdirildikdə, Seçki Məcəlləsinin tələblərinə uyğun gəldikdə MSK 5 gün müddətində siyasi partiyaların blokunu qeydə almalıdır. Əks təqdirdə, MSK siyasi partiyalar blokunun qeydə alınmasından imtina edə bilər. Lakin siyasi partiyaların blokunun qeydə alınması rəsmiləşdikdən sonra onun tərkibinə hər hansı digər siyasi partiya daxil edilə bilməz.

Siyasi partiyalar blokunun adı və emblemi ilə bağlı seçki qanunvericiliyində müəyyən tələblər var. Siyasi partiyalar blokunun adı bloka daxil olmuş partiyaların nümayəndələrinin birgə iclasında müəyyənləşdirilməlidir. Blokun adlandırılmasında həmin bloka daxil olmayan (seçkilərdə iştirak edib-etməməsindən asılı olmayaraq) və əvvəllər seçkilərdə iştirak etmiş digər siyasi partiyaların adlarından istifadə edilə bilməz. Əgər yeni qeydə alınmış siyasi partiyalar blokuna əvvəlki seçkilərdə həmin bloku yaratmış siyasi partiyaların yarısından çoxu daxil deyildirsə, yeni yaradılan bloka əvvəlki siyasi partiyalar blokunun adı verilə bilməz. Siyasi partiyaların bloku fiziki şəxsin adından və ya soyadından yalnız həmin şəxsin yazılı razılığı əsasında istifadə edə bilər. Bütün bu sadalanan tələblərlə yanaşı, siyasi partiyaların bloku özünün tam və qısa adı barədə MSK-ya məlumat təqdim etməlidir.

Siyasi partiyaların bloku öz emblemini rəsmən təsdiq olunmaq üçün MSK-ya təqdim edə bilər. Bu zaman siyasi partiyaların bloku onun tərkibindəki hər hansı siyasi partiyanın qeydə alınmış emblemi, yaxud digər siyasi partiyalar və siyasi partiyalar bloklarının indiki və əvvəlki seçkilərdə istifadə etdikləri emblemlər istisna olmaqla, istənilən emblemi təqdim edə bilər. Bir şərtlə ki, siyasi partiyalar blokunun rəmzləri əqli mülkiyyət hüquqlarını, əmtəə nişanlarına olan hüquqları pozmasın, Azərbaycan Respublikasının və digər ölkələrin dövlət rəmzlərinə, dini rəmzlərə toxunmasın, ümumən qəbul edilmiş əxlaq normalarını pozmasın. Seçki kampaniyası dövründə siyasi partiyalar blokunun adının və embleminin dəyişdirilməməsi şərti ilə blokun beş sözdən çox olmayan adından, habelə emblemindən seçki sənədlərində istifadə edilməsi MSK ilə razılaşdırılmalıdır.

Siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələri, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr müvafiq olaraq siyasi partiyanın, bloka daxil olan siyasi partiyaların və ya siyasi partiyaların nümayəndələrinin birgə iclasının qərarı, yaxud onların qurultayı, konfransı və ya rəhbər orqanın iclasının qərarı ilə təyin edilirlər. Siyasi partiyaların, siyasi partiyalar blokunun səlahiyyətli orqanının qərarı ilə yazılı formada xəbərdar etməklə nümayəndənin səlahiyyətlərinə xitam verilə bilər. Bu barədə qəbul edilmiş qərarın surəti MSK-ya və dairə seçki komissiyalarına göndərilməlidir. Siyasi partiyaların, siyasi partiyalar bloklarının dövlət və ya bələdiyyə vəzifələrində çalışan səlahiyyətli nümayəndələri özlərinin vəzifə və ya xidməti mövqelərindən seçkilərin gedişi zamanı istifadə edə bilməzlər. Siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin səlahiyyət müddəti onların təyin edildiyi vaxtdan başlanır və seçkilərin ümumi nəticələrinin rəsmi dərc edilməsi günündən gec olmayaraq bütün namizədlərin, habelə siyasi partiyaların, siyasi partiyalar bloklarının irəli sürdükləri siyahı üzrə namizədlərin statusunun itirilməsi vaxtı başa çatır.

Siyasi partiyaların və siyasi partiyalar bloklarının seçkilərdə iştirakı bir sıra ümumi və xüsusi şərtlərlə səciyyələnir.

Qanunvericiliyin tələbinə görə, seçkilərdə iştirak edənlər öncə mətbuat azadlığına hörmət etməlidirlər. Yəni seçki prosesində iştirak edərkən öz peşə fəaliyyəti ilə məşğul olan media nümayəndələrinin işinə mane olmamalıdır. Eləcə də namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq tələb olunur. Ümumi prinsiplər sırasında seçkiqabağı təşviqat materiallarını məhv etməmək və korlamamaq, onların yayılmasına, kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq mühüm şərtlərdəndir.

Seçkilərdə iştirak edərkən siyasi partiyalar və siyasi partiyaların blokları seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları və seçki subyektləri ilə əməkdaşlıq etmək kimi vacib qaydalara da riayət etməlidirlər. Bununla belə, seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək, səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək lazımdır.

Seçki prosesində riayət olunmalı əsas şərtlərdən biri səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək, seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək, seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamaqdır.

Seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etməklə bərabər hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq, seçicilərə mükafat təklif etməmək, onları cəza ilə hədələməmək hər bir seçki subyektinin əməl etməli olduğu məsələlərdəndir.

Seçki Məcəlləsinin tələblərindən biri də dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan bu Məcəllə ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək, təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək, seçiciləri öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya geri götürməməyə, seçkiqabağı təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməməkdir. Qanunvericiliyin başqa bir şərti isə heç bir vəzifəli şəxsin namizədin dəstəklənməsinə və ya dəstəklənməməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək barədədir. Yuxarıda sadalanan prinsipial məqamlara əməl olunmaması isə Seçki Məcəlləsinin tələblərinin pozulması səbəbindən Azərbaycan Respublikası Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində göstərilən müvafiq məsuliyyət yarada bilər.

Seçki Məcəlləsinin 2.6-cı maddəsində göstərilənlərlə yanaşı, siyasi partiyaların və siyasi partiyalar bloklarının seçkilərdə iştirakının əsaslarına həsr olunmuş doqquzuncu fəsilində isə daha konkret şərtlər yer alır ki, bunlara da riayət edilməsi vacibdir. Qanunvericiliyin tələbinə görə, digər siyasi partiyanın və ya siyasi partiyalar blokunun seçki kampaniyası zamanı öz siyasi ideyalarını və baxışlarını azad və sərbəst yaymaq hüququna, o cümlədən seçicilərin və ictimai təşkilatların hüquqlarına hörmət bəsləmək lazımdır. Bundan əlavə, seçicilərlə azad ünsiyyətin yaradılması üçün digər siyasi partiyalara və onların bloklarına mane olmamaq, siyasi fəaliyyətdə iştirak etmək istəyən seçicilərə həmin fəaliyyətin azad və sərbəst həyata keçirilməsi üçün təminatlar yaratmaq da mühüm şərtlərdəndir.

Seçki Məcəlləsinin 54-cü maddəsi namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsinin ümumi prinsiplərini müəyyən edir. Həmin maddənin tələblərinə əsasən namizədin irəli sürülməsi haqqında qərarı siyasi partiya öz nizamnaməsinə uyğun olaraq qəbul edir. Belə qərar kollegial qaydada səsvermə yolu ilə qəbul edilməlidir. Bununla belə, siyasi partiyaların bloku tərəfindən irəli sürülən namizəd bloka daxil olan hər bir siyasi partiya tərəfindən təsdiq edilməli, siyasi partiyaların blokları tərəfindən namizədin irəli sürülməsi haqqında qərar isə siyasi partiyaların nümayəndələrinin iclasında (qurultayında, konfransında, rəhbər orqanının iclasında) qəbul edilir. Siyasi partiyaların bu səlahiyyətli nümayəndələri partiyaların qurultayında (konfransında, rəhbər orqanının iclasında) müəyyənləşdirilir.

Namizədin irəli sürülməsi barədə siyasi partiyanın, siyasi partiyalar blokunun qərarı protokolla rəsmiləşdirilməlidir və həmin protokolda iclasda (qurultayda, konfransda, rəhbər orqanın iclasında) iştirak etmiş iştirakçıların sayı, siyasi partiyalar blokunun yaradılması haqqında sazişdə nəzərdə tutulan qərarın qəbul edilməsi üçün lazım olan iştirakçıların sayı, namizədin irəli sürülməsi barədə qərar və bu qərar üzrə səsvermənin nəticələri və qərarın qəbul edilməsi tarixi göstərilməlidir. Onu da qeyd edək ki, siyasi partiya, siyasi partiyaların bloku bu bloka daxil olan partiyaların üzvü olmayan şəxsləri də namizəd kimi irəli sürə bilərlər.

Siyasi partiyanın səlahiyyətli nümayəndəsi namizədin adı ilə birlikdə MSK-ya siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiqlənmiş surətini, siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surətini, namizədin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı və müvafiq iclasın protokolunu, siyasi partiyanın səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş vəkalətnamələrini də təqdim etməlidirdir.

Siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi isə namizədin adı ilə birlikdə MSK-ya siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanının iclasının) namizəd irəli sürmək barədə qərarları ilə birlikdə müvafiq iclaslarının protokollarını, siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların nümayəndələrinin iclasının (qurultayının, konfransının) siyasi partiyaların bloku adından namizəd irəli sürülməsi haqqında qərarını və müvafiq iclasın protokolunu, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin notariat qaydasında rəsmiləşdirilmiş vəkalətnamələrini təqdim etməlidirlər.

Siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi yuxarıda qeyd olunan sənədlərlə birlikdə namizədin seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam veriləcəyi barədə öhdəliyi də göstərilməklə, namizədliyinin irəli sürülməsinə razılıq verməsi barədə ərizəsini də təqdim edir. Bu ərizədə namizədin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri, o cümlədən tutduğu vəzifə (bu olmadıqda - fəaliyyət növü), namizədin arzusu ilə siyasi partiyaya mənsubluğu göstərilir. Namizədlərin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, ərizədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi, namizədin xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa, xarici ölkənin qanununun adı göstərilməlidir. Ərizədə namizədin vətəndaşlığı və ya xarici ölkə vətəndaşlığına mənsubluğu, başqa dövlətlər qarşısında öhdəliyin olub-olmaması haqqında məlumatlar daxil edilir. MSK təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır, irəli sürülmüş vətəndaşın namizədliyinin təsdiq olunub-olunmaması barədə əsaslandırılmış qərar qəbul edir və siyasi partiyanın, siyasi partiya blokunun səlahiyyətli nümayəndəsinə bu barədə məlumat verir. Bununla belə, müvafiq seçki komissiyası təqdim olunmuş sənədlərin qəbul edilməsindən imtina edə bilməz.

Namizədliyin təsdiq edilməsindən imtina edilməsi üçün əsas yalnız tələb olunan sənədlərin lazımi qaydada rəsmiləşdirilməməsi və ya namizədliyin irəli sürülməsi qaydasının pozulması ola bilər. Səhvlər və pozuntular müvafiq sənədlərdə siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi tərəfindən düzəlişlər edilməsi yolu ilə aradan götürülə bilərsə, MSK namizədi bu haqda xəbərdar edir, müvafiq düzəlişlər edildikdən sonra namizədliyin irəli sürülməsi təsdiqlənir.

Siyasi partiya, siyasi partiyaların bloku və yaxud seçicilərin təşəbbüs qrupları prezidentliyə irəli sürdükləri namizədin müdafiəsi üçün 40 mindən az olmayan sayda seçici imzası toplamalıdırlar. Bu zaman 60-dan az olmayan seçki dairəsinin hər birinin ərazisindən azı 50 imza toplanmalıdır. Siyasi partiya və siyasi partiyaların bloku tərəfindən irəli sürülən namizədin qeydiyyatı üçün imza vərəqələri və digər seçki sənədləri MSK-ya təqdim olunduqdan sonra onlara 7 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

Siyasi partiya öz nizamnaməsinə uyğun olaraq, siyasi partiyaların bloku isə ona daxil olan siyasi partiyaların səlahiyyətli nümayəndələrinin qərarı ilə səsvermə gününə azı 10 gün qalanadək istənilən vaxt müvafiq seçki komissiyasına yazılı ərizə verərək prezidentliyə qeydə alınmış namizədi geri çağırmaq hüququna malikdir.

Qanunvericilik imkan verir ki, prezidentliyə qeydə alınmış namizədlər siyasi partiya, siyasi partiyaların bloku səsvermə gününə azı 10 gün qalmış müvafiq seçki komissiyasına yazılı ərizə verməklə, namizədləri irəli sürmüş orqanın qərarı ilə seçkilərdə iştirak etməkdən imtina edə bilər. Bu halda siyasi partiya, siyasi partiyaların bloku bələdiyyə üzvlüyünə namizədləri geri çağıra bilər.

Prezidentliyə namizəd və ya onun səlahiyyətli nümayəndəsi MSK-ya bildiriş təqdim etdikdən və ya siyasi partiya, siyasi partiyaların bloku tərəfindən irəli sürülməsi haqqında müvafiq qərarı təqdim etdikdən sonra, lakin namizədlərin qeydə alınmaq üçün Komissiyaya təqdim edilməsi gününə azı 5 gün qalmış seçki fondunu formalaşdırmaqdan ötrü xüsusi seçki hesabı açmalıdırlar. Prezidentliyə namizəd səlahiyyətli nümayəndəsinə özünün xüsusi seçki hesabının açılmasını tapşıra bilər. Prezidentliyə namizəd, qeydə alınmış prezidentliyə namizəd MSK-ya yazılı məlumat verməklə, başqa şəxsə özünün seçki hesabında olan vəsaitdən istifadə etmək hüququ verə bilər və bu halda qanun pozuntularına görə məsuliyyəti həmin şəxs daşıyır.

Onu da qeyd edək ki, prezidentliyə namizədin seçki fondu məbləğinin yuxarı həddi 10 milyon manatdan çox ola bilməz. Bu da prezidentliyə namizədlərin 250 min manatdan çox olmamaq şərti ilə, xüsusi vəsaiti (siyasi partiyalar, siyasi partiyaların bloku tərəfindən irəli sürülən prezidentliyə namizədlər üçün bu xüsusi vəsait siyasi partiyaların, siyasi partiyaların blokunu yaratmış siyasi partiyaların verdiyi vəsaitlər hesabına formalaşır) və vətəndaşların və hüquqi şəxslərin könüllü ianələri hesabına toplanır. Könüllü ianələrin həddi vətəndaş üçün 3000, hüquqi şəxs üçün 50 min manatdan çox ola bilməz.

Beləliklə, bu qənaətə gəlmək olar ki, seçki qanunvericiliyinin verdiyi geniş imkanlar siyasi partiyalar və siyasi partiyalar bloklarının seçkilərdə fəal iştirak etməsinə tam şərait yaradır.

*Mikayıl RƏHİMOV,*
*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi*

---

**7 FEVRAL AZƏRBAYCANDA NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR**

# İlham Əliyevə etimad sonsuzdur

**Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq bütün ölkə ərazisində keçiriləcək prezident seçkilərinə iki aydan az vaxt qalır. Bir sıra siyasi partiyalar, eləcə də hakim Yeni Azərbaycan Partiyası öz namizədini irəli sürüb. Prezident İlham Əliyev isə təkcə hakim partiyanın deyil, bütün Azərbaycan xalqının və dünya azərbaycanlılarının vahid namizədidir. Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri xalqın İlham Əliyevə olan etimadının növbəti sübutu olacaq.**



Bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Rüfət Quliyev deyib ki, İlham Əliyevin prezidentliyə namizəd olması xalqın istəyidir: "Ona görə ki, artıq 20 ildən çoxdur ki, Azərbaycanın bütün uğurları İlham Əliyev şəxsiyyəti ilə bağlıdır. Prezident İlham Əliyev ölkəmizdə iqtisadi dayanıqlılığı təmin etdi, regionun ən güclü ordusunu qurdu, vətəndaşların sosial rifah halını hər ötən il daha da yaxşılaşdırdı və ən əsası Qarabağı və Şərqi Zəngəzuru azadlığına qovuşdurdu, suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdi. Azərbaycan xalqı bu qələbələrə məhz Prezidentin uğurlu hərbi-siyasi gedişləri hesabına nail oldu. Ona görə də xalqın Prezidenti olmaq cənab İlham Əliyevin halal haqqıdır. Bu, təkcə Azərbaycanda yaşayan 10 milyonluq əhalinin deyil, dünya azərbaycanlılarının təbii istəyidir".

Deputat vurğulayıb ki, İlham Əliyev siyasəti möhkəm təməl üzərində dayanır: "Hər kəsə məlumdur ki, bu siyasətin alternativi yoxdur. Prezident İlham Əliyev istər İkinci Qarabağ müharibəsində, istərsə də 23 saatlıq antiterror tədbirləri zamanı bunu bir daha sübut edib. Bu qələbələrdən sonra regionda yeni tarixi reallıq yaranıb. Ərazi bütövlüyümüzün və suverenliyimizin 100 faiz təmin edilməsi reallığı imkan verir ki, prezident seçkiləri müstəqillik tariximizdə ilk dəfə bütün Azərbaycan ərazisində keçirilsin.

Rüfət Quliyev söyləyib ki, dünya dövlətlərində növbədənkənar prezident seçkilərinin keçirilməsi təcrübəsi var. Xüsusilə bu il həyata keçirilən antiterror tədbirləri nəticəsində regionda yaranan yeni reallıq ölkəmizdə də prezident seçkilərinin daha tez keçirilməsini zəruri edib.

Deputat vurğulayıb ki, bu gün bütün Azərbaycan xalqı ölkəmizin nüfuzunu qlobal aləmdə yüksəldən, bu gününü və sabahını işıqlandıran cənab İlham Əliyevin yanındadır. Zəfər seçkisində bizə zəfər sevincini yaşadan İlham Əliyevi dəstəkləmək xalqımızın ürəyindən gələn istəkdir. Bu seçkilər də əvvəlkilər kimi Azərbaycanın başını uca, alnını açıq edəcək. Çünki Müzəffər Prezident İlham Əliyev xalqın tək seçimidir. Bunu əminliklə demək olar: xalqın seçimi çoxdan bəllidir.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

---

# Yeni reallıqlar seçkilərin keçirilməsi zərurətini yaradıb

**2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkiləri keçiriləcək. YAP Sədri İlham Əliyevin namizədliyi partiya tərəfindən irəli sürülüb. Bu qərar həm də xalqın arzu və istəyinin ifadəsidir.**



Zəfər seçkiləri kimi qiymətləndirilən növbədənkənar prezident seçkiləri ilk dəfə olaraq, suverenliyini və ərazi bütövlüyünü tam təmin etmiş respublikamızın bütün ərazisində keçiriləcək. Bu dəfə seçicilər həm də qalib xalqın nümayəndələri kimi səs verəcəklər.

Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Emin Hacıyev bildirib ki, növbədənkənar seçkilərin keçirilməsi bütün dünyada qəbul olunmuş siyasi təcrübədir: "Yəni Konstitusiyaya uyğun olaraq hər bir ölkədə təsadüf olunan prosesdir. Belə ki, seçkilər bəzi hallarda təxirə salındığı kimi, bəzən də vaxtından əvvəl keçirilir. Seçkilər növbədənkənar keçirildiyindən vətəndaşlarımız öz siyasi iradələrini sadəcə olaraq vaxtından əvvəl ifadə edirlər".

Hazırda mürəkkəb proseslərin baş verdiyi beynəlxalq siyasi şəraitdə yaşadığımızı qeyd edən deputat deyib ki, regionda tam müstəqil bir ölkənin olmasını və Azərbaycanın qələbəsini həzm edə bilməyən dövlətlərin təxribatlarının, ölkəmizdə ictimai-siyasi vəziyyəti gərginləşdirmə cəhdlərinin qarşısını almaq üçün siyasi sistemin gücləndirilməsi strateji əhəmiyyət kəsb edir.

E.Hacıyev vurğulayıb ki, torpaqlarımızın işğaldan azad edilməsi və separatçılığa son qoyulması ilə regionda yeni reallıq yaranıb. "Mövcud reallıqların fonunda yeni tarixi dövrə qədəm qoyan Azərbaycanda növbədənkənar prezident seçkilərinin keçirilməsinə zərurət yaranıb. Ona görə də hesab edirəm ki, bu seçkilərin təyin olunması islahatların davamı və ölkəmizdə yeni inkişaf strategiyasının müəyyənləşdirilməsi baxımından vaxtında verilmiş düzgün qərardır", - deyə o əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***




# COP29 Bakını növbəti dəfə dünyanın mərkəzinə çevirəcək

**Gələn il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanda keçiriləcək. İqtisadi və siyasi cəhətdən mühüm əhəmiyyət kəsb edən bu tədbirə Bakının evsahibliyi etməsi tarixi hadisə olacaq. COP29-un ölkəmizdə keçirilməsinə nail olmağımız Prezident İlham Əliyevin 20 il ərzində həyata keçirdiyi islahatlar, hərbi-siyasi uğurlar və möhkəm təməllərə dayanan siyasi iradənin sayəsində mümkün olub.**



Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ölkədə turizm sektorunun daha da gəlişməsindən tutmuş, rəqəmsal infrastrukturun təkmilləşdirilməsinədək çox sahələrə müsbət təsir göstərəcək.

Qərbdəki bəlli qrupların Azərbaycanı təcrid vəziyyətində saxlamaq və keçmiş "Artsax"ı gələcək Kosovaya çevirmək üçün məkrli planlar qurduqları bir vaxtda dövlət başçısının da vurğuladığı kimi, ölkələrin təmsilçiliyi baxımından BMT Baş Assambleyasından geri qalmayan belə möhtəşəm tədbirin Azərbaycanda keçirilməsi dünyanın beşdən böyük olduğunun, beynəlxalq birliyin sərhədlərinin isə 30-40 ölkə ilə məhdudlaşmadığının növbəti sübutudur. Ona görə növbəti olduğunu deyirəm ki, Azərbaycan böyük güclərin təhdidlərinə rəğmən BMT Təhlükəsizlik Şurasının qətnaməsini özü təkbaşına reallaşdırmaqla presedent yaradaraq bunu nümayiş etdirib.

Deputat xatırladıb ki, Ermənistanın bu məsələdə Azərbaycanı dəstəkləməsi təkcə ikitərəfli əlaqələrin normallaşmasına yol açmaq baxımından önəmli deyil. Azərbaycan bununla Ermənistana dəstək adı altında ölkəmizə qarşı düşmənçilik siyasəti yeridən Fransa kimi yırtıcıları da fakt qarşısında qoydu. Göstərdi ki, hazırda geosiyasi qarşıdurma obyekti kimi baxılan bu region gələcəkdə subyekt kimi çıxış edə bilər.

Sahib Alıyev həmçinin COP29-un iştirakçı sayına və statusuna görə də əlamətdar konfranslardan olduğunu söyləyib. Deputat deyib ki, bu tədbirdə təxminən 70 min və daha çox insanın iştirak edəcəyi gözlənilir. Təkcə bu fakt da COP29-un beynəlxalq əhəmiyyətini sübuta yetirir. Konfransla bağlı keçirilən müşavirədə Prezident İlham Əliyev COP29-un dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olduğunu vurğulayıb. Deputat yekunda qeyd edib ki, bu tədbir nüfuzu günbəgün artan Azərbaycanın növbəti qlobal uğuru olacaq.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***



# COP29 ölkəmizin və xalqımızın növbəti uğuru olacaq

**Son illər bir çox beynəlxalq tədbir evsahibliyi edən Azərbaycanda gələn il daha bir əhəmiyyətli tədbirin - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının keçirilməsi nəzərdə tutulub. Siyasi analitiklərin və ekspertlərin fikrincə bu, Prezident İlham Əliyevin növbəti qələbəsidir. Dövlətimizin başçısı qlobal iqlim dəyişikliyi ilə bağlı məsələlərə ciddi yanaşır, karbon emissiyalarının mümkün qədər azaldılması ilə əlaqədar strateji planları mövcuddur. "Yaşıl enerji" ilə bağlı ölkədə bir sıra böyük layihələrin həyata keçirilməsi buna bariz nümunədir.**

COP29-un Azərbaycanda keçirilməsi istər iqtisadi, istər qlobal siyasi baxımdan çox əhəmiyyətlidir. COP (Conferen ce of the Parties; Tərəflərin Konfransı) 1995-ci ilin mart ayında Almaniyanın Berlin şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası üzərində ali qərarların verilməsi üçün yaradılmış qurumdur. COP-un missiyası konvensiyadan irəli gələn tələblərin, tövsiyələrin icrasına nəzarət etməkdir. Bu tələblər əsasən qlobal istiləşmə tempini səngitmək, qlobal istiləşməyə məruz qalan ərazilərin adaptasiyasına dəstək olmaq və 2050-ci ilə qədər sıfır emissiyaya nail olmaqdır. Hər il keçirilən konfransa (COP) rəhbərlik və evsahibliyi BMT-nin 5 regional qrupunu (Afrika, Asiya, Latın Amerikası və Karib ölkələri, Mərkəzi və Şərqi Avropa, Qərbi Avropa və digər ölkələri) təmsil edən 198 ölkənin səsverməsi ilə seçilir.

COP29 2024-cü il 11-24 noyabr tarixlərdə Bakı şəhərində keçiriləcək. Təxminən 70-80 min xarici qonaq bu müddətdə ölkəmizdə olacaq. Nəzərə alsaq ki, Avropa Oyunlarında ölkəmiz 8 min nəfərə yaxın qonaq qəbul etmişdir, bu zaman COP29 ölkə tarixində keçiriləcək ən böyük tədbir hesab olunur. Azərbaycanın belə bir mötəbər tədbirə evsahibliyi etməsi ölkəmizə yerli, regional və beynəlxalq miqyasda böyük gəlir və nüfuz qazandıracaq.

Müşahidələrdən və müqayisələrdən görünür ki, Azərbaycan son illərin ən uğurlu daxili və xarici siyasətini həyata keçirən, bununla da özünün milli maraqlarını qorumaqla regiona töhfə verən, bölgənin iqlim, daxili təhlükəsizlik, iqtisadi və siyasi imkanlarını genişləndirən ölkədir. Bu reallıqlar Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində yaranıb.

Ötən əsrin 50-ci illərindən başlayaraq bütün dünya iqlim dəyişikliyi riskləri üzərində işləyir. 90-cı illərdən etibarən həyəcan təbili çalınır. Mütəxəssislərin fikrincə, iqlim dəyişikliyinə mənfi təsir göstərən ölkələr inkişaf etmiş ölkələrdir. Çünki sənayenin sürətli inkişafı çirklənmə probleminin yaranmasına yol açır. Hazırda 4-cü Sənaye İnqilabında yaşadığımız bu dünyada ikinci sənaye inqilabından, daha dəqiq desək, elektrik enerjisinin kəşf olunmasından etibarən hava çirklənməsi və iqlim dəyişikliyi məsələləri yaranmağa başlayıb. İnkişaf etmiş ölkələr sənaye inqilablarının mərkəzində yerləşdiyindən dünya üçün bu problemləri də ən çox həmin ölkələr yaradırlar. İnkişaf etməkdə olan ölkələr isə buna daha az səbəb olurlar.

Azərbaycan "yaşıl enerji" və digər əhəmiyyətli layihələr əsasında bu məsələlərə töhfələr verir.

İnkişaf etmiş ölkə kimi tanınan Fransa ekoloji cinayətlərin ən böyük iştirakçılarından biridir. İri iqtisadi maqnatlar tərəfindən mütəmadi olaraq ekoloji çirklənməyə yol verən bu ölkə, hətta bir dəfə də COP-a evsahibliyi edib. Lakin bu, böyük uğursuzluqla nəticələnib. 2015-ci ildə baş tutan bu tədbirdən əvvəl yerli əhali Paris küçələrində qonaqlar və dövlət başçıları üçün müəyyən etiraz aksiyaları keçirmiş, bunun nəticəsində iştirakçılar tərəfindən Fransanın bu konfransa evsahibliyi məsələsi sorğu-sual edilmişdir. Yekun qərarda Fransanın təşkilatçılığı çox zəif qiymətləndirilmiş və həmin dövrdən bəri bir daha Parisə bu konfransa evsahibliyi hüququ verilməmişdir.

Bütün bunların fonunda Paris meri Ann İdalqonun Azərbaycanın COP-a evsahibliyi etməsinə etirazı riyakarlıqdan başqa bir şey deyil. Sözsüz ki, illərdir erməni lobbisinin əlində oyuncağa çevrilmiş xanım İdalqonun anti-Azərbaycan bəyanatları mahiyyət daşımır. İqtisadi-siyasi böhran, etiraz dalğaları, həmçinin ekoloji çirklənmədə boğulan Fransanın tutduğu mövqe vəziyyətdən çıxış yolu deyil. İştirakçı ölkələr artıq yekdilliklə Azərbaycanı dəstəkləyiblər.

Bu da həqiqətdir ki, təxribatçı qüvvələr qarayaxma kampaniyalarına başlamaq üçün "yaşıl enerji" layihəsi ilə təkcə regiona deyil, həm də dünyaya böyük töhfə verən ölkəmizi neft sektoru vasitəsilə hədəfə almağa cəhd edirlər. Lakin bu təxribatlar da uğursuz qalacaq. Çünki Azərbaycan neft emalı sahəsində də bütün ekoloji qaydalara əməl edir. Azərbaycan Respublikasının qoşulduğu təbiətdən istifadə və ətraf mühitin mühafizəsi üzrə konvensiyalar, sazişlər, müqavilələr milli ekoloji qanunvericiliyin ayrılmaz hissəsi hesab olunur. Xəzər dənizinin ölkəmiz, digər Xəzəryanı ölkələr və bəşəriyyət üçün əhəmiyyətini, onun ekosistemlərinin həssas və dayanıqlı olmasını, bütün sahilyanı ölkələrin dənizdə getdikcə artan fəaliyyətlərinin (neft-qaz yataqlarının istismarı, dənizdə gəmi və boru kəmərləri daşımaları və s.) aktivləşməsini nəzərə alaraq Azərbaycan Respublikası Dövlət Neft Şirkəti öz ekoloji siyasətində Xəzər dənizinin gələcək nəsillər üçün qorunub saxlanılmasını prioritet vəzifə hesab edir. Xəzər dənizində fəaliyyət göstərən beynəlxalq konsorsiumun neft çıxardığı Azəri-Çıraq-Günəşli yataqları, dəniz boru kəmərləri sistemi və Səngəçal terminalı üçün "Neft dağılmaları üzrə fəaliyyət Planları"na uyğun real texniki sistem formalaşdırılıb. Neft dağılmalarının qarşısının alınması, ballast sularının və başqa tullantıların yığılması məqsədilə Xəzər dənizində fəaliyyət göstərən Rusiya, Qazaxıstan, Türkmənistan şirkətləri də müvafiq planlara və tədbirlər sistemlərinə malikdirlər. Bu baxımdan, araqarışdıranların növbəti təxribatları da baş tutmayacaq.

Cari il dekabrın ikinci ongünlüyündə COP28-in Dubayda baş tutan sessiyasında COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyev Bakıdakı çıxışına bu sözlərlə yekun vurmuşdur: "Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

Görünən odur ki, Ulu Öndər Heydər Əliyevin uğurlu siyasəti Prezident İlham Əliyev tərəfindən layiqli formada davam etdirilir, qətiyyətlə Azərbaycan modelini dünyada gündəmə gətirir. Uğurlu siyasət ölkəmizin beynəlxalq arenada nüfuzunun gündəngünə artmasına səbəb olur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Səfir: "Azərbaycan COP29-u yüksək səviyyədə keçirmək əzmindədir"

**Azərbaycan Respublikasının İsveç Krallığındakı səfiri Zaur Əhmədov bu ölkənin "Diplomaticworld Sweden" portalına müsahibə verib.**

AZƏRTAC xəbər verir ki, səfir müsahibəsində 2024-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcək və Avropa ilə Asiyanın qovşağında körpü rolunu oynayan Azərbaycanın bu mötəbər beynəlxalq tədbiri yüksək səviyyədə keçirmək əzmində olduğunu bildirib.




Müsahibədə Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş COP29-a ilk hazırlıq iclası haqqında məlumat verilib, Azərbaycanın müstəqil siyasətinin, beynəlxalq hüququn normalarına hörmətinin beynəlxalq müstəvidə daim təşviq olunduğu vurğulanıb. Ölkəmizin, eyni zamanda, Beynəlxalq Astronavtika Konqresi də daxil olmaqla, indiyədək bir çox vacib beynəlxalq tədbirə yüksək səviyyədə və uğurla evsahibliyi etməsinin beynəlxalq ictimaiyyətin ölkəmizə böyük etimadını şərtləndirən amillər sırasında olduğu diqqətə çatdırılıb.

Habelə neft və qazla zəngin Azərbaycanın 2030-cu ilədək enerjisinin 30 faizini bərpaolunan mənbələrdən əldə etmək məqsədinə çatmasını təmin edəcək "yaşıl enerji" təşəbbüsləri və "yaşıl enerji"yə keçidlə bağlı atdığı addımlar barədə məlumat verilib.

Diplomat COP29-un Bakıda keçirilməsi barədə qərarın ikitərəfli danışıqlar nəticəsində normallaşma istiqamətində Azərbaycan və Ermənistanın birgə atdığı addımlar fonunda baş tutduğuna diqqət çəkərək, iqlim dəyişikliyi probleminin beynəlxalq səylərlə vaxtında həlli üçün regional tərəfdaşlığın və davamlı sülhün vacibliyini vurğulayıb.

# Naxçıvan Muxtar Respublikası FHN-in fəaliyyəti ilə bağlı məsələlər müzakirə olunub





**Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyində müşavirə keçirilib.**

Bu barədə AZƏRTAC-a Fövqəladə Hallar Nazirliyindən (FHN) məlumat verilib.

Fövqəladə hallar nazirinin müavini Tapdıq Əmiraslanov, Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri general-mayor Şahin Mirzəyev və FHN-in müvafiq struktur bölmə və qurumlarının rəhbərlərinin iştirak etdiyi müşavirədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin fəaliyyəti ilə bağlı məsələlər müzakirə olunub, məruzələr dinlənilib.

Müşavirədə yekun nitqi ilə çıxış edən nazir Kəmaləddin Heydərov Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində həlli zəruri məsələləri qeyd edib, müvafiq tapşırıqlar verib.

# Baş Prokurorluq tərəfindən Abşeronda konfrans keçirilib



**Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, dekabrın 22-də Abşeronda "Heydər Əliyev və müasir dövlət quruculuğu" adlı işgüzar konfrans keçirilib.**

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Abşeron rayonunun mərkəzində ucaldılmış abidəsini ziyarət ediblər.

İştirakçılar Abşeron rayon Heydər Əliyev Mərkəzinin Muzey hissəsində Ulu Öndərin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini özündə əks etdirən eksponat və fotostendlər ilə tanış olublar.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən birdəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Tural Aslanov müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dahi lider Heydər Əliyevin mövcud iqtisadi inkişafın və hərtərəfli tərəqqinin əldə olunmasındakı rolundan bəhs edib.

Dahi lider Heydər Əliyevin müasir dövlət quruculuğu siyasəti barədə danışan Tural Aslanov uğurlu siyasətin bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirildiyini qeyd edib.

Konfransda həmçinin Abşeron rayon prokuroru Qabil Qasımov, Milli Məclisin deputatı Hikmət Məmmədov, Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi Anar Eyvazov və digərləri fenomenal şəxsiyyət Heydər Əliyevin gənclər siyasəti, ordu quruculuğu və insan hüquqlarına verilən dəyər, Ulu Öndərin xilaskarlıq missiyası və zəngin dövlətçilik irsi mövzularında çıxış ediblər.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.

Bakı Media Mərkəzi tərəfindən ərsəyə gətirilmiş, dövlət başçısının 2003-cü ildən başlayaraq yürütdüyü məqsədyönlü siyasət və nəticədə torpaqlarımızın işğaldan azad olunması ilə bağlı tarixi missiyasına həsr olunmuş "İlham" sənədli filmi tədbir zamanı nümayiş etdirilib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Casus şəbəkəsinin ifşası Fransaya böyük dərsdir

**"Sirr deyil ki, Fransa və bir sıra dövlətlər xüsusilə ciddi geosiyasi və geoiqtisadi maraqlara malik olduqları ölkələrdə vəziyyəti nəzarətdə saxlamaq, proseslərə təsir göstərmək imkanlarını yaratmaq və genişləndirmək üçün casus şəbəkələrindən geniş istifadə edirlər. Xüsusən, Cənubi Qafqaz regionunda, Mərkəzi Asiya və Şərqi Avropa ölkələrində Fransanın geniş kəşfiyyat şəbəkəsinin olması təəccüb doğurmur".**



Bu sözləri Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu "Azərbaycan" qəzetinə Fransanın casus şəbəkəsinin ifşa olunması ilə bağlı məsələyə münasibət bildirərkən deyib. Bu halların aşkarlanmasının və casus şəbəkəsinin fəaliyyətinin dayandırılmasının vacibliyinə toxunan deputat qeyd edib ki, agent şəbəkələri fəaliyyət göstərdikləri ölkələrin daxili siyasi sabitliyi, onların müstəqil siyasətləri üçün təhlükədir. Nəzərə almaq lazımdır ki, Amerika Birləşmiş Ştatları, Fransa və Avropanın bir sıra dövlətləri də ayrı-ayrı ölkələrdə agent şəbəkələrini yaradaraq oradakı proseslər, vəziyyət haqqında məlumatlar əldə edirlər. Sonrakı mərhələdə isə prosesləri yönləndirmə cəhdlərini ortaya qoyurlar. "Hətta bir çox hallarda belə agent şəbəkələri vasitəsilə siyasi rejimlərin dəyişdirilməsi cəhdləri də müşahidə olunur. Fransa, ABŞ kimi ölkələr müxtəlif yerlərdə onlara loyal münasibət bəsləyəcək rejimlər formalaşdırmaqda maraqlıdırlar. Məsələn, bir müddət əvvəl Gürcüstan xüsusi xidmət orqanları belə bir şəbəkənin cəhdlərinin qarşısını aldı", - deyə deputat əlavə edib.

Postsovet ölkələrinin əksəriyyətində bu cür casus şəbəkələrinin mövcud olduğunu deyən E.Mirbəşiroğlu bildirib ki, Azərbaycan xüsusi xidmət orqanları belə hallara qarşı hər zaman ayıq-sayıqdır. Onun sözlərinə görə, Azərbaycan bu istiqamətdə bütün təsirli tədbirləri görməklə yanaşı, preventiv addımlar atmaq təcrübəsini və bacarığını da nümayiş etdirir.

Deputat vurğulayıb ki, Fransanın ölkəmizdəki səfirliyi nəzdində casus şəbəkəsinin fəaliyyətinin qarşısının alınması Azərbaycanın iradəsini, gücünü, Fransa xüsusi xidmət orqanlarının isə artıq zəif durumda olduğunu nümayiş etdirir: "Təsadüfi deyil ki, Fransa Müdafiə Nazirliyinin xarici Təhlükəsizlik İdarəsinin rəhbəri Bernard Emyer Fransa prezidenti tərəfindən vəzifəsindən azad olundu, o, başqası ilə əvəzləndi. Bu kimi halların qarşısının alınması həm də Fransa kimi neoimperializm, neokolonializm təfəkkürü ilə yaşayan ölkələrə təsirli dərsdir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Fransada yenidən etiraz aksiyaları başlayıb



**Fransa parlamenti miqrasiyanın sərtləşdirilməsi ilə bağlı qanun layihəsini təsdiqləyib. Bundan əvvəl qanunun yeni variantı uzun müzakirələr zamanı qarışıq paritet komissiyası tərəfindən razılaşdırılıb.**

Ötən həftə 25 ildə ilk dəfə olaraq deputatlar hökumətin qanun layihəsini rədd ediblər. Miqrasiya qaydalarının sərtləşdirilməsi ilə bağlı qanun layihəsinin mətninin rəddini tələb edən petisiya səs çoxluğu ilə dəstəklənib.

Sığınacaq və miqrasiya haqqında yeni qanunda qeyri-leqal miqrantların deportasiyasına nəzarətin gücləndirilməsinə yönəlmiş bir çox tədbirlər var. Həmçinin qanuna əsasən, cinayət törətmiş əcnəbilər də Fransadan deportasiya olunacaqlar.

Ölkənin daxili işlər naziri Cerald Darmanen qanun layihəsini miqrasiya məsələləri ilə bağlı hökumətin indiyə qədər təqdim etdiyi ən sərt layihə adlandırıb.

Daxili İşlər Nazirliyinin rəhbərinin sözlərinə görə, ailə vizası ilə Fransada qalan miqrantlar üçün qaydaları sərtləşdirmək, habelə Fransaya öz ailələrinə qovuşmaq üçün gələnlərin ailə üzvləri üçün məcburi fransız dili imtahanı tətbiq etmək lazımdır.

Renn şəhərində nümayişçilər ölkə parlamentinin qəbul etdiyi yeni miqrasiya qanununa etiraz edərək aksiyalara başlayıblar. Nümayiş iştirakçıları müxtəlif şüarlar, o cümlədən "Ölkədən qovulası miqrantlar deyil, faşistlərdir" şüarları səsləndiriblər.

Agentliyin məlumatına görə, oxşar etiraz aksiyaları Fransanın digər şəhərlərində də - Bezanson, Qrenobl, Dijon, Lill və Şamberidə elan edilib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*



# Azərbaycan Fransanı tam təcrid edir

### Bakı dünya miqyasında ifşa etdiyi Parisin Qafqazdakı casus şəbəkəsini də çökdürdü

**Azərbaycan xüsusi xidmət orqanları tərəfindən ölkəmizdə Fransanın agentura şəbəkəsinin çökdürülməsi barədə Qərb mətbuatında yer alan xəbərlər ildırım sürəti ilə gündəmə oturdu. Fransanın dünyadakı imicini yerlə bir edən ifşa onu da üzə çıxardı ki, casus şəbəkəsi həm də Ukrayna, Moldova, Gürcüstan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində müxtəlif əməliyyatlarda iştirak edib.**

Azərbaycan xüsusi xidmət orqanlarının yüksək peşəkarlıqla həyata keçirdikləri əməliyyatları təsdiq edir ki, Fransanın, həm ölkəmizdə, həm də yuxarıda adıçəkilən ölkələrdə daxili sabitliyi pozmaq, dövlətlərin varlığına təhlükə yaratmaq kimi çirkin planlarının qarşısını aldı.

Fransa casus şəbəkəsinin yüksək peşəkarlıqla və çox səssiz bir formada zərərsizləşdirən, sözün gerçək mənasında, Fransız xəfiyyələrinə master-klas keçən Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşları ölkəmizin, xalqımızın dövlətimizin təhlükəsizliyinin etibarlı əllərdə olduğunu bir daha göstərdi.

### "İfşa əməliyyatı"

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş təhlükəsizlik orqanları cəmiyyətimizin təhlükəsizliyinin, daxildən və xaricdən gələn təhdidlərin qarşısının alınması istiqamətində ardıcıl və effektiv iş aparır, böyük nailiyyətlər əldə edir.

Vətən müharibəsi zamanı, eləcə də suverenliyimizin bərpasına qədərki dövrdə, hansı ki ölkəmizə təhdid olan xarici təhlükələr çox idi, milli təhlükəsizliyimiz fövqəladə diqqət və qətiyyətlə qorundu.

Fransa casus şəbəkəsinin ifşa olunmasının fonunda xüsusi xidmət orqanlarımızın effektiv fəaliyyətlərinin bu gün də inamla davam etdirildiyini görürük.

Dünyanın aparıcı xüsusi xidmət orqanları arasında yer tutan Fransa xüsusi xidmət orqanlarının rezidentura şəbəkəsini peşəkarlıqla üzə çıxarması ölkəmizin təhlükəsizlik orqanlarının hansı yüksək səviyyədə olduğunu nümayiş etdirdi.

Eyni zamanda Azərbaycanın "ifşa əməliyyatı" Makron hakimiyyətinin daxildə olduğu kimi, xaricdə də rəzil siyasət yürütdüyünü, xalqların müqəddəratları ilə oynadığını, ölkələrin daxili işlərinə burnunu soxduğunu dünyaya açıb göstərdi.

Elə bu rəzalətinin fərqində olan Emmanuel Makronun təlim-tələsik Fransa Xarici Təhlükəsizlik Baş İdarəsinin (DGSE) rəisi Bernar Emyeni vəzifəsindən azad etməsi də bu baxımdan başadüşüləndir.

### Həbs edilənlər var

Belə ki, Azərbaycan xüsusi xidmət orqanlarının diqqətini Fransa səfirliyinin daxili rezidenturasının Azərbaycan ərazisində, əslində, Fransanın "tərəfdaşı" kimi bilinən ölkələrin nümayəndələrinə qarşı çox arxayın kəşfiyyat əməlləri çəkib. Sən demə, geniş əlaqələrindən istifadə edən rezidentura region ölkələrində fəal hərəkət etməklə yeni məqsədlər formalaşdırmaq və təsir dairəsini genişləndirməklə məşğul olub.

Məlumata görə, mənbələrdən əldə edilmiş informasiyaya əsasən, araşdırma bir-biri ilə əlaqəli xüsusatlar şəbəkəsini aşkarlamağa imkan verən çox maraqlı aspektləri üzə çıxarıb, uzun illər Fransa casus şəbəkəsinin ştatdankənar əməkdaşı olmuş Fransa vətəndaşlarından biri könüllü olaraq Azərbaycan hüquq-mühafizə orqanları ilə əməkdaşlığa təşəbbüs göstərib. Müəyyən müddət ərzində bir qismi indi və ya əvvəllər Azərbaycanda xidmət etmiş, bəziləri müxtəlif ölkələrdə və nüfuzlu beynəlxalq təşkilatlarda örtülü işi davam etdirən onlarla Fransa xəfiyyəsi aşkarlanıb. Bununla yanaşı, Azərbaycan xüsusi xidmət orqanlarına Fransa rezidenturasının Cənubi Qafqaz, Yaxın Şərq, Ukrayna və Moldovadakı fəaliyyətinə dair dəlil və sənədlər təqdim edilib.

Azərbaycan xüsusi xidmət orqanları tərəfindən istintaq olunan cinayət işi üzrə Ukrayna, Gürcüstan və Azərbaycanla əlaqədar kəşfiyyat fəaliyyətini həyata keçirən bir sıra şəxs həbs olunub, bəziləri isə istintaq altındadır.

### Fransanın xəbisliyinə çoxdan bələdik

Bəlkə də dünyanın bir sıra xalqları üçün Fransanın son ifşa olunan mənfur əməlləri təəccüblü görünə, hətta bu onlarda şok effekti də yarada bilər, amma Azərbaycan xalqında yox. Çünki biz Qərbin "demokratik" ölkəsi Fransanın iç üzünə çoxdan bələdik, onun müstəmləkəçi, əliqanlı tarixini dərindən bilirik, yenicə müstəqilliyini qazandığı zamandan etibarən ölkəmizə qarşı yürütdüyü qərəzli siyasətinə də şahidik.

25 illik vasitəçiliyi dövründə keçmiş Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir iş görməyən, Azərbaycanın torpaqlarının əbədi işğalda qalmasına səy göstərən "sülh göyərçini" Fransa 44 günlük Vətən müharibəsinin bölgədə yaratdığı yeni reallıqları qəbul etmək istəmir, ilərində yalan vədlərlə ermeni lobbisindən qopardığı pulların əlindən çıxmasına, işğal altında olan Azərbaycan torpaqlarında qanunsuz olaraq sərvətlərimizi talamasına son verilməsinə dözə bilmir.

Gah Aİ missiyası çərçivəsində öz təqaüdçülərini sərhədimizə yığaraq Azərbaycana tərəf binokldan kəm gözlərlə baxır, gah ölkəmizə qarşı yalan və böhtanlardan ibarət informasiya kampaniyası başladır, gah təcavüzkar Ermənistanı silahlandırır, gah da Avropa Parlamenti kimi riyakar Qərb təşkilatlarından ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə edir, onlara qərəzli qətnamələr qəbul etdirir... Lakin bütün bu fitnə-fəsadlarla qoca qitənin məkrli ölkəsi heç nəyə nail ola bilmir...

Azərbaycanın suverenliyini təmin etməsi ilə, Parisin sonuncu "Qarabağ" kartı da əlindən çıxdı və beləliklə, əsl adı demokratiya düşməni olan Fransa Cənubi Qafqazdan birdəfəlik qovuldu.

### XXI əsrdə də müstəmləkəçilik?!

Əlcəzairlilər başda olmaqla əli milyonlarla insanın qanına batan, tarixi soyqırımlar üzərində qurulan Fransa insanlıqdan uzaq hərəkətlərindən utanmaq əvəzinə, XXI əsrdə də müstəmləkəçilik siyasəti həyata keçirməkdə, xalqların hüquqlarını tapdamaqda, onlara qarşı zorakılıq törətməkdə, ölkələrin təbii sərvətlərini talamaqda, mənimsəməkdə davam edir.

Düz dörd əsrdir ki, Qvadelupa əhalisi Fransanın əsarəti altında yaşayır. Ölkədə müstəqillik tərəfdarı olanlar Fransa tərəfindən öldürülür və onların sayı əhaliyə açıqlanmır. İllər boyu Korsikanı müstəmləkə altında saxlayaraq burada cinayətlər törədən əliqanlı Fransa müstəqillik istəyənləri həbs edib, ya da öldürüb. Fransanın əsarətində boğulan korsikalılar bütün beynəlxalq təşkilatlardan Korsikanın suverenliyinin təmin olunması üçün kömək istəyirlər...

Fransanın üz qarası koloniolist fəaliyyətinə dair gətirdiyimiz bu kiçik nümunələr belə Parisin yürütdüyü müstəmləkəçi siyasəti açıq şəkildə gözlər önünə sərir.

Ancaq Bakının bütün beynəlxalq platformalarda neokolonializmə qarşı aktiv mübarizə aparması sayəsində "demokratiya" adı altında hələ də xalqları əsarətdə saxlayan, ölkələri müstəmləkəsinə çevirən neokolonialist Fransa dünyaya faş olur.

### Bu dərsin nəticələri ağır olacaq

Azərbaycanda agentura şəbəkəsi aşkara çıxarılan Fransanın müxtəlif ölkələrdə casusluq fəaliyyəti ilə məşğul olması da Bakı tərəfindən təkzibedilməz şəkildə sübuta yetirildi.

O da məlum oldu ki, Fransa xüsusilə keçmiş postsovet ölkələrində dağıdıcı fəaliyyətlə məşğul olur və bu ərazilərdə də müstəmləkəçilik siyasəti yürütmək niyyəti güdür. Parisin forpostuna çevirdiyi Ermənistan üzərindən Qafqaza soxulmaq istəyi də məhz buradan doğur.

Ancaq Azərbaycan Avropanın bu qəddar ölkəsinin bütün məkrli planlarını ardarda ifşa edir, yürütdüyü mənfur siyasəti özünə qarşı çevirir. Elə son olaraq xüsusi xidmət orqanlarımız tərəfindən Paris agenturasının üzə çıxarılması Fransaya unuda bilməyəcəyi və onun üçün ağır nəticələr doğuracaq növbəti dərs oldu.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## XİN Azərbaycanda jurnalistlərin və siyasi fəalların saxlanması ilə bağlı Aİ-nin ittihamlarını rədd edib

"Avropa İttifaqının (Aİ) Azərbaycanda jurnalistlərin və siyasi fəalların saxlanması ilə bağlı əsassız ittihamlarını qətiyyətlə rədd edirik".

AZƏRTAC xəbər verir ki, bu fikir Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Avropa İttifaqının Azərbaycan əleyhinə iddiaları ilə bağlı bəyanatına dair şərhində yer alıb.

Bildirilib ki, nazirlik bu cür əsassız və qərəzli bəyanatları Azərbaycanda məhkəmə hakimiyyətinin müstəqilliyinə müdaxilə cəhdləri kimi qiymətləndirir. İstintaqın gedişatına müdaxilə edilməsi qəbuledilməzdir və məhkəmə prosesinin işinə müdaxilə hüquqi dövlətin əsas prinsipi olan qanunun aliliyi prinsipinə ziddir.

"Təəssüf hissi ilə qeyd edirik ki, Aİ-nin Ermənistanda insanların fundamental hüquq və azadlıqlarının pozulması, siyasi təqiblər nəticəsində həbs edilmiş şəxslərin həbsxanalarda həyatlarını itirməsi hallarına, habelə siyasətçilər və onların ailə üzvlərinə qarşı təqiblərə biganə qalması ikili standartların bariz nümunəsidir.

Ölkəmizə qarşı bu kimi əsassız bəyanatlarla çıxış etmək əvəzinə, qarşı tərəfin Aİ üzv dövlətlərində insan hüquqlarının pozulması hallarına diqqət yetirməsini tövsiyə edirik. Aİ tərəfi Fransada "sarı gödəkçələr" aksiyasında 12 nəfər üzvün öldürülməsi, Aİ strukturlarında rüşvətxorluq və korrupsiya hallarının yayılması, islamofobiya və müsəlmanlara qarşı hücum faktlarını hələ də araşdırmayıb və adekvat münasibət bildirməyib.

Qeyd edilənlər fonunda, Aİ-nin bu cür qərəzli və ədalətsiz bəyanatları Azərbaycanın daxili işlərinə müdaxilə kimi qiymətləndirilir.

Bu əsassız iddialar Azərbaycan və Aİ əlaqələrinin inkişaf perspektivlərinə zərbə vurur", - deyə XİN-in bəyanatında vurğulanıb.

## Qərbi Azərbaycan İcması Avropa İttifaqının Azərbaycanla bağlı son açıqlamasını qınayıb

Qərbi Azərbaycan İcması Avropa İttifaqının Azərbaycanla bağlı 2023-cü il 21 dekabr tarixli açıqlamasını qınayır.

Bu barədə AZƏRTAC-a icmadan məlumat verilib.

Bildirilib ki, yüz minlərlə azərbaycanlının Ermənistandan deportasiya olunmasına göz yuman, Qərbi Azərbaycan İcmasının müxtəlif müraciətlərini qulaqardına vuran Aİ-nin Azərbaycanda bir neçə fərdlə bağlı "narahatlığı"nı ifadə etməsi qərəzin, ikili standartların təzahürüdür.

İnsan hüquqları ilə manipulyasiya, onun siyasiləşdirilməsi Aİ-nin təfəkkür tərzinə çevrilib. Nədənsə, Jozep Borel kimi təkəbbürlü rəsmilərə, Avropa Parlamentində əyləşən səlibçi mentalitetli deputatlara elə gəlir ki, dünya sanki Brüsselin, Aİ-nin ətrafında fırlanır.

Aİ Azərbaycanın daxili işlərinə yersiz müdaxilədən əl çəkməli, Fransadan, Niderlanddan tutmuş Litvaya qədər Aİ məkanında islamofobiya, etnik azlıqların sıxışdırılması və digər fundamental problemlərlə məşğul olmalı, Ermənistanda hərbi baza qurmaqdansa, ondan Qərbi azərbaycanlıların qayıdışına imkan verməyi tələb etməlidir.

## Snayper tüfənglərindən praktiki atış çalışmaları yerinə yetirilib

**Bu ilin hazırlıq planına uyğun olaraq, snayper tüfənglərindən atəş hazırlığı üzrə praktiki atış çalışmaları yerinə yetirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlim sahəsində şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra hərbi qulluqçular atəş mövqeyinin tutulması və silahın döyüş vəziyyətinə gətirilməsi üzrə normativləri yerinə yetiriblər.

Snayperlər şərti düşmən hədəflərinin aşkarlanması, düzgün nişanalma qaydalarına əməl etməklə məhv edilməsi üzrə tapşırıqları yüksək peşəkarlıqla icra ediblər.

Çalışmaların keçirilməsində əsas məqsəd hərbi qulluqçuların hazırlıq səviyyəsinin artırılması, praktiki vərdişlərinin və atəşaçma bacarıqlarının daha da təkmilləşdirilməsidir.

## İstehkam bölmələri tərəfindən 6930 hektar ərazi minalardan təmizlənib

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən azad edilmiş ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə həyata keçirilən tədbirlər planına uyğun davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, azad edilmiş ərazilərdə 2023-cü il yanvarın 1-dən dekabrın 21-dək mühəndis-istehkam bölmələri tərəfindən ümumilikdə 6930 hektaradək ərazidən 234 ədəd piyada əleyhinə, 721 ədəd tank əleyhinə mina və 1405 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin mürəkkəb relyefli, o cümlədən çətin keçilən qayalıq ərazilərdə avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə yeni təminat yolları çəkilib, mövcud təminat yolları təkmilləşdirilərək bərpa edilib.

Ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi zamanı əsas səylər yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Qarabağ iqtisadi rayonunda aşkar olunmuş mina və partlamamış döyüş sursatlarının bir qismi növbəti dəfə Ağdərə rayonunun "Gödəkburun" təlim mərkəzində partlatma və yandırma üsulları ilə məhv edilib.

Azad olunmuş ərazilərimizdə mühəndis təminatı üzrə zəruri tədbirlər planına uyğun olaraq 2024-cü ildə də davam etdiriləcək.



# MÖHTƏŞƏM 20 İL 2003 2023

10 il əvvəl - 2013-cü ildə Britaniyanın "The Business Year" jurnalı Azərbaycan Prezidenti İlham Əliyevi "İlin adamı" elan etmişdi. Qısa bir müddət sonra isə İlham Əliyev Türkiyənin nüfuzlu "Ekovitrin" jurnalı tərəfindən keçirilmiş rəy sorğusunun nəticəsinə görə, türk dövlətləri, Orta Asiya və Cənubi Qafqazda "10 ilin dövlət adamı" seçildi.



## Yeni əsrin yeni lideri

Keçirilən rəy sorğusunda 270 min 992 respondent iştirak edib. Jurnalda dövlət başçısının Azərbaycan Respublikasının Prezidenti vəzifəsində səmərəli fəaliyyəti, qazandığı uğurlar barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, son 10 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf edib və dünyanın nüfuzlu ölkələrindən birinə çevrilib.

Göründüyü kimi, İlham Əliyev müsbət imici ilə tanınan dövlət xadimi statusunda hələ on il əvvəl dünyanın diqqət mərkəzində olub. Həmin uğurun təməlində Prezidentin sürətlə dəyişən dünyanın nəbzini əlində saxlaması, müasir, çevik, qətiyyətli və cəsarətli dövlət xadimi kimi beynəlxalq münasibətlərdə baş verən ciddi dəyişikliklərdən öz vətəninin və xalqının xeyrinə məharətlə istifadə etməsi, Azərbaycanı istər gözlənilməz, istərsə də gözlənilən risklərdən uğurla qoruması dayanmışdı.

Bu gün İlham Əliyevin "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyə vəd verdiyi vaxtdan 20 il keçib. Ötən iki onillikdə İlham Əliyevin 10 il əvvəl qazandığı uğurların üstünə 10 qatı əlavə olunub. Azərbaycanda bütün sahələrdə baş verən quruculuq, inkişaf və islahatlar ötən illərin göstəricisidir. Dövlətin və dövlətçiliyin nüfuzunun günbəgün artması dövlət başçısının xalqına və dövlətinə xidmətinin nəticəsidir. 20 il ərzində dövlət başçısı həm beynəlxalq, həm regional səviyyədə, həm də ölkə daxilində o qədər parlaq uğurlara imza atıb ki, onun qatı opponentləri belə Azərbaycan liderinin qələbəsini qəbul etməyə məcbur olublar. Bu, həm də bütövlükdə Azərbaycana, Azərbaycan xalqına, dünyanın başqa yerlərində yaşayan soydaşlarımıza bəxş edilən qələbədir. Bu qələbənin müəllifi, altından imzasını qoyan isə, sözsüz ki, qurucu lider, Ali Baş Komandan İlham Əliyevdir. Dövlət başçısı müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün siyasi kataklizmləri irəlicədən görür və Azərbaycanı dağıntıları qarşılamaq üçün öncədən hazırlayır. Bu, müdriklikdir, liderlikdir. Xalqın gələcəyinə hesablanmış islahatlar İlham Əliyevin qurucu, qalib və uzaqgörən Prezident olmağına dəlalət edir.

Məlumur ki, hər bir ölkənin inkişafı və qarşıya qoyulan məqsədlərin reallaşdırılması üçün ilk növbədə güclü iqtisadiyyat qurulmalıdır. Bu baxımdan deyə bilərik ki, respublikamızda güclü iqtisadi quruculuq üçün lazım olan bütün şərtlər təmin edilib. Bir sıra dövlət proqramları qəbul edilib, həmçinin iqtisadiyyatın bütün sahələrində islahatlar aparılıb. Ardıcıllıqla aparılan islahatlar, uğurla reallaşdırılan dövlət proqramları və strateji yol xəritələri öz növbəsində milli iqtisadiyyatımızın inkişafına güclü impuls verib, istehsal imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Təsadüfi deyil ki, artıq respublikamızda bir sıra sənaye və kənd təsərrüfatı məhsullarına olan daxili tələbat sırf yerli istehsal hesabına ödənilir, eyni zamanda Azərbaycanın ixrac imkanları getdikcə genişlənir. Bu da o deməkdir ki, Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən asılı deyil.

İlham Əliyevin sosial siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Hakimiyyətə gəldiyi ilk gündən bu amala xidmət edən Prezident ilk dəfə seçiləndə ölkədə 600 min yeni iş yerinin yaradılacağını vəd etmişdi. O zamanlar bu rəqəm bəlkə də xəyal kimi görünə bilirdi, amma illər keçdikcə xəyal hesab edilənlər reallığa çevrildi. Bu gün Azərbaycanın hər sahəsində sürətli inkişaf əldə olunub, insanların rifah halı yaxşılaşıb. 2003-cü ildə 383,1 manat təşkil edən orta aylıq əməkhaqqı hazırda 900 manat səviyyəsində qərarlaşıb. Bu illər ərzində 2 milyondan artıq iş yeri açılıb. Yoxsulluq həddi 49 faizdən 5 faizə qədər azalıb. Postmüharibə dövründə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 5250, bu il isə 750 mənzil və fərdi ev təqdim olunub. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. 2004-2022-ci illərdə ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib. Elektrik enerjisinin 76 faizi regionlarda istehsal edilir. Azərbaycan artıq elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Regionlarda qazlaşdırmanın səviyyəsi 94 faizi ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9 faizdən 73 faizə çatıb. Ötən 20 ildə 9 hava limanı tikilib və yenidən qurulub. Laçın Hava Limanının tikintisi isə davam edir.

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın müstəsna sərkərdəlik qabiliyyəti, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və ordu-xalq-iqtidar birliyi ölkənin gələcəyini təmin edən ən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq tarixini yazaraq özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi, düşmən üzərində tarixi Zəfər çaldı. Bu Zəfər Vətənə qayıdış, ədalətli tarixə qayıdışdır. Hərbi əməliyyatların aparılması xarakterinə və icrasına, döyüşçülərimizin şücaətinə görə Azərbaycan tarixində misli görünməmiş qələbədir. Əlbəttə ki, bu qələbənin baş memarı Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Azərbaycan liderinin dediyi kimi, döyüş meydanında qazanılan bu qələbə ilə ölkəmiz üçün yeni dövr açıldı."Qarabağda qazanılan Zəfər həm beynəlxalq hüquq, həm diplomatik, həm də hərbi baxımdan Azərbaycana ana südü kimi haladır" deyən qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan çox haqlıdır. Həmin halallığın mənbəyi Azərbaycan əsgəri və onun Müzəffər Ali Baş Komandanıdır.

Həyatı birbaşa xalqının taleyi ilə bağlı olan Prezidentin keçdiyi yolun hamısı təbii ki, bir qəzet yazısına sığmaz. Amma dövlətçilik tarixində dərin iz buraxmış fəaliyyətini, Azərbaycanın inkişafı üçün atdığı uğurlu addımların bəzilərini gözdən keçirmək İlham Əliyevin doğum günü ərəfəsində vacibdir. 20 il öncəyə dönüb baxanda o dövrdə baş verən ictimai-siyasi hadisələr fonunda istər Azərbaycanda, istərsə də regionda anlaşılmazlığın, problemlərin, mürəkkəb situasiyaların olduğunu görürük. O zaman Prezidentin 42 yaşı var idi. Gənc prezident 10-12 illik Qarabağ düyününü aça biləcəkmi? Gənc Azərbaycan dövlətini idarə etməkdə çətinlik çəkəcəkmi? İlham Əliyevə inanan, etibar edənlər bilirdilər ki, Heydər Əliyev kimi nəhəng siyasətçidən dərs alan, idarəçiliyi öyrənən İlham Əliyev bu ağır vəzifələrin öhdəsindən gələcək. Azərbaycanın bu günündən və gələcəyindən, eləcə də Prezidentdən bədgüman olanlar isə 20 ildir hələ də öz qaranlıqlarında çabalayırlar. İlham Əliyev həmin bədgümanların arzularını gözündə qoydu, qlobal və regional reallıqlar şəraitində ölkənin stabil milli maraqlarını qoruya bilmək bacarığı ilə əsl siyasi lider olduğunu sübut etdi.

"Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə - 20 il bundan əvvəl - Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın dövlət bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq" söyləyən Prezident xalqına, məcburi köçkünlərə verdiyi sözə sahib çıxdı, ata vəsiyyətini şərəflə yerinə yetirdi, Azərbaycanı gücləndirdi və düşməni onunla hesablaşmağa məcbur etdi. Gün gəldi xalqın illərlə gözlədiyi "ağ atlı oğlan" özünü yetirdi, Qarabağı düşməndən xilas etdi, 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanı oldu. "Vaxt gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq" demişdi Ulu Öndər. Bəli, o vaxt gəldi, o günəş doğdu. İlham Əliyevin əli ilə doğan günəş öz şəfəqlərini dünyaya səpələyir...

Vaxtilə "İlin adamı", "On ilin dövlət adamı" kimi titullara layiq görülən Prezidentin bu gün qazandığı ən böyük sərvət, ən ali titul Azərbaycan xalqının ona olan gerçək sevgisidir. Bu gün İlham Əliyev "xalqın adamı" kimi ən ali dəyərin sahibi, daşıyıcısıdır. Hər il doğum gününü xalqla birgə keçirən, qaçqın-köçkün yanında olan, azad olunmuş torpaqlarda qeyd edən Prezident ənənəsinə yenə də sadiq qaldı. Doğum gününə iki gün qalmış Xankəndidə futbolçularla, şəhid övadları və xalqın sadə nümayəndələri ilə birlikdə oldu. Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə futbol bayramına rəng qatdı. Doğum günü ərəfəsində Xankəndi stadionunda keçirilən futbol yarışı "xalqın adamı"na ən böyük, ən dəyərli, ən qiymətli hədiyyə oldu...

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Nəsibimiz aydın sabahlardır

2023-cü ilin tarixə qovuşmasına sayılı günlər qalır. Yaşanan, arxada qalan uğurlarla dolu həftələr, aylar qürurvericidir.





Ermənistan silahlı qüvvələrinin 30 il işğal altında saxladıqları, ölkəmizin dilbər guşəsi olan Qarabağı və Şərqi Zəngəzuru, sözün həqiqi mənasında, viran qoyduqları, xarabaya çevirdikləri kəndləri, şəhərləri azad edib yenidən qurmaq, ərazi bütövlüyünə qovuşan doğma yurdun hər qarışını cənnətə döndərmək istiqamətində atılan hər addım vətən eşqinin, torpaq sevgisinin gerçək təntənəsidir.

Hər kəsin qəbul etdiyi bir həqiqət var: Qarabağ deyəndə ilk yada düşən rayonlardan biri Ağdamdır. Elə ermənilərin ən çox qorxduqları, çəkindikləri də Ağdam olub. Bəlkə də buna görədir ki, işğal dövründə Ermənistan mərdlik, cəsarət, hünər, qəhrəmanlıq simvolu olan Ağdamı yerlə yeksan edib ruhlar şəhərinə çevirdilər. Şəhərdə, kəndlərdə daş üstə daş qalmadı. Son həyat işartısı da silinərək Ağdam ruhlar şəhərinə çevrildi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev vaxtilə Ağdama yüksək dəyər verərək deyirdi: "Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz!"

Bu gün Ağdamda xoş ovqat, yüksək əhvali-ruhiyyə yaşanır. Qəhrəmanlıq səhifəsi yazan vətən sevdalı oğullar indi min bir həvəslə işğaldan azad olunmuş əraziləri, o sıradan Ağdamı yenidən qurur, müharibənin xarabalıqları üzərində yeni şəhərlər, kəndlər salırlar. Ağdamda müasir standartlar səviyyəsində yeni infrastruktur qurulur. Bölgəyə dəmir yolu çəkilişi başa çatmaq üzrədir. Yeni avtomobil yolunun tikintisinin yekunlaşmasına da çox qalmayıb. Kəndlər və şəhərlər isə "ağıllı" layihələr əsasında inşa olunur. Bütün bu işlərə bir sıra xarici dövlətlərin məşhur şirkətləri cəlb edilmişlər.

Torpağa qırılmaz tellərlə, sonsuz məhəbbətlə bağlı olan ağdamlılar indi könül xoşluğu ilə çalışır, həvəslə əkib-becərir, bolluq, firavanlıq yaradırlar. Cari ilin yanvar-sentyabr aylarında rayonda 180 milyon manata yaxın kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. Rayonun təsərrüfatlarında 43 min tondan çox taxıl istehsal edilmiş, hər hektarın orta məhsuldarlığı 41,4 sentner olmuşdur.

Ağdam Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Ramal Məmmədov bizimlə söhbətində kənd təsərrüfatı məhsulları istehsalının intensiv artımında dövlətin güclü dəstəyinin, verilən subsidiyaların əsas amil olduğunu vurğuladı. Növbəti təsərrüfat ilinin məhsul bolluğuna etibarlı bünövrə qoyulmasından da söz açan həmsöhbətimiz qeyd etdi ki, bunun üçün indidən zəruri tədbirlər görülür. Artıq 16200 hektardan çox sahədə payızlıq taxıl əkilmişdir. Dondurma şumunun aqrotexniki tələblər əsasında aparılmasına böyük önəm verilir, torpağın münbitliyini artırmaq üçün üzvi və mineral gübrələrdən səmərəli istifadə olunur.

Tarixi Qarabağ zəfəri bölgənin hər bir sakininə tükənməz qurub-yaratmaq əzmi verir. Qarabağlılar sabaha inamla baxırlar. Gələn il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinə Ağdamda zəfər əhvali-ruhiyyəsi ilə hazırlıq görülür. Səsvermə hüququ olan hər kəs üçün seçim indidən aydındır. Qəhrəman Azərbaycan əsgərinin gücünü bacarıqla səfərbər edib düşmənin başına "dəmir yumruq" endirən Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan adlı müstəqil dövlətə rəhbərliyi şərəflə reallaşdırdığı tarixi xilaskarlıq missiyası ilə haqq edib. Qazandığı bu müqəddəs haqqı ona xalq verib və növbəti dəfə də verəcək. Buna heç kimin şübhəsi olmasın.

Artıq azad nəfəs alan, ərazi bütövlüyünə qovuşan, müstəqil bir dövlət olaraq öz inamlı addımlarını atan Azərbaycanın əngin səmasında qara buludlara yer yoxdur. Şükürlər olsun ki, igid oğullarımızın canı, qanı bahasına qazandığımız aydın sabahlardır, əmin-amanlıqdır, firavan həyatdır, xoş güzərandır. Bunları xaosa, anarxiyaya, özbaşınalığa dəyişməyə haqqımız yoxdur. Ən azından tarix bizi bağışlamaz.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

O illər yaxşı yadımdadır. Tək-tək adam pay torpağını əkib-becərirdi. Əksəriyyəti isə ya onu satır, ya da kiməsə uzunmüddətli icarəyə verirdi. Əslinə qalsa, onları qınamaq olmazdı. Torpağı əkib-becərmək vəsait tələb edir. O vaxt kasıblıq həddində yaşayan kənd adamlarında isə belə bir imkan yox idi. Necə deyərlər, köçlərini sudan güclə çıxarırdılar. Əllərinə gələn beş-üç manatı çörəkpulu edib ailələrini dolandırırdılar.

## "Fermer kimi uğurlarımı dövlət başçısının aqrar sektora diqqəti və dəstəyi sayəsində qazanmışam"

Amma içərilərində sabahın yaxşı olacağına inanıb əzaba qatlaşanlar da vardı. Onlardan biri də Salyan rayonunun Sarvan kəndindən olan Mərdan Cəlilov idi. M. Cəlilovla görüşüb söhbətləşdik, həmin günlərin xatirələrini dinlədik, olub-keçənləri yada saldıq:

- Kənddə doğulub boya-başa çatmışam. Atam vaxtilə Muğanın ağsaqqalı sayılan Sosialist Əməyi Qəhrəmanı Qüdrət Səmədovun sədr olduğu kolxozda çoban olub. Bizi zəhmətlə böyüdüb. Orta təhsilimi başa çatdırıb Bakı Maliyyə-Kredit Texnikumuna daxil oldum. Oranı bitirib yenidən kəndimizə qayıtdım. Bir müddət icra nümayəndəliyində mühasib işlədim. Eyni zamanda pay torpağımızı əkib-becərdim. Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamlar, dövlət proqramları torpaq mülkiyyətçilərinə sanki qol-qanad verdi. Aldığımız subsidiyalar, güzəştli qiymətlə satılan gübrələr kənd adamlarını torpağa daha da yaxınlaşdırdı. Uzunmüddətli kreditlər hesabına təsərrüfatları üçün müxtəlif markalı traktorlar, kombaynlar, cins mal-qara alanlar az olmadı. Burada bir haşiyə çıxıb bildirmək istəyirəm ki, kredit götürüb özünə minik maşını, televizor, bahalı cib telefonu, digər əşyalar alanlar da oldu. Beləlləri başa düşmürdülər ki, əvvəla həmin kredit kənd təsərrüfatına sərmayə qoymaq üçün verilmişdi və onu başqa sahəyə xəcləmək doğru deyildi. İkincisi, təyinatı üzrə xərcləsəydin, bu gün sənin torpağa qoyduğun o xərc sabah sənə iki-üç qat qazanc gətirəcəkdi. Şübhəsiz ki, əgər zəhmət çəksən. Mən isə elələrindən olmadım, müvəqqəti çətinliklərə döz-



düm. Balalarımı da bu ruhda tərbiyə etdim. Atalar əbəs deməyib: "Hər qaranlıq gecənin bir işıqlı sabahı var". Çəkdiyim zəhmət boşa getmədi, bəhrəsini verdi. Əkib-becərdiyim taxıl, pambıq sahələrindən yaxşı məhsul götürdüm. Əldə etdiyim qazancla ailəmi, uşaqlarımı dolandırmaqla yanaşı, əlavə torpaq sahələri aldım, icarəyə götürdüm. Yetişdirdiyim arpa və buğda sortları mütəxəssislər tərəfindən bəyənildi. Məndən toxum alan ayrı-ayrı fermerlər hər hektardan yüksək məhsul götürdülər. Rayon Kənd Təsərrüfatı İdarəsi toxumçuluqla məşğul olmağımı məsləhət gördü. Deyilənlərə əməl etdim. Kənd Təsərrüfatı Nazirliyinin müvafiq qurumu mənə bu barədə sertifikat verdi. Artıq 10 ildən çoxdur toxumçuluqla məşğulam. 2023-cü ildə "Qobustan", "Bərəkətli-95", "Günəş", "Dəyanətli" sortlarından olan 508 ton yüksək reproduksiyalı buğda və arpa toxumu yetişdirmişəm. Hər hektarın məhsuldarlığı 40-45 sentner olub. Bir çox rayondan fermerlər gəlib bizdən toxum alıb aparırlar. Qiymətlər də baha deyil. Həm bizi qane edir, həm də fermerləri. Dövlətin dəstəyi ilə anbarlar tikmişəm, toxumtəmizləyən avadanlıqlar, digər texnikalar almışam. Bunların əvəzində əkinçilərə kömək etmək, onları keyfiyyətli toxumla təmin etmək borcumuzdur. Başa düşürük ki, məhsuldarlıq əsasən toxumdan asılıdır. Atalar əbəs yerə deməyiblər: "Nə əkərsən, onu da biçərsən".

M.Cəlilov qazandığı uğurlara görə İkinci dərəcəli "Əmək ordeni" ilə təltif olunub. Amma ən yüksək mükafatı yaşadığı Sarvan kəndinin, rayon fermerlərinin hörmət və rəğbətidir. Sadəliyi, səmimiyyəti, düzlüyü, xeyirxahlığı ilə hörmətinin üstünə hörmət gətirən Mərdan doğma obasının, eləcə də rayonun ictimai-siyasi həyatında fəal iştirak edir, şəhid ailələrinə, qazilərə, ehtiyacı olanlara əlindən gələn köməyi əsirgəmir.

M.Cəlilov pambıqçılıqla da məşğul olur. Söhbət zamanı bildirdi ki, Muğanda yaşayan hər bir fermer pambıq əkməlidir: "Bu, ən əvvəl növbəli əkinin prinsipidir. Olmasa, torpaqdan yüksək məhsul əldə etmək mümkün deyil. Bir bitkini eyni sahəyə ikinci il əkəndə yaxşı inkişaf etmir, xəstəliklərə tutulur. Ona görə deyirəm ki, fermer əkinçiliyin ayrı-ayrı bitki növlərini planlı şəkildə hökmən əkməlidir. İcarəyə götürdüyüm torpaq sahələrində bu il 150 hektarda pambıq əkdim. Düzdür, sentyabr ayında və oktyabrın əvvəllərində yağan aramsız yağışlar kolların aşağı hissəsindəki daban qozaların məhsulunu çürütdü. Nəticədə məhsuldarlıq ən azı 3-4 sentner aşağı düşdü. Amma son nəticə pis olmadı. Şirkətdən götürdüyümüz borcu ödədik, müəyyən qədər də qazancımız oldu. Axı bir də dövlət fermerə hər kiloqrama görə 19 qəpik subsidiya verir".

Mərdan halal zəhməti ilə üç qız övladına təhsil verib, onları gəlin köçürüb. Oğlu isə ali məktəbdə 2-ci kursda oxuyur.

Fermer M.Cəlilov onu da vurğuladı ki, ölkəmizdə qazanılan hər bir uğurda - istər ərazilərimizin işğaldan azad olunmasında, istərsə də ölkəmizin inkişafında Prezident, Ali Baş Komandan İlham Əliyevin xüsusi xidmətləri var: "İnanılmaz qələbəmiz onun və ordumuzun yenilməzliyi sayəsində mümkün olmuşdur. Hər kəs yaxşı başa düşür ki, İlham Əliyev olmasaydı, torpaqlarımız heç vaxt geri alınmazdı. Buna görə xalqımız ona dərin hörmət və rəğbət bəsləyir. Əminəm ki, 7 fevral 2024-cü il tarixdə keçiriləcək növbədənkənar prezident seçkilərində yenidən İlham Əliyev böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçiləcək".

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

2023-cü ilin önəmli hadisələri



## Mingəçevir statusunu dəyişmir

### Bu il şəhərdə müstəqillik dövrünün ən böyük istilik-elektrik stansiyasının təməli qoyuldu

**Prezident İlham Əliyev energetika sektorunun həmişə prioritet təşkil etdiyini və indi bu sahədəki imkanlarımızın bir çox ölkə üçün də böyük önəm daşıdığını dəfələrlə vurğulayıb. Bu münasibətin nəticəsidir ki, yaxın keçmişdə elektrik enerjisi qıtlığı yaşayan Azərbaycanın artıq bütün şəhər və kəndləri nura boyanıb. Biz hətta dörd qonşu ölkəyə elektrik enerjisi ixrac edir və onun Avropaya da ixracını planlaşdırırıq.**

Hazırda dünyada bərpaolunan enerji mənbələrindən istifadəyə xüsusi diqqət yönəldilməsinə və Azərbaycanda da bu sahədə ardıcıl iş aparılmasına baxmayaraq, ənənəvi enerji unudulmur. Son 20 ildə ölkədə onlarla stansiya və yarımstansiya tikilib. Bu iş davam etdirilir. Eləcə də yeni enerji obyektləri inşa edilməklə yanaşı, köhnələr təzə avadanlıqlarla təchiz olunur.

Bu baxımdan sona çatan 2023-cü il də uğurlu olub. İstər Qarabağda və Şərqi Zəngəzurda, istərsə də respublikanın digər bölgələrində yeni stansiya və yarımstansiyaların təməli qoyulub, tikintisi sona çatdırılanlar isə fəaliyyətə başlayıb. Məsələn, fevralın 13-də Mingəçevir şəhərində müstəqillik dövrünün ən böyük istilik elektrik stansiyasının təməli qoyulub.

Mingəçevir həmişə nur şəhəri adlandırılıb. Burada fəaliyyət göstərən elektrik stansiyası hazırda ölkəmizin elektrik enerjisinə ehtiyacının böyük hissəsini ödəyir. Təməli qoyulan yeni, 1280 meqavat gücündə elektrik stansiyası isə Azərbaycanın elektroenergetika mərkəzi kimi Mingəçevirin önəmini daha da artıracaq.

1976-cı ildə Mingəçevirdə Heydər Əliyevin təşəbbüsü ilə tikilməyə başlayan və 1981-ci ildə Ulu Öndərin özünün iştirakı ilə birinci blokunun açılışı olan stansiya Azərbaycanın bu gözəl şəhərini bütün Qafqazın enerji mərkəzinə çevirdi. Ümumi generasiya gücü 2400 meqavat olan stansiya ölkənin enerjiyə ehtiyacının qarşılanmasında böyük xidmət göstərdi. Xüsusilə müstəqilliyimizin ilk çətin illərində, əhali işıq sarıdan çətinlik çəkəndə Mingəçevir Elektrik Stansiyası öz üzərinə böyük yük götürdü, xeyirxah bir missiya yerinə yetirdi. Son illər isə bu enerji obyektinin salnaməsi yeni səhifələrlə zənginləşdi. Prezident İlham Əliyevin göstərişinə əsasən, 2018-ci ildə stansiyanın tamamilə yenidən qurulması prosesi başlandı. Cəmi iki ildə 8 blok tamamilə yenidən quruldu və 2020-ci ildə əvvəlki gücü ilə yenidən istifadəyə verildi.

İşığımızı, nur mənbəyimizi gözü götürməyən düşmən Vətən müharibəsinin getdiyi vaxt döyüş meydanından uzaq məsafədə olan stansiyaya qadağan olunmuş silah tuşlamış, lakin mənfur niyyəti elə gözündə qalmışdır. Azərbaycan isə yeni-yeni enerji qurğularını işə salır. Bütövlükdə ölkəmizin elektroenergetika sahəsi sürətlə inkişaf edir. Təsadüfi deyil ki, işğaldan azad edilmiş torpaqlarımızda bərpa-yenidənqurma işlərinə də məhz elektroenergetika sahəsindən başlanmışdır. Burada artıq 10-dan çox yarımstansiya inşa edilmiş, 10-dan çox su-elektrik stansiyası istifadəyə verilmişdir. Cəmi iki il ərzində bölgədə 50 meqavatdan çox generasiya gücü yaradılmışdır və bu rəqəm cari ilin sonuna qədər 200 meqavata çatdırılacaq. Yəni təkcə azad edilmiş torpaqlarda 3 il ərzində 200 meqavatlıq enerji gücü yaratmış olacağıq. Şərqi Zəngəzurun və Qarabağın böyük hidroenergetika potensialı bu bölgələrdə 500 meqavata qədər generasiya gücləri yaratmağa imkan verəcək. Üstəgəl, Azərbaycanda bərpaolunan enerji növlərinin inkişafı üçün çox böyük potensial var.

Mingəçevirdə təməli qoyulan yeni istilik-elektrik stansiyası 2025-ci ildə fəaliyyətə başlayacaq və enerji potensialımızı daha da gücləndirəcək. Prezident İlham Əliyev onun əhəmiyyətini belə dəyərləndirmişdir: "İndi isə Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya, əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin. Bu gün Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaqdır".

Qeyd edək ki, stansiya ölkəmizin daxili resursları çərçivəsində inşa edilir. Layihənin ümumi dəyəri təqribən 400 milyon dollara qədər olacaq. Ödəniləcək vəsaitin 60 faizi "Azərenerji"nin öz vəsaiti hesabına, qalan 40 faizi kreditlər vasitəsilə təmin ediləcək. Tikintiyə yönəldilən maliyyə eyni həcmdə olan stansiyaların tikintisinə sərf edilən vəsaitdən bir neçə dəfə aşağıdır. Səbəb isə səmərəlilikdir. Bir vacib səbəb də odur ki, Mingəçevirdə güclü elektroenergetika infrastrukturu mövcuddur və sözügedən stansiyanın məhz burada inşa edilməsi məqsədəuyğundur. Stansiya xarici tərəfdaşlarla birlikdə inşa edilir.

"Azərenerji" ASC-nin məlumatında vurğulanır ki, tikinti işlərini Azərbaycanın ixtisaslaşmış yerli şirkətləri həyata keçirir. Tikintiyə İtalyanın "AFRY" Məsləhətçi Şirkəti və İspaniyanın "İDOM" Layihələndirmə Şirkəti nəzarət edir.

İşlər qrafiki qabaqlayır. Yeni elektrik stansiyası və "Azərbaycan" İES-in mövcud 7 və 8-ci bloklarının əlaqələndirilməsi nəticəsində ümumi güc 1880 meqavat olacaq. Bununla da faydalı iş əmsalı 18 faiz artırılaraq 56 faizə çatdırılacaq. Başqa sözlə, yeni elektrik stansiyasının qaz turbinlərində bir dəfə işlənmiş qaz utilizasiya yolu ilə suyu buxara çevirəcək və "Azərbaycan" İES-in 7 və 8-ci bloklarının buxar turbinlərində əlavə qaz işlədilmədən enerji almaq mümkün olacaq. Əlaqələndirmə nəticəsində ildə 800 milyon kubmetr qaza qənaət olunacaq.

Yeni stansiyanın tikilməsi əlavə generasiya güclərinin yaradılması, enerjiyə artan tələbatın qarşılanması, ixrac imkanlarının artırılması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi və regionda yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyətə malikdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azad olunmuş ərazilərdə planlaşdırma işləri gələn ilin sonuna tam yekunlaşacaq

**İşğaldan azad edilmiş ərazilərdə görülən işlər "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" əsasında həyata keçirilir.**

Bu barədə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev jurnalistlərə açıqlamasında deyib. AZƏRTAC xəbər verir ki, komitə sədrinin sözlərinə görə, bu ilin sonunda proqram çərçivəsində ümumilikdə 100 yaşayış məntəqəsinin planlaşdırılması və yenidən qurulması nəzərdə tutulur.

"Bunlardan 9-u şəhər, 91- i isə əsasən qəsəbə və kəndləri əhatə edir. Bu proses bu gün sürətlə davam edir. Artıq işlərin əksəriyyətinin planlaşdırılması işləri başa çatıb. Çox güman ki, 2024-cü ilin sonuna planlaşdırma işləri tam yekunlaşacaq", - deyə A.Quliyev vurğulayıb.

Komitə sədri dövlət proqramının davam edəcəyini qeyd edib: "Belə ki, birinci proqram çərçivəsində 140 minə yaxın insanın köçməsi nəzərdə tutulubsa, artıq növbəti illərdə daha çox insan evlərinə qayıda biləcək. Ümumilikdə isə 2024-2025-ci illərdə planlaşdırma işlərinin başa çatacağı gözlənilir".

## SOCAR Norveç şirkətinin AÇG, "Qarabağ" yataqları və BTC layihəsindəki paylarını alıb

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəfin "Equinor" şirkətinin beynəlxalq kəşfiyyat və hasilat üzrə icraçı vitse-prezidenti Filip Matyönün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü olub.**



SOCAR-dan bildirilib ki, görüşdə SOCAR tərəfindən "Azəri-Çıraq-Günəşli" (AÇG), "Qarabağ" yataqları, həmçinin Bakı-Tbilisi-Ceyhan (BTC) layihəsi üzrə "Equinor" şirkətinə məxsus iştirak paylarının alınmasına dair sənədlər imzalanıb.

Qeyd edək ki, iştirak paylarının alqı-satqısına qədər, "Equinor" AÇG neft yataqlarında 7.27 faiz, BTC boru kəmərində 8,71 faiz, "Qarabağ" yatağında isə 50 faiz iştirak payına malik olub. SOCAR-ın iştirak payı isə AÇG-də 25 faiz, BTC-də 25 faiz, "Qarabağ" yatağında isə 50 faiz təşkil edib.

İştirak paylarının alınmasına dair əqdlər bütün tənzimləyici tələblərin və müqavilə öhdəliklərinin şərtlərinə əməl edilməklə başa çatdırılacaq.

Görüşdə, həmçinin "Equinor" ilə SOCAR arasında dekarbonizasiya və "yaşıl enerji" sahələrində əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

## Qərbi Azəri platformasından 1 milyard barel neft çıxarılıb

**Dekabrın 12-də Qərbi Azəri platformasından bir milyardıncı barel neft hasil edilib.**

bp-nin məlumatına görə, Qərbi Azəri Xəzər dənizində AÇG yatağının yeddi hasilat platformasından biridir. 1997-ci ilin noyabrında AÇG-dən ilk neft əldə olunandan bəri ümumilikdə çıxarılmış 4,3 milyard barel neft hasilatına bu platformanın əhəmiyyətli töhfəsi var.

"Bu, ikinci AÇG platformasıdır ki, ümumi neft hasilatında 1 milyard barel xəttini adlayıb ikinci milyard barelin yoluna çıxır. Bu əlamətdar mərhələyə çatan ilk platforma isə Mərkəzi Azəri olub. Mərkəzi Azəri bu xəttə digər platformalardan daha tez - 2021-ci ilin iyul ayında çatmışdı. İndi isə 1 milyard barel neft hasil etmiş daha bir platformamız var - Qərbi Azəri. Ümid edirik ki, AÇG-də bu möhtəşəm uğur silsiləsi davam edəcək. Bu sevindirici nailiyyətə töhfə vermiş bütün işçi heyətlərini təbrik edirəm və onlara təhlükəsiz və səmərəli fəaliyyətlərinə və mükəmməl iş icrasına görə öz təşəkkürümü bildirirəm. Xüsusilə də, ilk gündən indiyədək Qərbi Azəridə çalışan və platformanın bütün uğurlarında imzası olan işçilərimizi təbrik edirəm", - deyə bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda hasilat üzrə vitse-prezidenti Elxan Məmmədov qeyd edib.



## "Bir millət, iki dövlət"in növbəti hədəfi

### Qarşılıqlı əlaqələrimizin daha da genişləndirilməsi hesabına iqtisadi gücümüzü artırmaq

**Xəbər verildiyi kimi, Bakıda Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) və "Türkiyə -Azərbaycan İş Adamları və Sənayeçiləri" İctimai Birliyinin (TÜİB) birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illik yubileylərinə həsr olunmuş Azərbaycan-Türkiyə İnvestisiya Forumu keçirilib.**

Forumda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, Türkiyənin ticarət naziri Ömər Bolat və Cümhurbaşkanı Aparatı Maliyyə Ofisinin rəhbəri Göksel Aşan iştirak ediblər. İki ölkə arasında iqtisadi əməkdaşlığı daha da gücləndirmək məqsədi daşıyan tədbir həm də regional inkişafa mühüm töhfələr verməyi nəzərdə tuturdu. Forumda iqtisadi əməkdaşlığın genişləndirilməsi ilə bağlı strateji məsələlər, Azərbaycanla Türkiyə arasında güclü iqtisadi əlaqələr yaratmaq üçün atılacaq addımlar, potensial investisiya imkanları müzakirə olunub.

Qeyd edək ki, Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin kökündə Ümummilli Lider Heydər Əliyevin vurğuladığı "bir millət, iki dövlət" devizinə və qardaşlıq prinsipinə əsaslanan, strateji tərəfdaşlığa söykənən münasibətlər sistemi dayanır. Türkiyə ilə iqtisadi əlaqələrimiz dərin tarixi-mədəni köklərə dayansa da, bu münasibətlərin geniş vüsət alması daha çox müstəqilliyimizin qazanılmasından sonrakı dövrə təsadüf edir. İnkaredilməz faktdır ki, Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr həm də çoxtərəfli strateji əhəmiyyətli əməkdaşlığa əsaslanır. Bu özünü daha çox enerji-nəqliyyat qovşaqlarını nəzərdə tutan layihələrdə büruzə verir. Həmin layihələr 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" çərçivəsində neft yataqlarındakı axtarış-kəşfiyyat işlərində əks olunub və sonrakı illərdə daha da şaxələnib. Azərbaycan və Türkiyənin də tərəfdaş olduğu nəhəng regional layihələrə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP-ı misal göstərə bilərik. Beynəlxalq nəqliyyat və enerjini özündə ehtiva edən bu layihələr Azərbaycan ilə Türkiyənin regionda mövqeyinin güclənməsində, beynəlxalq daşımalarda məsafə və daşıma müddətinin qısaldılmasında, strateji əhəmiyyətinin artmasında, regional enerji təhlükəsizliyinin təminatında, bu ölkələrin tranzit və ticarət əməliyyatları ilə yanaşı, digər sahələrdə gəlirlərinin artımında, məşğulluğun həllində və əhalinin rifahının yüksəldilməsində əhəmiyyətli yer tutur.

Amma Azərbaycan-Türkiyə iqtisadi əlaqələri enerji-nəqliyyat qovşaqları ilə məhdudlaşmır. Son illər iki qardaş ölkə arasında münasibətlər qarşılıqlı investisiya qoyuluşunu da artırıb. Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, 2023-cü ilin yanvar-sentyabr aylarında ölkəmizdən ən çox birbaşa investisiya Türkiyə iqtisadiyyatına yatırılıb. "Azərbaycanla Türkiyə arasında münasibətlər digər dövlətlərə örnəkdir, çox güclü siyasi münasibətlərimiz var. Biz istəyirik ki, "bir millət, iki dövlət" şüarı ilə inkişaf edən bu münasibətlər iqtisadi sahədə də özünü göstərsin və biz iş adamları ilə birlikdə daha da irəli gedək". Bu sözləri bir müddət əvvəl ölkəmizdə səfərdə olan Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz Azərbaycanda fəaliyyət göstərən türk iş adamlarının iştirakı ilə keçirilən "İş dünyasının görüşü" adlı tədbirdə deyib.

Azərbaycan-Türkiyə İnvestisiya Forumunda da eyni fikir vurğulanıb. Forumda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın xarici ölkələrdəki investisiya həcminə görə Türkiyənin birinci yerdə olduğunu qeyd edərək bildirib ki, ölkəmiz 1995-ci ildən 2023-cü ilin 6 ayınadək qardaş Türkiyəyə 19,9 milyard dollar həcmində investisiya yatırıb. Nazir çıxışında onu da deyib ki, Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşıdır: "Bu ilin 11 ayında ölkələrimiz arasında ticarət dövriyyəsi 7,2 milyard dollar təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz çoxdur. İxrac 52 faizdən çox artaraq 5,1 milyard dollar təşkil edib". Azərbaycanın sənaye potensialından söz açan nazir daha sonra deyib: "Hər il əhəmiyyətli həcmdə ticarət balansının profisitini qeydə alırıq. Fiskal gəlirlərimiz həyata keçirilən siyasət nəticəsində təmin edilir. Hədəfimiz iqtisadiyyatımızın şaxələndirilməsi, ölkənin müasir sənaye potensialına malik olmasıdır. İxrac bizim üçün önəmlidir. İstehsal etdiyimiz məhsulun əhəmiyyətli hissəsi ixrac edilməlidir. Sənaye zonaları Sumqayıtda, işğaldan azad edilmiş ərazilərimizdə də fəaliyyət göstərir. Bu yaxınlarda Gəncədə yeni sənaye zonası açılacaq".

Ötən il Türkiyə ilə Azərbaycan arasındakı ticarətin dəyəri 6,5 milyard dollar olub. Tədbirdə çıxış edən Türkiyənin ticarət naziri Ömər Bolatın sözlərinə görə, bunun 2,5 milyard dollarını Azərbaycana ixrac, 4 milyard dollarını isə idxal təşkil edir. Türkiyəli nazir həmçinin ölkəsində Azərbaycan kapitallı 2800-dək şirkətin fəaliyyət göstərdiyini qeyd edərək söyləyib: "Türkiyənin isə Azərbaycanda fəaliyyət göstərən şirkətlərinin sayı 5700-dür. Türkiyədə Azərbaycan şirkətləri inşaat,



tibb, pərakəndə ticarət, mədənçilik, emal sahələrində fəaliyyət göstərirlər".

Forumda Naxçıvanın Türkiyə üçün önəmindən də bəhs olunub. Zəngəzur dəhlizinin açılması ilə Türkiyə və Azərbaycan arasında Naxçıvan üzərindən quru yol bağlantısı mühüm əhəmiyyət kəsb edəcək. Ömər Bolat bu barədə fikirlərini söyləyib: "Azərbaycan Orta dəhlizin önəmli ölkələrindəndir. İstanbuldan Bakıya yükdaşımanın daha rahat və rəqabətqabiliyyətli olmasını istəyirik. Bunun üçün Türkiyə hər cür dəstəyi verməyə hazırdır". Mikayıl Cabbarov da bu barədə fikrini açıqlayıb: "Biz Qars-Naxçıvan dəmir yolunun inşası planını da Orta dəhlizin yeni bir qolunun yaranması kimi qiymətləndirməliyik. Zəngilan, İran, Naxçıvan və yenidən Türkiyə ərazisindən keçəcək yol alternativ kimi bizim nəqliyyat sahəsində tərəfdaşlığımızı daha da möhkəmlədəcək".

Forumda Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ilə "Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri" İctimai Birliyi arasında bir sıra sənədlər imzalanıb. AZPROMO və TÜİB arasında imzalanmış 2024-cü il üçün fəaliyyət planında ölkələrimiz arasında ticarət və investisiya həcmini artırmaq, iki ölkə arasında əməkdaşlığı gücləndirmək, qarşılıqlı investisiya imkanlarını dəstəkləmək və davamlı inkişaf məqsədlərinə uyğun birgə layihələri təşviq etmək nəzərdə tutulub. Ən diqqətçəkən məqam isə "DO-DEM" MMC ilə "Multipak Ambalaj" şirkəti arasında imzalanmış müqavilə olub. Sənədə əsasən, Azərbaycanda kağız əsaslı, təbiətə zərər verməyən və qida təhlükəsizliyinə faydası olan qabların istehsalı üzrə fabrik tikiləcək. "Diplomat LTD" ilə "Doğru Holding" arasında imzalanmış sənədə uyğun olaraq, şirkət tərəfindən Azərbaycanda hotel də tikiləcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Bakıda Yaradıcı İttifaqların və Mədəniyyət Xadimlərinin birinci qurultayı keçirilib

## Qurultay iştirakçıları İlham Əliyevin prezidentliyə namizədliyini dəstəkləyiblər



Dekabrın 22-də Beynəlxalq Muğam Mərkəzində Yaradıcı İttifaqların və Mədəniyyət Xadimlərinin birinci qurultayı keçirilib.

AZƏRTAC xəbər verir ki, görkəmli mədəniyyət və incəsənət xadimlərinin iştirak etdiyi tədbirdə cari il ərzində mədəniyyət sahəsində qazanılan uğurlardan söhbət açılıb.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli, Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadə, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Şəfiqə Məmmədova, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri vəzifəsini müvəqqəti icra edən, Xalq artisti Hacı İsmayılov, Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının baş rejissoru, Xalq artisti Aleksandr Şarovski və başqaları çıxış edərək bildiriblər ki, 2023-cü ilin Azərbaycan xalqının və dövlətinin tarixinə çox əlamətdar il kimi düşüb. Bu il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar ölkəmizdə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilib.

Qeyd edilib ki, 2023-cü il Azərbaycan üçün tarixi hadisələrdən biri ölkəmizin suverenliyinin bütün ərazimizdə bərqərar olmasıdır. Bu mühüm tarixi nailiyyət Ali Baş Komandan İlham Əliyevin ölçülmüş siyasəti və liderliyi sayəsində mümkün olub. Bu hadisənin məhz "Heydər Əliyev İli"ndə gerçəkləşməsinin rəmzi mənası var. Çünki Ulu Öndər Heydər Əliyevin ən böyük arzuları işğal altında olan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası, bütün məcburi köçkünlərin doğma yurdlarına qayıtması idi. Bu gün 30 ilə yaxın işğal altında qalan tarixi torpaqlarımıza həyat qayıdır, mədəni abidələrimiz bərpa olunur, qədim şəhərlərimizdə müxtəlif sahələr üzrə yerli və beynəlxalq tədbirlər keçirilir. Bir sözlə, əzəli-tarixi torpaqlarımız yenidən dirçəlir.

Natiqlər qeyd edib ki, təbii ki, bu istiqamətdə görülən işlərə töhfə vermək, əldə edilən uğurların davamlı olmasını təmin etmək məqsədilə mədəniyyət xadimlərimiz də birləşərək bütün səylərini səfərbər ediblər.

Vurğulanıb ki, dövlət başçısı İlham Əliyevin sərəncamı ilə 2024-cü il fevralın 7-nə Azərbaycan Respublikası Prezidenti seçkiləri təyin olunub. Natiqlər Prezident İlham Əliyevin ölkəmizin inkişafı və tərəqqisi üçün gördüyü işlərdən danışıblar, onun namizədliyinin dəstəklənməsinin zəruriliyini bildiriblər.

Çıxışlarda birmənalı olaraq Prezident İlham Əliyevin 7 fevral seçkiləri üçün layiqli və tək namizəd olduğuna dəstək nümayiş etdirilib.

Çıxışlardan sonra qurultay bəyanat qəbul edib.

Bəyanatda deyilir:

*"Müstəqil, güclü, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycan - xalqımızın uzun illər ərzində apardığı mübarizənin nəticəsi, onun yüksək ideallarının mənəvi və ideoloji qələbəsidir.*

*Azərbaycan xalqının ən böyük siyasi dühası olan Ümummilli Lider Heydər Əliyevin milli dövlətçilik məfkurəsi, azərbaycançılıq ideologiyası və bünövrəsini qoyduğu dövlət siyasəti müstəqil və güclü Azərbaycanı bu günün reallığına çevirmişdir. Ümummilli Lider milli kimliyin, milli-mənəvi dəyərlərin qorunması, onların ümumbəşəri dəyərlərlə vəhdəti istiqamətində mühüm işlər görmüşdür. Bu siyasətin tərkib hissəsi kimi, mədəniyyət siyasəti dövlətin strateji prioritetlərindən biri olmuşdur.*

*Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycanın mədəniyyət siyasəti onun siyasi xəttinin davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən köklü islahatlar, genişmiqyaslı layihələr cəmiyyətimizin inkişafını və mədəni tərəqqisini şərtləndirir.*

*Son 20 il ərzində milli və mədəni özünəməxsusluğun, zənginliyi ilə seçilən mədəni irsimizin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi, mədəniyyətimizin dünyaya tanıdılması işində ciddi nailiyyətlər əldə olunmuşdur. Bu uğurların qazanılmasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən aparılan siyasətin rolu danılmazdır. Mədəniyyət sahəsində əldə edilən hər bir uğur tariximizdə mədəniyyətimizin təntənəsi kimi qalacaq.*

*Milli irsimizə, təsviri və tətbiqi sənətə - ümumilikdə incəsənətə, teatra, kinoya, milli musiqiyə, kitabxana və muzey işinə - mədəniyyətin bütün istiqamətlərinə ali səviyyədə qayğı və dəstək daim hiss olunur. Dövlət başçısı tərəfindən verilən hər bir qərar ölkə daxilində və xaricdə mədəniyyətimizin tanıdılması, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və bu dəyərlərə bağlılığımızın gücləndirilməsinə xidmət edir.*

*Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında 2020-ci ildə müzəffər Ordumuz 44 günlük Vətən müharibəsində böyük Zəfərə imza ataraq, Azərbaycanın ərazi bütövlüyünü, 2023-cü ildə isə lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın tam suverenliyini və bununla tarixi ədaləti bərpa etmişdir. Torpaqlarımızın işğaldan azad olunması və qalib xalqın yeni milli kimliyinin formalaşdırılması Azərbaycan mədəniyyətinin qarşısında yeni vəzifələr qoyur.*

*Bu gün Qarabağ və Şərqi Zəngəzur, mədəniyyət beşiyimiz Şuşa özünün yeni intibah dövrünü yaşayır. Qələbədən qısa müddət keçməsinə baxmayaraq, şəhərlərimizin, kəndlərimizin yenidən qurulması, tarix-mədəniyyət abidələrimizin bərpa olunması istiqamətində intensiv işlər aparılır. İşğaldan azad edilmiş şəhər və kəndlərimizin tarixi-mədəni siması bərpa edilir, buraya yenidən mədəniyyət və milli ruh qayıdır. Təbii ki, bütün bu tarixi nailiyyətlər Prezident İlham Əliyevin illər boyu fasiləsiz zəhməti, uzaqgörən siyasəti və güclü liderliyi sayəsində mümkün olmuşdur.*

*Tarix və mədəniyyətimizin dünyada tanıdılması istiqamətində işlər davam etdirilir. Şuşa şəhərinin 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı"na çevrilməsi, 2024-cü il üçün isə "İslam dünyasının mədəniyyət paytaxtı" seçilməsi Türk və İslam dünyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycana olan xüsusi ehtiramının ifadəsidir.*

*Azərbaycan Respublikası Prezidentinin yürütdüyü müdrik, balanslaşdırılmış xarici siyasət strategiyası sayəsində mürəkkəb geosiyasi şəraitə baxmayaraq, Azərbaycanın beynəlxalq aləmdə mövqeyi daha da möhkəmlənmişdir. Bölgəmizdə yeni reallıqların yaranması və hər kəsin bununla hesablaşması İlham Əliyevin siyasi kursunun uğurudur.*

*Məhz bu siyasi kursun nəticəsidir ki, 2024-cü ildə ölkəmizdə keçiriləcək prezident seçkiləri Azərbaycanın tarixində ilk dəfə olaraq bütöv və suveren Azərbaycanda baş tutacaq.*

*Bütün sahələrdə əldə edilən uğurların, aparılan işlərin gələcəkdə də artan templərlə davam etdirilməsi, mədəniyyətimizin ən böyük sərvətimiz və gücümüz kimi dünyada tanıdılması, Prezident-Xalq birliyinin daha da möhkəmləndirilməsi, dövlətimizin və xalqımızın tərəqqisi naminə Azərbaycanın yaradıcı ittifaqları və mədəniyyət xadimləri 2024-cü il prezident seçkilərində Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədi - Möhtərəm İlham Əliyev cənablarının namizədliyini yekdilliklə dəstəkləyir.*

*Əminik ki, Azərbaycan xalqı bir daha milli maraqlarımızın müdafiəsi üçün sıx birləşərək Azərbaycanın daha da güclənməsi, çiçəklənməsi, xalqımızın rifahının daha da yüksəldilməsi, ölkəmizin gələcəyə doğru inamla və uğurla irəliləməsi naminə öz iradəsini ifadə edəcək".*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Şamaxı şəhərində Şamaxı və İsmayıllı rayonlarının sakinlərini qəbul edib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, qəbul zamanı vətəndaşlar aktiv məşğulluq proqramlarına, o cümlədən özünüməşğulluq proqramına cəlbolunma, əlillik, ünvanlı dövlət sosial yardımı, mənzil və avtomobil təminatı və s. məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülüb. Sorğu xarakterli müraciətlərlə bağlı qanunvericiliyə uyğun izahatlar verilib. Vətəndaşlar müraciətləri əsasında aktiv məşğulluq proqramlarına, habelə özünüməşğulluq proqramına, reabilitasiya xidmətlərinə cəlb edilmələri üçün qeydiyyata alınıblar.


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Laçına növbəti köç karvanı yola salınıb

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Laçın rayonunun yenidən salınan Zabux kəndinə növbəti köç karvanı yola salınıb.

AZƏRTAC xəbər verir ki, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı dekabrın 22-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Zabux kəndinə daha 30 ailə - 121 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan zabuxlular hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək Zabux kəndində 176 ailənin, yəni 688 nəfərin daimi məskunlaşması təmin edilib.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

struktur idarələrinə 2024-cü il üçün tələb olunan məişət avadanlıqlarının satın alınması məqsədilə

**müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 dekabr 2023-cü il saat 15:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1219.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərenerji" ASC tərəfindən 02.11.2023-cü il tarixdə açıq tender üsulu ilə keçirilən 330 kV-luq "Qobu Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması müsabiqəsi üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir. Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **"Azenco" ASC** müsabiqənin qalibi müəyyən edilib.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanıb.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərenerji" ASC tərəfindən 02.11.2023-cü il tarixdə açıq tender üsulu ilə keçirilən **330 kV-luq "Cənub Elektrik Stansiyası - Ələt Azad İqtisadi Zona Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması** müsabiqəsi üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir. Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **"Azərelektrik Tikinti Quraşdırma" MMC** müsabiqənin qalibi müəyyən edilib.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanıb.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Osman Xaliyevə atası

**İSMAYIL XALİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədri Osman Xaliyevə atası

**İSMAYIL XALİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5270**
**Sifariş 3333**

**Qiyməti 40 qəpik**